# Azərbaycan Respublikası Milli Məclisinin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun Bəyanatı



**Ermənistanın baş naziri Nikol Paşinyanın Qərbi Azərbaycan məsələsi və uydurma "Qərbi Ermənistan" anlayışı arasında paralel aparmaq cəhdi qəbuledilməzdir.**

Qərbi Azərbaycan məsələsi etnik təmizləməyə məruz qalmış azərbaycanlıların Ermənistana dinc, təhlükəsiz və ləyaqətli şəkildə qayıdışına xidmət edən insan hüquqları mövzusudur. "Qərbi Ermənistan" ifadəsi isə Ermənistanın konstitusiyası və digər əsas sənədlərində və siyasi addımlarında öz əksini tapmış ərazi iddiasıdır.

Baş nazirin ən azı sözdə uydurma "Qərbi Ermənistan" anlayışını sual altına alması, "mifik Ermənistandan real Ermənistana keçmək" barədə bəyanatları, əslində, çoxdan atılmalı olan addımlardır. Lakin bu, etnik təmizləməyə məruz qalmış qərbi azərbaycanlıların sülh yolu ilə öz evlərinə qayıtmaq hüququ hesabına başa gəlməməlidir.

Bizim insan hüquqlarına əsaslanan haqq işimizi ərazi iddiası ilə müqayisə etmək yolverilməzdir. Bir daha xatırladaq ki, Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətinə müraciət edərək, qərbi azərbaycanlıların qayıdışı ilə bağlı beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin ərazi bütövlüyü və suverenliyinə tam riayət olunmaqla dialoq başlatmağı təklif etmişdir. Lakin Ermənistan bu çağırışlara məhəl qoymamış və qəsdən icmanın fəaliyyətini özünün ərazi bütövlüyünə təhdid kimi təhrif etmişdir.

Baş nazir Paşinyan belə yanlış müqayisələr aparmaq əvəzinə, icmanın dialoq çağırışlarına cavab verməli, qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli qayıdışını təmin etməli, Ermənistanın konstitusiyası və digər sənədlərdən Azərbaycana və digər qonşu dövlətlərə qarşı ərazi iddialarını dərhal və qeyd-şərtsiz çıxarmaq üzərində işləməli və təhlükəli militarizasiya siyasətinə son qoymalıdır.

Azərbaycan.-2024.- 24 noyabr (№ 259).- S.1.

## Sumqayıt şəhərinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Sumqayıt şəhərinin 75 illiyi münasibətilə **qərara alıram:**

Sumqayıt şəhərinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında xidmətləri olan aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

İsmayılov Ramiz Abuzər oğlu
İsmiyev Cümşüd Rüstəm oğlu
Sadıxov Rauf İzzət oğlu

**"Tərəqqi" medalı ilə**

Ağayev Fuad Gülbala oğlu
Babayev Eldəniz Mirzə oğlu
Eminov Şirvan Ələkbər oğlu
Eyvazov Eyvaz Barat oğlu
Əfəndiyev Rahib Vaqif oğlu
Əhmədova Xavər Məmməd qızı
Hüseynov Ramiz Ağəli oğlu
İmranov Ayaz İmran oğlu
Qasımov Əyyar Zəki oğlu
Quliyeva Sevinc Mövlud qızı
Müzəffərova Ülviyyə Baba qızı
Rəcəbli Fərhad İzzət oğlu
Saydumov Tofiq Saydum oğlu
Süleymanov Mübariz Rəfael oğlu
Şahbazov Akif Səfər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 noyabr 2024-cü il*

## Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin funksiyalarının aidiyyəti üzrə "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə ötürülməsinin təmin edilməsi ilə bağlı bir ay müddətində zəruri tədbirlər görsün;

1.2. bu Fərmanın 1.1-ci bəndi və 2-ci hissəsi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. bu Fərmanın 1.1-ci bəndinə və 2-ci hissəsinə uyğun olaraq, müvafiq səlahiyyətlərin aidiyyəti dövlət orqanlarına (qurumlarına) ötürülməsi ilə əlaqədar dövlət əmlakı ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

2. "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1510 (Cild I); 2024, № 7, maddə 821) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6.2-ci və 6.3-cü bəndlərə "Mingəçevir" sözündən sonra ", Naxçıvan" sözü əlavə edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə"nin 5-ci hissəsi üzrə:

2.2.1. 5.1-ci bənddən ", habelə Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət orqanı (qurumu)" sözləri çıxarılsın;

2.2.2. 5.8-ci bənddən ", Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət orqanının (qurumunun) rəhbərindən" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 noyabr 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 490** **QƏRAR** Bakı şəhəri, 21 noyabr 2024-cü il

### "Digər dövlətdə qeydiyyatda olan istismarçılar tərəfindən istismar edilən hava gəmilərinə uçuşların təhlükəsizliyi ilə bağlı nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.19-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Digər dövlətdə qeydiyyatda olan istismarçılar tərəfindən istismar edilən hava gəmilərinə uçuşların təhlükəsizliyi ilə bağlı nəzarətin həyata keçirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 491** **QƏRAR** Bakı şəhəri, 22 noyabr 2024-cü il

### "Azərbaycan Respublikasında sektorlar üzrə strateji planların hazırlanması Qaydası"nın təsdiq edilməsi və "Azərbaycan Respublikasında büdcə təşkilatlarının sektor strateji planlarının hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 dekabr tarixli 571 nömrəli Qərarının ləğv edilməsi barədə

"Ortamüddətli xərclər çərçivəsinin tətbiqi, proqram və nəticəəsaslı büdcə mexanizminə keçid islahatlarının genişləndirilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 3 may tarixli 54 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında sektorlar üzrə strateji planların hazırlanması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasında büdcə təşkilatlarının sektor strateji planlarının hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 dekabr tarixli 571 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2761 (Cild I) ləğv edilsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

3.1. bu Qərarın tətbiqi ilə bağlı müvafiq sektorlar üzrə aparıcı qurumların sektorlar üzrə strateji planlarının, habelə həmin sektorlarda fəaliyyəti olan təşkilatların sektorlar üzrə büdcə planlarının tərtibi, icrasınadair hesabatlılığı və monitorinqi sahəsində təlimatlandırma və koordinasiyalı işin təşkilinin təmin edilməsi məqsədilə "Sektorlar üzrə strateji planların və büdcə planlarının tərtibinə dair metodoloji Təlimat"ı Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

3.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 492** **QƏRAR** Bakı şəhəri, 22 noyabr 2024-cü il

### "Nümayəndəlik xərclərinin, işçilərin mənzil və yemək xərclərinin, eləcə də əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən müalicə-profilaktik yeməklərlə, süd və ona bərabər tutulan digər məhsullarvə vasitələrlə bağlı xərclərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması normaları və Qaydası"nın təsdiq edilməsi və "Müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclərin, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərclərinin normalarının müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 4 iyun tarixli 89 nömrəli Qərarının ləğv edilməsi haqqında

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Nümayəndəlik xərclərinin, işçilərin mənzil və yemək xərclərinin, eləcə də əmək şəraiti zərərli, ağır olan və yeraltı işlərdə çalışan işçilərə verilən müalicə-profilaktik yeməklərlə, süd və ona bərabər tutulan digər məhsullar və vasitələrlə bağlı xərclərin vergitutma məqsədləri üçün gəlirdən çıxılması normaları və Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. "Müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclərin, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərclərinin normalarının müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 4 iyun tarixli 89 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 694 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 493** **QƏRAR** Bakı şəhəri, 23 noyabr 2024-cü il

### "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,"Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanının 7.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi Qaydası"təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar 2024/2025-ci tədris ilindən başlayaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki Heydər Əliyev adına Hərbi İnstitutun bakalavriat səviyyəsinə, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursuna, Bakı Hərbi Kollecinə, Gəncə Hərbi Kollecinə, Naxçıvan Hərbi Kollecinə, Heydər Əliyev adına Hərbi Liseyə və Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olunmuş və həmin müəssisələrdətəhsil alankursantlara şamil edilir.

3. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi:

3.1."Azərbaycan Ordusunun hərbi qulluqçularınınpul təminatı haqqında Əsasnamə"də bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun dəyişikliklərin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla 10 (on) gün müddətində həyata keçirilməsini təmin etsin;

3.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bu Qərardan irəli gələn məsələlərin həlliüçün zəruri tədbirlər görsünlər.

5. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 494** **QƏRAR** Bakı şəhəri, 23 noyabr 2024-cü il

### Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması haqqında" 2019-cu il 30 iyul tarixli 335 nömrəli Qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin, onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi və əməyin ödənişi fondunun müəyyən edilməsi haqqında" 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarının ləğv edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 noyabr tarixli 368 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi ləğv edilsin.

2. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 iyul tarixli 335 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1357 (Cild I); 2024, № 1, maddə 108, № 2, maddə 209, № 3, maddə 306) 2-ci və 3-cü hissələri ləğv edilsin.

3. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin, onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi və əməyin ödənişi fondunun müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 768 (Cild I); 2024, № 1, maddə 107, № 3, maddə 306) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

COP29 Baku Azerbaijan

# ICAPP-ın 12-ci Baş Assambleyası başa çatıb

**Noyabrın 23-də Kamboca Xalq Partiyasının (KXP) evsahibliyi ilə bu ölkənin Pnompen şəhərində Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) 12-ci Baş Assambleyasının 4-cü plenar iclası, Asiya Mədəniyyət Şurasının (ACC) 3-cü iclası və ICAPP Media Forumunun 7-ci iclası keçirilib.**

"Sülh və barışıq axtarışı" mövzusunda keçirilən dördüncü plenar sessiyada Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov da iştirak edib. İclasda dünyada artan münaqişələrin regional və qlobal təhlükəsizliyə çoxsaylı təhdidlər yaratdığı vurğulanaraq bütün siyasi partiyalar sülh naminə əməkdaşlığa dəvət olunub.

Asiya Mədəniyyət Şurasının "Sülh və barışığın təşviqi naminə mədəni müxtəliflik" mövzusunda keçirilən 3-cü iclasında Azərbaycanı YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin məsləhətçisi Nizami Məmmədov təmsil edib. İclasda xalqların mədəni özünəməxsusluğunun qorunmasının, sülh və barışıq naminə mədəniyyətlərarası dialoqun təşviqinin əhəmiyyətindən bəhs olunub.

ICAPP Media Forumunun "Rəqəmsal era kontekstində saxta xəbərlərlə mübarizə" mövzusunda keçirilən 7-ci iclasında isə YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin aparıcı məsləhətçisi, Yeni Azərbaycan Partiyasının media qurumu olan Yeni TV-nin aparıcısı Nurlana Mehdiyeva çıxış edib. O, qlobal çağırışlar fonunda informasiya və kommunikasiya texnologiyalarının inkişafının ayrı-ayrı xalqların həyatına və dövlətlərin siyasətinə təsirlərindən bəhs edib. Qeyd olunub ki, bir sıra dövlətlər və ya dövlətlərin dəstəyi ilə təşkilatlanmış qruplar beynəlxalq ictimai rəyi yanlış istiqamətə yönləndirmək üçün vaxtaşırı qarayaxma kampaniyaları aparırlar.

N.Mehdiyeva diqqəti həm Azərbaycan torpaqlarının 30 ilə yaxın işğal altında saxlanıldığı zaman, həm İkinci Qarabağ müharibəsi ərəfəsində, həm də postmüharibə dövründə ölkəmizə qarşı aparılan qarayaxma kampaniyalarına yönəldib. Regionda bir münaqişə ocağının söndüyü ərəfədə ayrı-ayrı dairələrin məhz media platformasından istifadə edərək birtərəfli, qərəzli və bugünkü reallıqla daban-dabana zidd olan feyk məlumatlar yaymağa çalışdığını deyən Nurlana Mehdiyeva bunun sabitlik və inkişafa hədəflənmiş Cənubi Qafqaz yolunda başlıca maneələrdən olduğunu diqqətə çatdırıb. Eyni zamanda bu günlərdə Azərbaycanın evsahibliyi ilə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 zamanı da həmin dairələrin ölkəmizə qarşı informasiya hücumunun növbəti dalğasına start verdikləri qeyd olunub.








Sonda N.Mehdiyeva media nümayəndələrini səyləri birləşdirərək dezinformasiya və media manipulyasiyası kimi mənfi niyyət güdən fəaliyyətlərə qarşı mübarizədə vahid mövqe nümayiş etdirməyə çağırıb.

İclasın sonunda ICAPP Media Forumunun fəaliyyət qaydalarını və müzakirələrin əsas nəticələrini özündə əks etdirən Pnompen Bəyanatı qəbul olunub.

Daha sonra Kamboca Krallığının baş naziri, Kamboca Xalq Partiyasının vitse-prezidenti və ICAPP-ın 12-ci Baş Assambleyasının prezidenti Hun Manetin sədrliyi ilə assambleyanın bağlanış mərasimi olub. Tədbirdə aparılmış müzakirələrin əsas məzmununu özündə əks etdirən Pnompen Bəyannaməsi qəbul edilib.

Həmin gün tədbir iştirakçılarının Kamboca Krallığının xüsusi hüquqi sənədlər mərkəzinə və "Vin-Vin" abidəsinə ziyarəti təşkil olunub.

# COP29-un bağlanış plenar iclası keçirilib, bir sıra mühüm qərarlar qəbul edilib

*Əvvəli 1-ci səh.*

Sonra çıxış edən Braziliyanın ətraf mühit naziri Marina Silva bildirib ki, ölkəsində keçiriləcək COP30 konfransı bütün ölkələr arasında möhkəmlənəcək əməkdaşlığın nümunəsi olmalıdır.

O qeyd edib ki, bunun baş verməsi üçün COP29-da aparılan müzakirələr zamanı qarşılaşılan çətinliklərə baxmayaraq, yekun razılaşma əldə etməli, gücümüzü birləşdirməliyik. "Üzləşdiyimiz böhranı nəzərə alsaq, belə məsələlər təcili həll tələb edir. Bu razılaşmanın əldə olunması yalnız tərəflər arasında həmrəyliyin formalaşmasından asılıdır. Cəmiyyət bizdən yalnız məsuliyyətli addımlarla irəliləməyi tələb edir", - deyə nazir vurğulayıb.

Daha sonra COP29 çərçivəsində keçirilmiş müzakirələrin hesabatları və iclasların protokolları, həmçinin razılaşdırılmış sənədlər təsdiqlənib. COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan edilməsi barədə qətnamə qəbul olunub.

Plenar iclasda Paris Sazişinin 6-cı maddəsi tam təsdiq olunub. Bu, yüksək inteqrasiya olunmuş karbon bazarları üzrə danışıqların onillik müddətdən sonra başa çatmasıdır. Sözügedən məsələ COP29 sədrliyinin əsas prioritetlərindən biri idi və bu, tərəfləri intensiv ikitərəfli texniki və siyasi danışıqlar vasitəsilə bu mühüm nailiyyətə doğru apardı. Bu strategiya illərlə davam edən çətin vəziyyətə son qoymağa kömək etdi və Paris Sazişinin sonuncu vacib bəndini yekunlaşdırır. Altıncı maddə iqlimlə bağlı hədəflərə çatmaq məqsədilə əməkdaşlıq edən ölkələr üçün etibarlı və şəffaf karbon bazarları təmin edir. Bu transsərhəd əməkdaşlıq sayəsində ölkələrin milli iqlim planlarının (NDCs) həyata keçirilməsi xərclərini ildə 250 milyard dollara qədər azaldacağı gözlənilir. COP29 sədrliyi tərəfləri bu vəsaiti daha böyük iqlim ambisiyalarına yenidən investisiya yatırmağa təşviq edir. Fevral ayında təqdim ediləcək növbəti nəsil NDCs-lər dünyanın 1,5 dərəcə hədəfinə olan ümidləri üçün mühüm əhəmiyyət daşıyır. İqlim diplomatiyasında ən mürəkkəb və texniki problemlərdən birinin həlli sayılan 6-cı maddə üzrə razılıq kömür zavodlarının istismardan çıxarılması, külək stansiyalarının qurulması və meşələrin salınmasını əhatə edir. Bu, inkişaf etməkdə olan dünyada yeni investisiya dalğası deməkdir. Altıncı maddə üzrə yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünün təmin edilməsində mühüm rol oynayacaq. Bu qərar, real, əlavə, yoxlanıla və ölçülə bilən emissiyaların azaldılması və aradan qaldırılması vasitəsilə karbon bazarlarının şəffaflığını və dayanıqlılığını təmin edərək, qlobal iqlim investisiyalarına təkan vermək üçün böyük potensialı ortaya qoyacaq. Qəbul edilmiş təlimatlar və qaydalar karbon layihələrinin praktikliyinin və inklüzivliyinin qorunub saxlanmasını təmin etmək üçün nəzərdə tutulub. Həmin təlimatlar və qaydalar elə təşkil olunub ki, onlar karbon layihələrinin öz praktikliyinin və inklüzivliyinin qorunub saxlanmasını təmin edir, insan hüquqlarına hörmət bəsləyir və davamlı inkişafa dəstək göstərir, o cümlədən ölkələrə və layihə tərtibatçılarına Paris Sazişi çərçivəsində inamla əməkdaşlıq etmək imkanı verir.











Tədbirdə inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını təmin edən tarixi qərar qəbul olunub. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən iqlim dəyişmələrinin fəsadlarının kiçik ada ölkələrinə törətdiyi çətinliklərin həlli məsələsinin COP29 sədrliyinin prioriteti kimi müəyyən edilməsinə uyğundur. İtki və Zərər Fondunun (Loss and Damage Fund) yaradılması Misirdə keçirilmiş COP27 zamanı qərara alınmışdır. Fond iqlim dəyişmələrinin təsirlərinə ən həssas ölkələrə maliyyə yardımı göstərmək məqsədi daşıyır. Birləşmiş Ərəb Əmirliklərində keçirilmiş COP28 zamanı fondun fəaliyyətə başlaması ilə bağlı qərar qəbul olunub. COP29 sədrliyi İtki və Zərər Fondunun fəaliyyətinin təmin edilməsi istiqamətində mühüm addımlar atıb, İdarə Heyəti və Dünya Bankı ilə sıx əməkdaşlıq edib. Cari ilin sentyabrında fondun İdarə Heyətinin Bakıda keçirilmiş 3-cü iclası zamanı fondun fəaliyyətə başlaması üçün vacib tədbirlər görülüb, fondun icraçı direktoru təyin edilib. COP29 çərçivəsində isə İtki və Zərər Fondu ilə bağlı bir sıra mühüm sazişlər imzalanıb. Bunlar fondun İdarə Heyəti ilə Dünya Bankı arasında "Qəyyumluq Sazişi" və "Katibliyin Evsahibliyi Sazişi", eləcə də fondun İdarə Heyəti ilə ev sahibi ölkə olan Filippin Respublikası arasında imzalanmış "Ev Sahibi Ölkəyə dair Saziş"dir. Hazırda fonda vəd edilən ümumi maliyyə dəstəyinin məbləği 730 milyon ABŞ dollarından artıqdır. Əldə edilən bu nailiyyətlərlə İtki və Zərər Fondu 2025-ci ildən etibarən layihələri maliyyələşdirə biləcək. Bu, Azərbaycanın COP29 sədrliyinin növbəti uğurudur.

Plenar iclasda Paris Sazişinin 13-cü maddəsinə uyğun olaraq İkiillik Şəffaflıq Hesabatlarının hazırlanması, qabiliyyət quruculuğu sahəsində inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki dəstəyin göstərilməsinə dair qərar qəbul olunub. Qərar Paris Sazişinin 13-cü maddəsi ilə yaradılan Zənginləşdirilmiş Şəffaflıq Çərçivəsinin həyata keçirilməsi, o cümlədən inkişaf etməkdə olan ölkələr tərəfindən İkiillik Şəffaflıq Hesabatlarının hazırlanmasına maliyyə və texniki dəstəyin göstərilməsini ehtiva edir. Sənəddə COP29 sədrliyinin təşəbbüsü olan Bakı Qlobal İqlim Şəffaflığı Platforması da yer alıb. Həmin qərarda COP29 sədrliyinin iqlim şəffaflığı sahəsində həyata keçirdiyi tədbirlər, o cümlədən iqlim şəffaflığına həsr olunmuş bir sıra forumlar və qabiliyyət quruculuğu təlimlərinin təşkili, COP29-un iqlim şəffaflığı sahəsində əsas irsi olan Bakı Qlobal İqlim Şəffaflığı Platformasının yaradılması tərəf dövlətləri tərəfindən alqışlanıb.

Plenar iclasın davamında yeni iqlim hədəfi qəbul olunub. Belə ki, COP29-un əsas prioriteti olan iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfi qəbul olunub.

Sənədə əsasən, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin 2035-ci ilədək ən azı 300 milyard ABŞ dollarına çatdırılması təmin ediləcək. Bu vəsait dövlət, özəl, habelə çoxtərəfli mənbələr daxil olmaqla bütün mümkün mənbələr hesabına təmin olunacaq. Sənəd inkişaf etməkdə olan ölkələri könüllülük prinsipi əsasında iqlim maliyyəsinə töhfə verməyə çağırır.

Plenar iclasda, eyni zamanda "Gender və iqlim dəyişikliyi", "Uyğunlaşmaya dair qlobal hədəf", "Şarm əl-Şeyx yumşaltma ambisiyaları və icra iş proqramı" da daxil olmaqla, bir sıra digər sənədlər təsdiqlənib.

Sonra çıxış edən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil COP29-da önəmli qərarların qəbul olunduğunu, bununla belə qarşıda xeyli görülməli işlərin dayandığını diqqətə çatdırıb. O, COP29-da iqlim maliyyə hədəfinin 3 dəfə artırılması barədə razılığın əldə edildiyini, bunun iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalanlara dəstək üçün önəmli olduğunu deyib. Saymon Stil təxminən 10 il davam edən çətin fəaliyyətdən sonra COP29-da qlobal karbon bazarı barədə razılığın əldə olunmasını yüksək qiymətləndirib.

COP29 prezidenti Muxtar Babayev Azərbaycan Prezidenti İlham Əliyevə tədbirin yüksək səviyyədə təşkilinə verdiyi dəstəyə görə minnətdarlığını bildirib. O, BMT-nin rəhbərliyinin və müvafiq qurumlarının, Azərbaycanın dövlət orqanlarının, COP29 Əməliyyat Şirkətinin, könüllülərin fəaliyyətini vurğulayıb.

Plenar iclas işini müxtəlif ölkələrin nümayəndələrinin çıxışları ilə davam etdirib.

# *Müdafiə naziri:* "Ordunun gücü və hərbçilərin peşəkarlığı istənilən təxribatlara qarşı məsuliyyət hissini artırır"

**Noyabrın 23-də Azərbaycan Müdafiə Nazirliyində xidməti müşavirə keçirilib.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə videobağlantı formatında keçirilən iclasda nazir müavinləri, qoşun (qüvvə) növləri komandanları, Əlahiddə Ümumqoşun Ordunun komandanı, Milli Müdafiə Universitetinin rektoru, baş idarə, idarə rəisləri, hərbi birlik və birləşmə komandirləri iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqlar iştirakçılara çatdırılıb. Xidməti müşavirə zamanı Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti və qoşun xidmətinin təşkili təhlil olunub.

Müdafiə naziri qoşunların döyüş qabiliyyətinin daha da yüksəldilməsi, ayıq-sayıqlığın artırılması, eləcə də döyüş növbətçiliyinin düzgün təşkil olunması ilə bağlı müvafiq göstərişlər verib.



Şəxsi heyətin bilik və bacarıqlarının təkmilləşdirilməsi, peşəkarlığının artırılması məqsədilə müxtəlif qoşun növlərinin cəlb olunması ilə keçirilən təlimlərin, müsabiqə və yarışların, eləcə də hərbi vəzifəlilərin təlim toplanışlarının intensivliyinin və keyfiyyətinin daha da artırılmasının vacibliyi qeyd olunub.

Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, aparılan uğurlu islahatlar və onların müsbət nəticələri müşavirədə diqqətə çatdırılıb. Azərbaycan Ordusunun arsenalına yeni qəbul edilən silah, texnika və aviasiya vasitələrinin döyüşdə effektiv tətbiqinin öyrənilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

Təhsil sahəsində həyata keçirilmiş tədbirlərin müsbət nəticələrini qeyd edən müdafiə naziri bölmələrin yüksək bilik və bacarıqlara malik, peşəkar heyətlə komplektləşdirilməsi sahəsində görülən işlərlə bağlı aidiyyəti üzrə konkret tapşırıqlar verib.

Müşavirədə Azərbaycan Ordusunda hərbi intizam qaydalarına ciddi riayət edildiyi və mövcud intizam göstəricilərinin yüksək olduğu diqqətə çatdırılıb.

Qeyd edilib ki, Azərbaycan Ordusunda şəxsi heyətin gündəlik məişət şəraitinin, hərbi kollektivlərdə qarşılıqlı münasibətlərin, komandir və rəis heyətinin tabelikdə olanlara qarşı diqqət və qayğısının, həmçinin nizamnamə tələblərinə uyğun hərbi nəzakət qaydalarının real vəziyyətini öyrənmək məqsədi ilə mütəmadi yoxlamalar keçirilib və aşkar olunan neqativ hallara qarşı ciddi tədbirlər görülüb.

Daha sonra qış mövsümü tədbirlərinin gücləndirilməsinin, xüsusilə dağlıq ərazilərdə, sərt iqlim şəraitində yerləşən bölmələrdə ərzaq, əşya, yanacaq, odun ehtiyatının normalara uyğun saxlanılmasının, şəxsi heyətin sağlamlığına diqqət yetirilməsinin, mövsümi xəstəliklərdən qorunma və isti geyimlə təmin edilməsinin zəruriliyi bildirilib.

Nazir Ali Baş Komandanın müvafiq tapşırıqlarına əsasən şəxsi heyətin xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərin plana uyğun davam etdirilməsi ilə bağlı göstərişlər verib.

Prezident İlham Əliyevin Zəfər parkının açılışı zamanı müraciəti və digər çıxışlarından irəli gələn tapşırıqlara toxunan müdafiə naziri ordumuzun döyüş qabiliyyətinin ən yüksək səviyyədə saxlanılması üçün dövlət başçısı tərəfindən bütün imkanların yaradıldığını qeyd edib.

Müdafiə naziri bildirib ki, Ali Baş Komandanın ordunun gücünü, hərbçilərin peşəkarlığını, fədakarlığını bir daha qeyd etməsi şəxsi heyəti daha da ruhlandırır və istənilən təxribatlara qarşı məsuliyyət hissini artırır.

General-polkovnik Z.Həsənov qoşun xidmətinin təşkilinə, şəxsi heyətin döyüş hazırlığı və fərdi peşəkarlığına xüsusi diqqət yetirilməsi ilə bağlı aidiyyəti şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

Müşavirədə müdafiə naziri döyüş növbətçiliyinin aparılması, eləcə də gündəlik xidməti fəaliyyət zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması və şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin hər zaman yüksək səviyyədə saxlanılması barədə müvafiq göstərişlər verib.

COP29 Baku Azerbaijan

# Azərbaycan qlobal tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb

## *MDB İcraiyyə Komitəsi:* "Uğurlu COP29 Azərbaycanı iqlim siyasətində lider mövqeyinə çıxarıb"

**Təbiətin və biomüxtəlifliyin qorunması dövrümüzün ən mühüm vəzifələrindən biridir, çünki onlar ekoloji tarazlığın qorunmasında, habelə bəşəriyyəti qida, su və hava kimi zəruri resurslarla təmin edən ekosistemlərin sabitliyinin təmin edilməsində əsas rol oynayır.**

AZƏRTAC MDB İcraiyyə Komitəsinin İnformasiya-analitik şöbəsinə istinadla xəbər verir ki, insan fəaliyyətinin mənfi nəticələri səbəbindən təbiət indi təhlükə altındadır. Ciddi problem əhalinin sağlamlığına və ətraf mühitə mənfi təsir göstərən hava və suyun çirklənmə səviyyəsinin artmasıdır. Son illərdə bitki örtüyü yanğınlarından yaranan emissiyalar və meşələr tərəfindən karbon sekvestrinin azalması, qazıntı yanacaqlarından yüksək emissiyalar ilə birlikdə istixana qazlarının konsentrasiyalarının artmasına səbəb olub. Beləliklə, 2023-cü ilə qədər karbon qazı, metan və azot oksidinin yer səviyyəsində qlobal orta konsentrasiyaları sənayedən əvvəlki səviyyələrlə müqayisədə müvafiq olaraq 151 faiz, 265 faiz və 125 faiz artıb.

Planet qida təhlükəsizliyi və biomüxtəlifliyə təhlükə yaradan mənfi tendensiya nəticəsində sağlam şirin su obyektlərindən və ehtiyatlarından məhrum olur. Şirin su ekosistemlərinin deqradasiyasına ətraf mühitin çirklənməsi, quraqlıq, suyun israfçılığı, iqlim dəyişikliyi və bir sıra digər amillər səbəb olur. Onların təsiri altında dünyanın 402 hövzəsində çay axını azalıb ki, bu da 2000-ci ildəkindən 5 dəfə çoxdur.

İntensiv kənd təsərrüfatı, torpaqlardan qeyri-rasional istifadə və onun bərpası üçün tədbirlərin görülməməsi münbitliyin itirilməsinə, eroziyaya və torpağın deqradasiyasına gətirib çıxarır.

Qlobal temperatur rekord səviyyədədir. Bu əsrdə 3 dərəcə Selsi qlobal istiləşmə ehtimalı 66 faizdir. Növbəti beş ilin ən azı birində qlobal orta temperaturun sənayedən əvvəlki səviyyədən 1,5 dərəcə Selsi yuxarı qalxması ehtimalı da 80 faizə çatır.

Bir milyona yaxın flora və fauna növü artıq tam məhv olmaq ərəfəsindədir, bütün ekosistemlər yaxın onilliklərdə iz qoymadan itirilə bilər.

Nəticə etibarilə təbiəti mühafizə insanın həyatda qalması məsələsidir. Hər bir növ, hər bir ekosistem prosesi vacibdir və onlardan hər hansı birinin itirilməsi bizim həyatımız və gələcək nəsillər üçün gözlənilməz nəticələrə səbəb ola bilər.

Ətraf mühitin təhlükəsizliyi və biomüxtəlifliyin qorunması ekologiyaya mənfi təsirlərin azaldılmasına kömək edən dünya birliyi üçün prioritet fəaliyyət sahələridir. Bu sahədə strateji məqsədlər BMT-nin Stokholm Konfransı (1972), Ümumdünya Təbiət Xartiyası (1982), Bioloji Müxtəliflik Konvensiyası (1992) və Paris Sazişi (2015) ilə müəyyən edilib.

Ekoloji problemlərin həlli Müstəqil Dövlətlər Birliyinin gündəliyində də əsas yer tutur. Ötən müddət ərzində MDB çərçivəsində ətraf mühitin mühafizəsi və təbii sərvətlərin idarə edilməsinin müxtəlif sahələrində səmərəli qarşılıqlı fəaliyyəti təmin etmək üçün möhkəm hüquqi baza formalaşdırılıb.

Ekologiya və təbii sərvətlərdən ehtiyatlı istifadə məsələləri, ənənəvi olaraq, Birlik ölkələrinin rəhbərlərinin diqqət mərkəzində olub və MDB dövlətlərinin ərazisində həyata keçirilən bir çox layihə və təşəbbüslər çərçivəsində öz həllini tapır.

2022-ci ildə MDB-yə üzv dövlətlərin başçıları qlobal iqlim gündəliyinin həyata keçirilməsinə konstruktiv töhfə vermək niyyətlərini təsdiqləyən İqlim sahəsində əməkdaşlıq haqqında bəyanat qəbul etdilər. Sənəddə etiraf edilir ki, iqlim dəyişikliyi dünyanın ən mühüm problemlərindən biridir və onun həlli beynəlxalq birliyin bütün üzvlərinin razılaşdırılmış fəaliyyətini tələb edir. MDB-yə üzv dövlətlərin mövcud beynəlxalq öhdəliklərə sadiqliyi və iqlim siyasətinə balanslaşdırılmış və iqtisadi cəhətdən əsaslandırılmış yanaşmanın zəruriliyi təsdiqlənir.

2020-ci ildə yenilənmiş MDB-nin gələcək inkişafı konsepsiyasına əsasən, "əməkdaşlığın mühüm tərkib hissəsi ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan, o cümlədən iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş resurslardan səmərəli istifadə sahəsində qarşılıqlı fəaliyyətdir".

Qeyd edək ki, MDB-yə üzv dövlətlərdə milli səviyyədə ekologiya və ətraf mühitin mühafizəsi məsələlərinə də üstünlük verilir. MDB İcraiyyə Komitəsinin saytında yerləşdirilən materialda qeyd olunur ki, Azərbaycanın bu sahədə əldə etdiyi əsas nailiyyətlərdən biri ölkəni qlobal iqlimdə lider mövqeyə çıxaran BMT-nin iqlim dəyişikliyi üzrə genişmiqyaslı konfransının sessiyasının - COP29-un uğurla keçirilməsi olub. Bu tədbir Bakının iqlim siyasətini və beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi rolunu vurğulayıb. Bu konfransın mühüm aspekti karbon bazarları və iqlim maliyyəsi ilə bağlı məsələlərin həllində irəliləyiş olub.

Azərbaycan Paris Sazişinə uyğun töhfələr üzrə milli planların bir hissəsi olan "yaşıl texnologiya"ların inkişafı və meşə örtüyünün qorunması üzrə fəal işləyir. Belə ki, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bir sıra proqramlar, o cümlədən 2020-2030-cu illər üçün Milli Meşə Təsərrüfatı Proqramı hazırlanıb. Bundan əlavə, ətraf mühitin yaxşılaşdırılmasına yönəlmiş "Yaşıl Bakı" kimi layihələr həyata keçirilir ki, bu da ətraf mühit məsələlərində ictimaiyyətin fəal iştirakını nümayiş etdirir.

Materialda ətraf mühitin mühafizəsi istiqamətində MDB ölkələrində həyata keçirilən tədbirlər haqqında geniş məlumat verilir. Ümumiyyətlə, MDB məkanında ekoloji təhlükəsizliyin təmin edilməsi iştirakçı dövlətlərin əlaqələndirilmiş fəaliyyətini tələb edən mürəkkəb məsələdir. Birlik ölkələrinin səyləri bundan sonra da təbiətin və heyvanlar aləminin mühafizəsi və qorunmasına, əhalinin rahat yaşayış şəraitinin yaradılmasına, gələcək nəsillər üçün əlverişli həyat mühitinin təmin edilməsinə yönəldiləcəkdir.

## COP29-da İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını təmin edən qərar qəbul olunub

**Bakıda tarixi qərar verilib. Belə ki, COP29-da inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını təmin edən qərar qəbul olunub. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən iqlim dəyişmələrinin fəsadlarının kiçik ada ölkələrinə törətdiyi çətinliklərin həlli məsələsinin COP29 sədrliyinin prioriteti kimi müəyyən edilməsinə uyğundur.**

AZƏRTAC xəbər verir ki, İtki və Zərər Fondunun (Loss and Damage Fund) yaradılması Misirdə keçirilmiş COP27 zamanı qərara alınmışdır. Fond iqlim dəyişmələrinin təsirlərinə ən həssas ölkələrə maliyyə yardımı göstərmək məqsədi daşıyır.

Birləşmiş Ərəb Əmirliklərində keçirilmiş COP28 zamanı fondun fəaliyyətə başlaması ilə bağlı qərar qəbul olunub.

COP29 sədrliyi İtki və Zərər Fondunun fəaliyyətinin təmin edilməsi istiqamətində mühüm addımlar atmış, İdarə Heyəti və Dünya Bankı ilə sıx əməkdaşlıq etmişdir. Cari ilin sentyabrında fondun İdarə Heyətinin Bakıda keçirilmiş 3-cü iclası zamanı fondun fəaliyyətə başlaması üçün vacib tədbirlər görülmüş, fondun icraçı direktoru vəzifəsinə İbrahima Şeyx Dionqun təyin edilmişdir.

COP29 çərçivəsində isə İtki və Zərər Fondu ilə bağlı bir sıra mühüm sazişlər imzalanmışdır. Bunlar fondun İdarə Heyəti ilə Dünya Bankı arasında "Qəyyumluq Sazişi" və "Katibliyin Evsahibliyi Sazişi", eləcə də Fondun İdarə Heyəti ilə ev sahibi ölkə olan Filippin Respublikası arasında imzalanmış "Ev Sahibi Ölkəyə dair Saziş"dir.

Hazırda fonda vəd edilən ümumi maliyyə dəstəyinin məbləği 731,15 milyon ABŞ dollarından artıqdır.

Əldə edilən bu nailiyyətlərlə İtki və Zərər Fondu 2025-ci ildən etibarən layihələri maliyyələşdirə biləcək. Bu, Azərbaycanın COP29 sədrliyinin növbəti uğurudur.

## COP29 tədbirində Paris Sazişinin 6-cı maddəsi tam şəkildə razılaşdırılıb

### COP29 sədrliyi çoxtərəfli beynəlxalq danışıqlar çərçivəsində uzun müddət açıq qalan məsələlərin həllinə nail olur

**Noyabrın 23-də COP29 sədrliyi Paris Sazişinin 6-cı maddəsi çərçivəsində yüksəkkeyfiyyətli karbon bazarları ilə bağlı 10 ildir ki, davam edən danışıqlara, nəhayət, yekun vurulduğunu elan edib.**

AZƏRTAC COP29-un saytına istinadla bildirir ki, tərəflər COP29 sədrliyinin il ərzində əsas prioritetlərindən biri olan bu nailiyyət naminə həm texniki, həm də siyasi danışıqlar çərçivəsində yorulmadan çalışıblar. Onların səyi nəticəsində illərlə davam edən danışıqlar başa çatıb və Paris Sazişinin yekun müddəası öz həllini tapıb.

6-cı maddə ölkələrin öz iqlim məqsədlərinə nail olmaq üçün əməkdaşlıq edə biləcəyi yüksəkkeyfiyyətli və şəffaf karbon bazarlarının fəaliyyətə başlamasını təmin edir. Bu beynəlxalq əməkdaşlıq sayəsində milli iqlim planlarının (NDC) icra məsrəflərinin illik 250 milyard ABŞ dolları həcmində azalacağı gözlənilir.

COP29 sədrliyi tərəfləri qənaət olunan bu vəsaitləri yüksək iqlim ambisiyalarına yönəltməyə çağırır. Fevral ayında keçiriləcək Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin (NDC) növbəti mərhələsi qlobal istiləşməni 1,5 dərəcəyə qədər məhdudlaşdırmaq hədəfini qoruyub saxlamaq baxımından mühüm əhəmiyyətə malikdir. Ölkələrə iqlim planlarının ambisiyalarını artırmaq üçün vaxtında dəstək verən bu mühüm nailiyyət kritik məqamda əldə edilib.

"Biz on ildir ki, davam edən danışıqlara yekun vurduq və qlobal istiləşməni 1,5°C ilə məhdudlaşdırmaq hədəfini qorumaq üçün vacib mexanizmi işə saldıq", - deyə COP29-un prezidenti Muxtar Babayev bildirib: "İqlim dəyişməsi transmilli problemdir və 6-cı maddə də transmilli həllərə yol açır, belə ki, atmosfer üçün emissiyaların harada azaldıldığı önəmli deyil".

COP29-un baş danışıqçısı Yalçın Rəfiyev qeyd edib: "Bu gün biz iqlim diplomatiyasında ən mürəkkəb və texniki məsələlərdən birini həll etdik. 6-cı maddə mürəkkəb görünsə də, onun təsirləri gündəlik həyatımızda hiss olunacaq. Onun icrası kömür zavodlarının dayandırılması, külək stansiyalarının tikilməsi və meşələrin salınmasını nəzərdə tutur. Bu, inkişaf etməkdə olan ölkələrə investisiya qoyuluşunun yeni dövrünü bildirir".

Bugünkü nailiyyət çətin əldə olunub. Qlazqo və Şarm əl-Şeyxdə keçirilən COP konfransları karbon bazarları üçün əsas qayda, çərçivə və prosedurları uğurla müəyyən etdiyi halda, 6-cı maddənin yekun komponentləri natamam qalmışdı. COP29-dan əvvəl bu danışıqlarda yaşanan durğunluq daha geniş beynəlxalq iqlim əməkdaşlığının tam potensialının reallaşdırılmasında baha başa gələn gecikməyə səbəb olurdu.

COP29 sədrliyi keçmiş çoxtərəfli problemləri həll etmək üçün xüsusi strategiya qəbul edib. Sədrlik il ərzində tərəflər arasında konstruktiv dialoqa kömək etmiş və konsensusa nail olmaq üçün texniki və siyasi müzakirələri birləşdirərək irəliləyişə nail olmuşdur. Bu, COP29-un ilk günündə 6.4-cü maddə standartlarının erkən qəbuluna zəmin yaratmaqla, bugünkü əlamətdar nailiyyətə yol açıb.

COP29 sədrliyi bu nailiyyətə çatmaq üçün təxminən on ildir ki, yorulmadan çalışan bir çox insana, o cümlədən ayrı-ayrı təşkilatlara öz səmimi minnətdarlığını bildirir. Onların illərlə göstərdikləri səy nəticəsində əldə olunan irəliləyişsiz bugünkü konsensus da mümkün ola bilməzdi.

Bu gün 6-cı maddə üzrə qəbul edilən yekdil qərarlar real, əlavə, təsdiqlənmiş və ölçülə bilən emissiyaların azaldılması və kənarlaşdırılması yolu ilə ekoloji bütövlük və şəffaflığın, eləcə də karbon bazarlarının etibarlılığının təmin edilməsində mühüm əhəmiyyət kəsb edəcək və eyni zamanda qlobal iqlim sərmayəsini idarə etmək üçün bu bazarların böyük potensialını üzə çıxaracaqdır.

Qəbul edilmiş təlimat və qaydalar karbon layihələrinin praktiki və inklüziv qalması, insan hüquqlarının müdafiəsi və dayanıqlı inkişafa töhfə verməsini təmin etmək məqsədi daşıyır və həm ölkələr, həm də layihə tərtibatçılarına Paris Sazişi çərçivəsində inamla əməkdaşlıq etməyə imkan verən konsepsiyanı təmin edir. Bu qərarların qəbul edilməsi son deyil. Tərəflər qazandıqları təcrübə əsasında 6-cı maddənin qaydalarını davamlı olaraq tənzimləyə biləcəklər.




## "COP29-da təbiət prioritetimizdir"

**"Böyük Britaniya Hökuməti COP29-da təbiətin gündəlikdə önəmli yer tutmasını təmin etmək üçün buradadır. Qlobal iqtisadiyyatın yarısı təbiətdən asılıdır və biz təbiəti yalnız onun öz dəyəri üçün deyil, həm də özümüzü xilas etmək üçün qorumalıyıq".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Britaniyanın təbiət naziri Meri Kriq COP29 çərçivəsində keçirilən tədbirdə deyib. Nazir okean icmasının gücləndirilməsi və qrantlar proqramının birinci mərhələsi çərçivəsində maliyyələşdiriləcək 20 layihəni açıqlayıb. Bu layihələr dəniz mühitində və dünya üzrə sahilyanı icmalarda davamlı dəyişikliklər həyata keçirəcək, yoxsulluğu azaldacaq, yerli icmaları gücləndirəcək və dəniz ekosistemlərinin sağlamlığını qoruyacaq.

Meri Kriq okeanın qlobal istiləşmə, çirklənmə və turşulaşmanın üçqat təhdidindən əziyyət çəkdiyini və bunun dəniz və sahil ekosistemlərinin çökmə riskini artırdığını deyib:

"Bu mühüm layihələr Yer kürəsinin iqlim baxımından ən həssas yerlərində dəniz yaşayış mühitlərini qorumağa kömək edəcək. Qlobal iqtisadiyyatın yarısı təbiətdən asılıdır və biz təbiəti yalnız onun öz dəyəri üçün deyil, həm də özümüzü xilas etmək üçün qorumalıyıq", - deyə nazir çıxışında qeyd edib.

## "COP30 bütün ölkələr arasında möhkəmlənəcək əməkdaşlığın nümunəsi olmalıdır"

**"Braziliyada keçiriləcək COP30 konfransı bütün ölkələr arasında möhkəmlənəcək əməkdaşlığın nümunəsi olmalıdır".**



Bu sözləri COP29-un bağlanış plenar sessiyasında Braziliyanın ətraf mühit naziri Marina Silva söyləyib.

Nazir bildirib ki, bunun baş verməsi üçün COP29-da aparılan müzakirələr zamanı qarşılaşılan çətinliklərə baxmayaraq, yekun razılaşma əldə etməli, gücümüzü birləşdirməliyik. "Üzləşdiyimiz böhranı nəzərə alsaq, belə məsələlər təcili həll tələb edir. Bu razılaşmanın əldə olunması yalnız tərəflər arasında həmrəyliyin formalaşmasından asılıdır. Cəmiyyət bizdən yalnız məsuliyyətli addımlarla irəliləməyi tələb edir", - deyə o əlavə edib.

## İqlim dəyişikliyinə qarşı mübarizədə əsas rol dayanıqlı inkişaf məqsədlərinə çatmaqdır

**"İqlim dəyişikliyinə qarşı mübarizədə əsas rol dayanıqlı inkişaf məqsədlərinə çatmaq və qlobal əməkdaşlığı artırmaqdır".**



Bu barədə COP29 çərçivəsində keçirilən "Bakıdan Belemə: Meşələrin inteqrasiyalı və dayanıqlı idarə olunması üçün birgə təsirin azaldılması və uyğunlaşdırılması naminə Amazon Regional Mexanizmi" adlı tədbirdə COP28-in baş danışıqçısı Hana əl-Həşimi bildirib.

H. əl-Həşimi bildirib ki, 2030-cu ilə qədər meşələrin qırılmasının dayandırılması və bərpası üzrə hədəflərin iqlim məqsədlərinə çatmaq üçün əsas addımdır. O, meşələrin su dövranını qorumaq və "planetimizin ağciyərləri" rolunu oynamaq baxımından əvəzolunmaz olduğunu vurğulayıb:

"Təbiətin iqlim dəyişikliyinə qarşı mübarizədə əsas həlledici vasitələrdən biri olduğunu nəzərə alaraq, inkişaf etməkdə olan ölkələrin səylərini dəstəkləməli və heç bir tərəfin geridə qalmamasını təmin etməliyik", - deyə o qeyd edib.









COP29 Baku Azerbaijan

# COP-ların ən mükəmməli 29-cusu oldu



# COP-ların Azərbaycan zirvəsi









**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi qərarı dünyanın ölkəmizə etimadının, etibarının göstəricisi, beynəlxalq aləmdə qazandığı hörmət və nüfuzun dəyərləndirilməsi idi. Ölkəmiz COP29-dək bir çox möhtəşəm tədbirə evsahibliyi etməklə də dünyada yüksək imic qazanmışdı. COP29 kimi genişmiqyaslı bir tədbirin keçirilməsi üçün məhz Azərbaycanın seçilməsinin başlıca səbəblərindən biri həm də enerji keçidi sahəsindəki fəaliyyətimiz, hamıya bəlli olan "yaşıl gündəliy"imiz idi.**

Azərbaycan COP29-a doğru addım-addım, lakin uzaqgörənliklə, inamla, məqsəd aydınlığı ilə gəlmişdi.

Dünyada az olkə var ki, öz enerji təhlükəsizliyini tam şəkildə özü həll etmiş olsun. Prezident İlham Əliyevin çıxışlarının birində dediyi kimi: "Azərbaycanda ümumi iqtisadi artımdan danışarkən biz enerji təhlükəsizliyi məsələsinə toxunmalıyıq. Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini 100 faiz təmin edir və bir çox digər ölkələrin, o cümlədən Avropa İttifaqının üzvlərinin də enerji təhlükəsizliyini təmin edir. Biz neft, qaz, elektrik enerjisi, neft-kimya məhsulları ixrac edirik. Bizim planlarımıza qazın, elektrik enerjisinin və neft-kimya məhsullarının ixracını böyük həcmdə artırmaq daxildir".

Azərbaycan buna, dövlətimizin başçısının sözü ilə ifadə etsək, Tanrının bizə vəsilə etdiyi, pay verdiyi enerji resursları ilə, neft, qaz sahəsində qlobal layihələr həyata keçirməklə nail olub. Bununla yanaşı, yanacaq enerjisindən əldə olunan gəlirlərdən səmərəli istifadə ilə digər sahələri də inkişaf etdirmişik. Bir sözlə, ölkəmizdə neft kapitalı insan kapitalına çevrilib. Çoxsaylı və sanballı ekoloji layihələr də həyata keçirilib ki, bunlara da sərf olunan xərclər təbii ki, neftin və qazın satışından əldə edilən vəsaitdəndir. Bütün bunlarla yanaşı, biz xeyli vaxtdır "yaşıl enerji"yə geniş meydan vermək üzərində düşünür və işləyirik. Bu sahədə artıq uğurlu start götürülüb və layihələr gerçəkləşdirilib.

Xatırladaq ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" 29 may 2019-cu il tarixli sərəncamı ilə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə ölkədə bərpaolunan enerji sahəsində yeni istehsal güclərinin yaradılması və sahəyə özəl, o cümlədən xarici investisiyaların cəlb edilməsi istiqamətində Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası ilə "Azərbaycanda dənizdə külək enerjisinin inkişafı üzrə yol xəritəsi" hazırlanıb.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bölmələrdən biri məhz "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanır. Həmin sənəddə deyilir ki, qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasının beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaqdır.

Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Bu prioritet daxilində strateji dövrdə iki məqsədin effektiv reallaşdırılmasına nail olunmalıdır. Bunlardan biri yüksəkkeyfiyyətli ekoloji mühit, digəri "yaşıl enerji" məkanıdır.

Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə 157 giqavat təşkil edir. İndiyədək bu istiqamətdə görülən işlər barədə deməyə də söz var. Belə ki, ötən il Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin tikdiyi 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verilib. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. COP29-un davam etdiyi günlərdə Cəbrayıl rayonunda Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasının təməli qoyulub.

Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası dövlət başçısı tərəfindən "yaşıl enerji" zonaları elan edilib. Bununla yanaşı, bərpaolunan eneji layihələrimiz getdikcə daha çox bölgəni əhatə etməkdədir. Cari il iyunun 4-də "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz və 12-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" sərgilərinin açılışı zamanı Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və yüksək texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir Neftçala, Biləsuvar günəş-elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlini qoydular.

Ümumiyyətlə, 2030-cu ilə qədər ölkəmizdə təxminən 6 giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi nəzərdə tutulur. Lakin bu, planlarımızın hamısı deyil, çünki 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. Külək və günəş enerjisi layihələri hesabına elektrik enerjisinin quraşdırılmış gücündə bərpaolunan enerjinin payı 2027-ci ildə 33 faizə, 2030-cu ildə isə 35,5 faizə yüksələcək.

Bütün bu və digər nailiyyətlərimiz COP29 zirvəsindən daha aydın göründü. On minlərlə qonağımız tədbirin mükəmməl təşkilini görməklə, qlobal çağırışlarını eşitməklə yanaşı, həm də "yaşıl enerji" strategiyamızla daha yaxından tanış oldu.

*Flora SADIQLI,*
*"Azərbaycan"*









COP29 Baku Azerbaijan

# Dünya ekoloqlarının Bakı sammiti

## COP29 Azərbaycanın beynəlxalq miqyasda daha bir uğuru oldu

**Artıq başa çatan COP29 Azərbaycanın beynəlxalq müstəvidəki böyük siyasi qələbəsi, irimiqyaslı diplomatik uğuru oldu - həm belə bir mötəbər tədbirin keçirilməsinin ölkəmizə həvalə edilməsi, həm qlobal konfransın yüksək səviyyədə təşkili, həm də bir il bizə qarşı aparılan haqsız və qərəzli gözdənsalma kampaniyasına dövlətimizin sinə gərməsi baxımından...**

Dünya bir daha bizim imkan və bacarıqlarımızın, dövlət və qeyri-hökumət sektorunun harmonik əməkdaşlığının, vətəndaşlarımızın intellektual səviyyəsinin, ümumilikdə isə insan potensialımızın gücünün və perspektivlərinin şahidi oldu. İştirakçıların kütləviliyi və beynəlxalq aləmin diqqətini özünə cəlb etməsinə görə COP29 şübhəsiz ki, bu qəbildən olan ən uğurlu mötəbər əhəmiyyətli tədbirlərdən biri kimi tarixə düşdü.

Azərbaycanın "yaşıl gündəliy"i, multikulturalizm siyasəti və qlobal enerji təhlükəsizliyinə verdiyi töhfələr dayanıqlı inkişaf yolunda olduğumuzu bir daha təsdiqlədi, ölkəmizin öz tarixini və milli maraqlarını qoruyaraq qlobal proseslərə necə fəal şəkildə qoşulduğunu göstərdi. Bu yanaşma Azərbaycanın enerji və logistika mərkəzi kimi mövqeyini daha da gücləndirərək COP29-un keçirilməsi üçün ideal bir platforma təqdim etdi.

Bu gün Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla əlaqələri bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və onları gücləndirmək, eləcə də həmrəyliyi möhkəmləndirmək imkanını yaradır. Dövlət başçısı Liderlər Sammitindəki çıxışında bu məsələni önə çəkərək demişdir: "Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib".

Dövlətimiz inkişaf etmiş və inkişaf edən ökələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün bundan sonra da əlindən gələni edəcəyini bəyan etdi. Bütün bu amillərlə yanaşı, COP29 Azərbaycanın həm də uzun illərdir apardığı ədalət uğrunda mübarizəsində nail olduğu simvolik zəfərdir. Bu yalnız dövlətin deyil, hər bir vətəndaşın COP29 zəfəridir.

### İntellektual potensialımızın dünyaya nümayişi

Bakıda yüksək səviyyədə keçirilən COP29-u səciyyələndirən mühüm xüsusiyyətlərdən biri odur ki, Azərbaycan qlobal ekoloji problemlərin çözümü üçün təşkil edilmiş konfransa təkcə evsahibliyi edən tərəf deyildi. Ölkəmiz bu beynəlxalq müstəvinin yaratdığı imkanlardan maksimum yararlanaraq bərpaolunan, yaxud ekoloji cəhətdən təmiz enerji mənbələrinin istismarı sahəsində ciddi addımlar atmağa nail oldu. COP29 çərçivəsində dünyanın müxtəlif ölkələrini təmsil edən tanınmış şirkətlərlə imzalanan müqavilə və sazişlər Azərbaycanda nəinki enerji hasilatı, habelə bütün iqtisadiyyatın tədricən və ardıcıl şəkildə yaşıl formata keçidini təmin edəcək. Bu, illərdir dünyaya neft və qaz ixrac edən, neft hasilatı istiqamətində əsryarımlıq tarixi, bir sıra ilklərin vətəni olan bir ölkə üçün inqilabi göstəricidir.

İnsan zəkası inkişaf etdikcə, texnoloji tərəqqi irəlilədikcə hər bir kəs ənənəvi təcrübəni irəli aparıb əvvəlkindən daha yaxşısını, yaşayış tərzi və ətraf mühit üçün daha yararlısını etməyə çalışır. Bu baxımdan "yaşıl enerji"yə keçid prosesi də getdikcə sürətlənir. Həmin prosesdə adətən dəyişiklik meyillərini vaxtında dəyərləndirib ona çevik şəkildə uyğunlaşan dövlətlər, cəmiyyətlər böyük nailiyyətlər əldə edirlər. Sevindirici haldır ki, Azərbaycan bu prosesin önündə addımlayan ölkələrdəndir. Zəngin neft resursları ilə tarixən enerji ölkəsi kimi tanınmış respublikamız hazırda "yaşıl enerji"yə keçid sahəsində də nümunələr yaradaraq ənənələrini qoruyub inkişaf etdirir. Eyni zamanda qlobal miqyasda bu istiqamətdə təşəbbüslərə real layihələrlə böyük faydalar verir.

Hazırda Azərbaycan istifadə etdiyi elektrik enerjisinin cəmi 6 faizini bərpaolunan mənbələrindən əldə edir. 2030-cu ildə ölkəmiz bu sahədə 34 faizlik göstəriciyə nail olmağı hədəfləyir. Bu həm hazırda elektrik enerjisinin istehsalı üçün tələb olunan xammala qənaət, həm də ətraf mühitin təmizliyi baxımından ciddi göstərici olmaqla yanaşı, aylardır "neft ölkəsi iqlim dəyişmələrinə dair konfransı necə keçirə bilər" hədyanlarını qaldıran dairələrə və dövlətlərə verilmiş tutarlı cavabdır. Bu, dövlətimizin beynəlxalq öhdəliklərə verdiyi önəm və töhfə, hökumətimizin çevikliyi və novatorluğa adaptasiya bacarığı ilə paralel, xalqımızın intellektual səviyyəsi və potensialının dünyaya nümayişidir. Biz xammal ölkəsi deyil, faydalı qazıntıları istehsala, real iqtisadiyyatın qurulmasına və nəticə etibarilə insan kapitalına sərf edə bilən, savadlı cəmiyyətdə yaşayan xalqıq! Bu reallıq COP29-u yüksək səviyyədə keçirməyə nail olan dövlətimizin və təbii ki, xalqımızın böyük uğurudur.

### Avropanın zülməti və türkün işığı

Azərbaycan 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndən irəli gələn prinsip və öhdəliklərə sadiqlik göstərərək, onların ardıcıl şəkildə həyata keçirilməsi ilə beynəlxalq tərəfdaşlarını enerji daşıyıcıları ilə təmin edib. Ölkəmizin etibarlı tərəfdaş qismində çıxış etməsi beynəlxalq aləmdə siyasi çəkimizin də artmasına səbəb olub. Azərbaycan faktiki olaraq iqtisadi imkanlarını siyasi kapitalın toplanmasına, beynəlxalq imic və nüfuzunun yüksəlməsinə yönəltməyi bacarmış nadir dövlətlərdən biridir. Geosiyasi platformada əldə etdiyimiz bütün nailiyyətlər və onların məntiqi sonluğu olaraq qazandığımız Qarabağ zəfəri təkcə iqtisadi resurslara malik olmağımızla bağlı deyil, bu imkanları optimallıqla sərfiyyatın və daima etibarlı tərəfdaş statusunda çıxış etməyimizin bəhrəsidir. Bunun nəticəsidir ki, Azərbaycan hazırda Avropanın 10-a yaxın ölkəsini mavi yanacaqla təmin edir və "qoca qitə"dəki ixrac coğrafiyamız getdikcə genişlənir. Təsadüfi deyildir ki, ixrac arxitekturasının şaxələnməsini bizdən məhz Avropanın rəhbərləri xahiş edirlər. Bu gün bəzi Avropa dövlətlərinin Azərbaycana münasibətdə qərəzli yanaşmaları, COP29-a qarşı qarayaxma kampaniyasının önündə olmaları qazandığımız uğurlar müqabilində həm də onların məğlubiyyətlərini etiraf etmələridir.

Azərbaycanın dünya iqtisadiyyatının yeni trendi - bərpaolunan enerjidə texniki potensialı quruda 135, dənizdə 157 giqavat təşkil edir. Bu, olduqca böyük ehtiyatdır. Azərbaycan həyata keçirməyi planlaşdırdığı çevik tədbirlər vasitəsilə həmin enerjini ixraca yönəldəcək. Yaxın illərdə Avropa qitəsi Azərbaycanın neft və qazı ilə yanaşı, həm də "yaşıl enerji"sini idxal edəcək. Bu istiqamətdə beynəlxalq tərəfdaşlarla ilkin addımlar da atılıb. Azərbaycandan "yaşıl enerji" Gürcüstan üzərindən və Qara dənizin dibi ilə çəkiləcək kabel vasitəsilə ilkin olaraq Rumıniya və Macarıstana çatdırılacaq. Sonra isə təbii ki, Avropanın digər ölkələri də bu ekoloji cəhətdən təmiz və ucuz başa gələn enerji mənbəyinə qoşulacaqlar. Əlamətdar haldır ki, bu xəttə qardaş türk dövlətləri - Qazaxıstan və Özbəkistan da öz ehtiyatları ilə qoşulacaqlar və müştərək ixrac potensialımız daha da artacaq. Beləliklə, türk dünyası Avropa üçün işıq mənbəyi olacaq!

Prezident İlham Əliyev "yaşıl enerji" istehsalı ilə bağlı bu gün Azərbaycanın ciddi təşəbbüslərinin olduğunu Liderlər Sammitində də vurğulamışdır: "Biz 2030-cu ilə qədər təxminən 6 giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. Biz həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq. Bu, bizə Avropaya "yaşıl enerji"ni ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı 4 giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır".

### Aydın yol: "yaşıl enerji"yə doğru

COP29-dan əldə etdiyimiz simvolik qələbənin ən mühüm tərəfi isə 4 il öncə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli, mətin ordumuzun azad etdiyi torpaqlarımızla bağlıdır. Dövlət başçısının qlobal tədbirin açılışındakı çıxışında xüsusi vurğuladığı layihələrdən biri - BP şirkəti ilə 240 meqavatlıq günəş enerjisi stansiyasının tikintisi azad edilmiş Cəbrayılda gerçəkləşəcək. Qarşıdakı illərdə bu stansiya xüsusi kabel vasitəsilə Avropaya "yaşıl enerji" ixrac edəcək mənbələrdən biri olacaq. Bu, xalqımızın 30 ilə yaxın müddətdə torpaqlarının azadlığı uğrunda savaşla yanaşı, bizə qarşı aparılan ədalətsiz mübarizədə əldə etdiyi daha bir zəfərdir. Onillər boyunca etnik separatizm və hərbi cinayətlərin, soyqırımı, deportasiya və kriminalın, narkotrafik və qaçaqmalçılığın simvolu olan və "boz zona" kimi tanınan bölgədən əldə ediləcək "yaşıl enerji" xalqımıza qarşı bu ədalətsizliyi müdafiə və mühafizə edən, möhkəmlədən, yaxud ən yaxşı halda buna göz yuman bəzi dövlətlərin təmsil olunduğu Avropaya çatdırılacaq. Bir vaxtlar boz və qaranlıq ərazi, hazırda isə ekoloji amilləri nəzərə almaqla həyata keçirilən modern layihələr meydanı olan Qarabağ və Şərqi Zəngəzur Avropa üçün işıq mənbəyi rolunda çıxış edəcək. COP29-da əldə etdiyimiz qələbələrdən biri də məhz budur, bu nailiyyətimizi dünyaya göstərə bilməyimizdir.

*İradə ƏLİYEVA, "Azərbaycan"*
















## "Sayca 29-cu olsa da, bu, unikal COP-dur"



*"İqlim problemlərinə dair geniş və əhatəli müzakirələr aparılır. Bir çox başqa beynəlxalq tədbirlərdə belə bir səviyyədə müşahidə etdiyimiz siyasiləşmə yoxdur. İqlim gündəmi çərçivəsində öz iqtisadi rəqabətini nümayiş etdirmək cəhdi də edilmir. Açıq dialoq o cümlədən həssas ölkələrlə aparılır və hər kəs öz mövqeyini ifadə edə bilər. Bu, hətta Paris Sazişi imzalananda da müzakirə olunan iqlim maliyyəsi ilə bağlı konkret mexanizmlərin işlənib hazırlanması üçün dialoqdur. Uzun illər keçsə də, bu günədək iqlim sahəsində real addımlar atılmayıb və bu gün artıq uyğunlaşma baxımından və iqlim dəyişikliyinə təsirin azaldılması nöqteyi-nəzərindən texnologiyanın inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə ötürülməsi ilə bağlı dialoq gedir. Bu, Bakıdakı COP-un unikallığıdır".*

Bu barədə AZƏRTAC-a Rusiya Federasiyasının Su Ehtiyatları üzrə Federal Agentliyinin rəhbəri Dmitri Kirillov bildirib.

Onun sözlərinə görə, iqlim dialoqunda su gündəliyi yenicə formalaşıb.

"Bu, su mövzularının müstəqil, ayrıca müzakirə edildiyi üçüncü konfransdır və onu göstərir ki, biz indi iqlim dəyişikliyi şəraitində ekosistemlərimizi qoruyub saxlamağın zəruriliyini anlamağa yaxınlaşırıq. Bu gün su gündəmi genişlənir. Ölkələr bu vəzifələrin bir dövlətin hüdudları daxilində həll oluna bilməyəcəyini anlayaraq su ehtiyatlarının qorunması, onlardan kompleks istifadə və rasional idarə olunması üçün birgə tədbirlərin görülməsinə ehtiyac olduğunu dərk edirlər. Rusiyaya gəlincə, dövlət sərhədimizin təxminən 40 min kilometri su hövzələrindən keçir", - deyə agentliyin həmsöhbəti qeyd edib.

Rusiya ilə Azərbaycan arasında su ehtiyatları üzrə münasibətlərin inkişaf perspektivlərinə toxunan D.Kirillov transsərhəd Samur çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi haqqında mövcud hökumətlərarası sazişi xatırladıb.

Agentliyin rəhbəri qeyd edib: "Bu mövzuda dialoq demək olar ki, hər həftə keçirilir, çünki bu, su ehtiyatlarının bölünməsi, su qurğularının fəaliyyətinin təmin edilməsi ilə bağlıdır. Məsələn, bu gün toplaşdığımız Bakı şəhəri Samur suyu ilə 90 faiz təmin olunub. Əgər Rusiya ilə Azərbaycan arasında konstruktiv dialoq qurulmasa, o zaman Bakıya su təchizatı məsələsi havada qalacaq və problemin həlli üçün başqa alternativ yollar olmayacaq. Məhz bu səbəbdən biz azərbaycanlı həmkarlarımızla sıx əlaqə saxlayırıq. Bu, çayın su ehtiyatlarının 95 faizinin Rusiyada formalaşması şərti ilə ölkələr arasında strateji əməkdaşlığın nümunəsidir. Eyni zamanda konstruktiv dialoqun elementidir və biz onu bu gün burada başqa ölkələrə təşviq edirik. Çaylar ayırmamalıdır - çaylar birləşdirməlidir".

## "Ümidvaram ki, tərəflər COP29-da mühüm razılaşmalar əldə edəcəklər"



*"Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə qlobal tərəfdaşdır. Ümidvaram ki, tərəflər COP29 çərçivəsində mühüm razılaşmalar əldə edəcəklər".*

Bu barədə ukraynalı jurnalist Lesya Kesarçuk bildirib.

Onun sözlərinə görə, iqlim dəyişikliyi ilə mübarizə bütün ölkələrin, o cümlədən inkişaf etmiş dövlətlərin ümumi məsuliyyətidir.

Agentliyin həmsöhbəti vurğulayıb ki, hazırkı sammit "maliyyə COP-u" adlanır, çünki tərəflər 15 ildə ilk dəfə olaraq inkişaf etməkdə olan ölkələrdə iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin dəstəklənməsi üçün maliyyələşdirmənin həcmini və strukturunu nəzərdən keçirirlər. Ukrayna üçün isə sammit çərçivəsində Azərbaycan tərəfi ilə əməkdaşlıq iqlim dəyişikliyi ilə mübarizədə çox mühüm addımdır.

"İndi Ukraynada iqlim dəyişikliyi ilə mübarizə üzrə yeni proqramlar yaratmaq, eləcə də ekoloji layihələr təqdim etmək lazımdır. Ukrayna və Azərbaycan arasında COP29 çərçivəsində imzalanmış Əməkdaşlıq Memorandumu yeni proqramların işə salınmasına şərait yaradacaq. Hərbi əməliyyatlara baxmayaraq, bu il Ukraynanın bölgələrində "Ecodia" fəalları regionlarda yaşıllığın bərpası, suyun filtrasiyası və qara torpaqların mühafizəsi üzrə bir sıra ekoloji layihələr həyata keçiriblər", - deyə Kesarçuk qeyd edib.

O, əlavə edib ki, COP29-da iqlim dəyişikliyini azalda biləcək, həmçinin itki və zərərləri azaldacaq maliyyə razılaşmaları əldə ediləcəyini gözləyir.

"Mən hökumətlərin və digər maraqlı tərəflərin COP29-da danışıqlarının nəticələr verməsini gözləyirəm. Bu, gündəlik həyatlarında iqlim dəyişikliyi yaşayan insanlar üçün iqlim ədalətini təşviq edən məsələlərə də aiddir", - deyə ukraynalı jurnalist bildirib.

# Azərbaycandan dünyaya "yaşıl çağırış"lar












## COP29 energetiklər üçün də səmərəli oldu

### "Azərenerji" ASC qlobal iqlim konfransında beynəlxalq əlaqələrini daha da genişləndirdi

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) öz işini başa vurdu. Bakı Olimpiya Stadionunda 196 ölkənin nümayəndələri COP29 çərçivəsində dünyamızın yaşıllaşması yolunda həmrəy oldular. COP29-un "yaşıl zona"sında yaradılan yerli və xarici ölkə pavilyonlarındakı panel yığıncaqlarında müzakirə olunan məsələlər iqlim dəyişmələri, ətraf mühitin qorunması kimi mövzularla yaddaşlarda qaldı.**




COP29 çərçivəsində "Azərenerji" və "Azərişıq" "yaşıl zona"da geniş pavilyonla təmsil olunurdu. Burada ziyarətçilərə maketlər və hazırlanan təqdimatlar üzərindən geniş məlumatlar verilməklə yanaşı, tanıtım bukletləri və kataloqlar da paylanırdı. "Azərenerji" tərəfindən görülən dekarbonizasiya tədbirləri, "yaşıl enerji zonası" elan edilən Qarabağ və Şərqi Zəngəzurda 4 ildən az müddətdə ümumi gücü 270 meqavat olan 32 su-elektrik stansiyasının tikilməsi ilə bağlı verilən məlumatlar qonaqların geniş marağına səbəb olurdu.

Pavilyonda daha çox diqqət çəkən Qarabağ və Şərqi Zəngəzurun xəritəsi idi. Xəritənin COP29-da nümayiş olunmasının səbəbini "Azərişıq" ASC-nin Tədris və İnnovasiyalar Mərkəzinin "Yaşıl enerji" kafedrasının müdiri Aysel Həmidova belə söylədi: "Məlumdur ki, Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru "yaşıl enerji zonası" elan edib. Qarşıdakı illərdə bu ərazi tamamilə su, külək və günəş-elektrik stansiyalarından alınan enerji ilə təmin olunacaq. Bu gün ölkəmizdə bərpaolunan enerjinin potensialı 20 faizdən bir az çoxdur. 2030-cu ilə kimi bu potensialı 30 faizə çatdırmaq nəzərdə tutulur. Hazırda Qarabağ regionunda ümumi gücü 270 MVt olan 32 su-elektrik stansiyasında "yaşıl enerji" istehsal edilir. Bu da onu deməyə əsas verir ki, Azərbaycanda "yaşıl enerji" layihələri iqlim dəyişmələrinə qarşı mübarizədə əhəmiyyətli rol oynayır".

Qeyd edək ki, ötən iki həftədə "Azərenerji" və "Azərişıq" ASC-lərin çoxlu sayda təqdimat mərasimləri keçirilib. Tədbirlərdə əsasən ekologiyaya müsbət töhfə verən texnologiyaların tətbiqi ilə innovativ yanaşmalar nümayiş olunub. Elektrik xətlərinin və yanacaqdoldurma məntəqələrinin monitorinqi, eləcə də günəş panellərinin yarımstansiyalar üzərində quraşdırılması prosesini "Azərişıq", istehsalla bağlı məsələləri isə "Azərenerji" təqdim edib. "Yaşıl zona"da beynəlxalq enerji şirkətlərinin rəhbərləri ilə bir neçə görüş keçirən "Azərenerji" tərəfindən 6 tədbir, 5 imzalanma mərasimi baş tutub.

Tədbirin ikinci günü Səudiyyə Elektrik Şirkətinin başçısı Xalid Əl Hamidi ilə "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayev arasında imzalanan anlaşma memorandumu COP29 çərçivəsində hazırlanmış mühüm hadisə idi. Bu sənəd əsasən bərpaolunan enerji mənbələrinin enerji sisteminə inteqrasiyası, elektrik enerjisi sahəsində bilik və təcrübə mübadiləsini əhatə edir.

Elə həmin gün "Azərenerji" və "GE Vernova" şirkəti arasında imzalanan müqavilə də bu qəbildən olan tədbirlər sırasındadır. Aysel Həmidova dedi ki, tədbirin əsas mövzusu "GE Vernova" şirkəti tərəfindən "Azərenerji" ASC-nin Şirvan şəhərində yerləşən "Cənub" Elektrik Stansiyasının qaz turbinlərindən birinin 100 faiz hidrogen yanacağı ilə işləməyə keçirilməsi layihəsi idi.

Söhbət zamanı Aysel Həmidova "yaşıl zona"da baş tutan daha bir tədbir haqqında fikirlərini bölüşdü: "Azərenerji"nin rəhbəri Baba Rzayevlə Çinin "Dongfang Electric Corporation" (DEC) şirkətinin rəhbərliyi araşında görüş olub. DEC Beynəlxalq Korporasiyasının vitse-prezidenti Li Jianhua, şirkətin beynəlxalq əməkdaşlıq üzrə vitse-prezidenti Wang Ai və şirkətin Mingeçevirdə tikilən 1280 MVt-lıq yeni elektrik stansiyası üzrə layihə meneceri Li Qinin iştirakı ilə keçirilən görüşdə bu gün reallaşdırılan layihələr və əməkdaşlığın gələcək perspektivləri, "yaşıl enerji"yə keçid və enerji effektivliyi mövzusunda müzakirələr aparılıb. Bir gün sonra "Schneider Electric" şirkətinin beynəlxalq əməliyyatlar üzrə icraçı vitse-prezidenti Maniş Pant, şirkətin Türkiyə və Mərkəzi Asiya üzrə prezidenti İsmayıl Yamangilin "Azərenerji" ASC-nin pavilyonunu ziyarət edərək Baba Rzayevlə görüşünü də qeyd etməsəm olmaz. Görüşdə mövcud əlaqələr və perspektiv layihələr ətrafında müzakirələr aparılıb. Sonda "Schneider Electric" və "Azərenerji" ASC arasında bərpaolunan enerji mənbələrinin enerji sisteminə inteqrasiyası, enerji monitorinqi, planlaşdırma və digər sahələri əhatə edən anlaşma memorandumu imzalanıb".

Ekoloji problemlərin planetdə yaratdığı təhlükələrin qarşısının alınması yolları, eləcə də "yaşıl enerji" ilə bağlı mövzular dünya dövlətlərini narahat edən məsələlər olduğu üçün COP29-un fəaliyyət gündəliyində daha qabarıq yer almışdı. Bu baxımdan Azərbaycanın energetika sektorunu COP29-da təmsil edən "Azərenerji" iki həftə ərzində işini "dolu-dolu" başa vurdu, xüsusilə də beynəlxalq əlaqələrini genişləndirmək fürsətini qaçırmadı. İtaliyanın "Ansaldo Energia" şirkəti ilə imzalanan sənəd daha böyük əhəmiyyət kəsb etdiyi üçün bu faktı qeyd etməyi də lazım bilirik. "Azərenerji" ilə "Ansaldo Energia" arasında dekarbonizasiya, kadr hazırlığı, karbontutma, "yaşıl hidrogen", kiçik modul reaktorları və başqa istiqamətləri əhatə edən anlaşma memorandumu bərpaolunan enerji keçidinə mühüm töhfə verəcək.

Daha sonra hər iki şirkətə "SOCAR Trading" də qoşulub və tərəflər arasında karbon kreditlərinə dair üçtərəfli sənəd imzalanıb. Sənədə əsasən, "Ansaldo Energia" şirkəti Kəlbəcər rayonunda "Azərenerji" tərəfindən tikilərək istismara verilən "Çıraq-1", "Çıraq-2", "Soyuqbulaq", "Qamışlı" və "Meydan" kiçik su-elektrik stansiyalarında istehsal edilən sıfır emissiyalı elektrik enerjisi üzrə gələcəkdə yaradılacaq karbon kreditlərini almaq niyyətini təsdiqləyib. Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurda həyata keçiriləcək bu layihə Azərbaycandan karbon kreditləri üzrə könüllü bazarda iştirak üçün müraciət edilən ilk layihələrdəndir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## "Maliyyələşdirmə önəmlidir, lakin bütün ölkələr "yaşıl enerji"yə keçməyə hazır deyil"

**"Dünya ölkələrinin nümayəndələrinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) üçün Azərbaycanın paytaxtı Bakıda toplaşmağı və iqlim dəyişikliyinin fəsadları barəsində öz həll yollarını paylaşmağı təqdirəlayiqdir".**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Lüksemburq nümayəndə heyətinin üzvü Matye Lor deyib.

O bildirib ki, indiki və gələcək nəsillərin bu planetdə həyatda qala bilməsi üçün siyasi iradəyə sahib olmaq lazımdır: "Təbii ki, maliyyələşdirmə önəmlidir. Lakin bütün ölkələr "yaşıl enerji"yə keçməyə hazır deyil".

Matye Lor COP29-da fəaliyyət göstərən könüllülərin çox yaxşı çalışdığını, təşkilati cəhətdən hər şeyin çox yaxşı olduğunu qeyd edib.

## "COP29-da məqsədimiz əməkdaşlıq və iqlim dəyişiklikləri ilə mübarizəyə dəstəkdir"

**"COP29-da iştirakımın əsas səbəbi Afrika qrupu danışıqçıları, digər ölkə və təşkilatlarla əməkdaşlıq edərək Qambiyanın üzləşdiyi çətinlikləri diqqətə çatdırmaqdır".**

Bu fikirləri COP29-da iştirak edən Qambiyanın yumşaltma iş proqramı üzrə baş danışıqçısı və Milli Təyin Edilmiş Töhfələr (NDC) üzrə müşahidəçisi Malanq Sambou Manneh bildirib.

"Qambiya ərazisi 12 min kvadratkilometr və çaylarının ümumi uzunluğu 480 kilometr olan kiçik ölkədir. Lakin iqlimlə bağlı əsas problem daşqınlardır. Güclü yağışlar zamanı evlər yararsız vəziyyətə düşür, ailələr məhv olur, insanlar həyatlarını itirir, evsiz və ərzaqsız qalırlar. Kənd təsərrüfatı sahələri tamamilə su altında qalır və bu, ciddi iqtisadi çətinliklər yaradır".

Malanq Sambou Manneh COP29-un təşkilatçılığını yüksək qiymətləndirərək bildirib: "Beş ay ərzində belə irimiqyaslı infrastrukturu qurmaq valehedicidir. Gənc könüllülərin enerjisi və dəstəyi xüsusi vurğulanmalıdır".

İqlim dəyişikliklərinə qarşı real təsir göstərə biləcək qərarların qəbul edilməsinin önəmindən söz açan qambiyalı iştirakçı deyib: "Dünya, xüsusilə liderlər bu məsələyə daha ciddi yanaşmalı və konkret tədbirlər görməlidirlər".

## "COP29 peşəkarlıqla təşkil olunub"

**"COP29 çox peşəkar təşkil olunub. Könüllülərin bəzilərinin tələbələr olduğunu gördüm. Düşünürəm ki, bu, düzgün istiqamətdir. Qeyd edim ki, Azərbaycana gələndə çox təsirlənirəm. Buranın hər şeyini - havasını, binaları, küçələrini bəyənirəm. Xüsusilə bu ölkədə olan təmizlik çox xoşuma gəlir".**

Bunu qanalı jurnalist Benedikta Abekah deyib.

"COP29-da iqlim dəyişikliyinin təsirlərini müzakirə etdik. Bu problemlə bütün ölkələr mübarizə aparmalıdır - istər inkişaf etmiş, istərsə də inkişaf etməmiş ölkələr. Biz hamımız COP29-dan əldə edilmiş bütün razılaşmaların və konsensusların tam şəkildə həyata keçirilməsini gözləyirik", - deyə o bildirib.






COP29 Baku Azerbaijan

# "Yaşıl həmrəylik" Azərbaycandan başlayır






## COP29 nümunəvi təşkilatçılıqla, əhəmiyyətli müzakirələrlə yadda qaldı












**Bakıda iki həftə ərzində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) bütün dünya üçün vacib məsələlərin müzakirələri və verilən qərarlarla əhəmiyyətli oldu. Bu mötəbər beynəlxalq tədbirə ilk dəfə evsahibliyi edən Azərbaycanın yüksək təşkilatçılığı nəticəsində COP29 sədrliyinin Fəaliyyət Gündəliyi uğurla reallaşdı.**

COP29-a evsahibliyi ölkəmizə beynəlxalq səviyyədə göstərilən etimadın, inamın nümunəsi idi. Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində çıxış edən Prezident İlham Əliyevin bildirdiyi kimi, ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a evsahibliyi etmək şərəfi verildi: "Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük".

Ölkəmiz həm yerləşdiyi məkan, həm gündən-günə yüksələn nüfuzu, həm də bütün sahələrdə həyata keçirdiyi əhəmiyyətli fəaliyyəti ilə diqqət mərkəzindədir. Dövlətimizin başçısı Liderlər Sammitində çıxışında qeyd etdi ki, Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil: "Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib".

Dünyanın ən böyük və mötəbər iqlim tədbirinin Liderlər Sammitində çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş bütün dövlət nümayəndələrinə müraciət edərək diqqətə çatdırdı ki, artıq itirməyə vaxtımız qalmayıb: "İnsanlar, dövlətlər iqlim dəyişmələrinə qarşı mübarizə üçün vəsait ayırmalıdırlar. Əks halda bu, bəşəriyyətə baha başa gələcək. İqlim maliyyələşməsi xeyirxah əməl deyil, bu, bir investisiyadır. Bu, ixtiyari məsələ deyil, məcburi məsələdir. Hər ikisi əvəzolunmaz tədbirdir, bunlar bəşəriyyətin gələcəyi və firavanlığı üçün lazımdır".

Noyabrın 11-də başlayan, dünyanın 196 ölkəsindən 80 prezident, vitse-prezident və baş nazirin iştirak etdiyi, ümumilikdə 72 mindən çox iştirakçının qeydiyyatdan keçdiyi, geniş auditoriyanın bir araya gəlməsinə şərait yaradan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində təsdiq edilmiş Fəaliyyət Gündəliyi əsasında dünyanın ən aktual iqlim problemləri, eləcə də unudulmuş prioritetləri gündəmə gətirildi. Müxtəlif panellər üzrə iqlim sahəsində dünyanı gözləyən təhlükələr, qlobal problemlər, onların qarşısının alınması yolları, "yaşıl enerji"yə keçid və digər mühüm məsələlər müzakirə olundu.

İqlim sahəsində COP29 sədrliyinin bütün əsas istiqamətlər üzrə irəliləmək səylərini əks etdirən Fəaliyyət Gündəliyi çox zəngin oldu. Enerji, maliyyə, kənd təsərrüfatı, şəhərlər, insan inkişafı, həmçinin iqlim və sülhün qarşılıqlı əlaqəsi kimi bir sıra əsas prioritetləri əhatə etdi.

COP29-un gündəlik tematik proqramı əsasında noyabrın 14-də Maliyyə, İnvestisiya və Ticarət Günü, noyabrın 15-də Enerji, Sülh, Yardım və Bərpa Günü, noyabrın 16-da Elm, Texnologiya və İnnovasiya Rəqəmsallaşma Günü, noyabrın 17-si COP29-da istirahət günü oldu.

Noyabrın 18-də İnsan kapitalı, Uşaqlar və Gənclər, Sağlamlıq, Təhsil Günü, 19-da Qida, Kənd təsərrüfatı və Su Günü, 20-də Urbanizasiya, Nəqliyyat, Turizm günü, 21-də Təbiət və Biomüxtəliflik, Yerli xalqlar, Gender Bərabərliyi, Okeanlar və Sahil Zonaları Günü keçirildi.

Noyabrın 22-də "yaşıl zona"da "Gələcəyin qurulması: Azərbaycanda və Dünyada COP29-un irsi" mövzusunda panel müzakirəsi oldu. Konfransın uzunmüddətli təsiri və COP29 irsinin formalaşmasına həsr edilən tədbir COP29 Azərbaycan Əməliyyat Şirkəti və COP29-un "yaşıl zona"dakı tekstil tərəfdaşı "GILTEX" şirkətinin birgə təşkilatçılığı ilə baş tutdu. On bir gün davam edən konfransın yekununda keçirilən bu müzakirə COP29-un yerli və qlobal səviyyədə dayanıqlı inkişaf və iqlim dəyişmələrinə qarşı mübarizə sahəsində qoyduğu mirası diqqət mərkəzinə çəkdi.

Panel müzakirəsində Azərbaycanın COP29-a evsahibliyi etməsinin dayanıqlı inkişaf üzərindəki uzunmüddətli təsirləri önə çəkildi. İştirakçılar Azərbaycanın bu qlobal əhəmiyyətli tədbirə evsahibliyini, "yaşıl keçid"i sürətləndirməsi, qlobal tərəfdaşlıqları gücləndirmək və iqlimə dayanıqlılığı artırmaq məqsədilə öz rolunu necə istifadə etməsi məsələlərini müzakirə edərək, ölkəmizin iqlim liderliyi sahəsində uzunmüddətli və davamlı bir miras yaratması üçün mövcud olan imkanlar barədə fikir mübadiləsi apardılar.

"Gələcəyin qurulması: Azərbaycanda və Dünyada COP29-un irsi" mövzusunda panel müzakirəsində korporativ ESG (Ekoloji, Sosial və Korporativ İdarəetmə) sahəsində irəliləyişlər, bərpaolunan enerji və innovasiyalara investisiyanın qoyulması, dayanıqlı, eyni zamanda aşağı karbonlu gələcək qurmağa yönəlmiş siyasət dəyişikliklərinə də toxunuldu.

Qeyd edək ki, COP29 çərçivəsində təşkil olunan bütün panel müzakirələr fikir mübadilələri, səmərəli təkliflərlə əhəmiyyətli oldu.

Noyabrın 22-də Azərbaycanın COP29 sədrliyi Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının yekunlarına dair bəyanat yaydı. Bəyanatda COP29 sədrliyinin il ərzində inkişaf etməkdə olan tərəf ölkələrin ehtiyaclarını və prioritetlərini nəzərə alaraq ədalətli və ambisiyalı yeni iqlim maliyyəsi məqsədini reallaşdırmağa çalışdığı qeyd olundu. Bildirildi ki, tərəflərin göstəricilərinin ilk təzahürü olaraq Yeni Kollektiv Kəmiyyət Məqsədi ilə bağlı qərarda tərəflərin hamısına 2035-ci ilə qədər bütün dövlət və özəl mənbələrdən iqlimlə bağlı fəaliyyət üçün inkişaf etməkdə olan ölkələrə maliyyələşdirməni ildə ən azı 1,3 trilyon ABŞ dollarına çatdırmaq üçün birlikdə işləməyə dəvət yer alıb.

Bu qərar özündə eyni zamanda inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin 2035-ciilədək 250 milyard ABŞ dollarına çatdırılması məqsədini ehtiva edir. "Biz bir neçə həll olunmamış, lakin vacib məsələ ilə bağlı yekun düzəlişləri kollektiv şəkildə razılaşdırmaq üçün tərəflərlə birgə işləməyə davam edəcəyik.

Biz mümkün daha yüksək ambisiyalı nəticəni əldə etmək üçün inklüziv və şəffaf şəkildə işləməyə davam edəcəyik", - deyə bəyanatda bildirildi.

Beləliklə, COP29 başa çatdı. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası əhəmiyyətli müzakirələrlə, məqsədyönlü təkliflərlə, verilən qlobal miqyaslı qərarlarla səmərəli oldu.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***






COP29 Baku Azerbaijan

# Azərbaycanın "yaşıl təşəbbüsləri"nə qlobal dəstək

## COP29 və "yaşıl enerji" ixracı

### Qlobal iqlim sessiyası Azərbaycanın bu sahədə də öndə olduğunu təsdiqlədi

**Azərbaycan bərpaolunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlmək əzmindədir və bu məqsədlə zəngin külək və günəş potensialından istifadə edir. Bu, həmçinin ölkənin 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmaq planının mühüm tərkib hissəsidir.**

Ölkəmiz 2030-cu ilə qədər elektrik enerjisində bərpaolunan enerjinin qoyuluş gücü üzrə payını 30 faizə çatdırmaq və "yaşıl enerji" sahəsində lider olmaq üçün mövcud enerji sistemini şaxələndirir. Azərbaycan bu sahədə nümunəvi ölkə kimi 1,5°C hədəfinə uyğun olaraq növbəti Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədi çərçivəsində öz hədəflərini yeniləyəcək.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası çərçivəsində Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin pavilyonunda Azərbaycanın Hidrogen üzrə Milli Strateji Baxış sənədinin təqdimatı baş tutdu. Hidrogen üzrə Milli Strateji Baxış sənədi COP29 prezidentliyi tərəfindən elan edilmiş Hidrogen Bəyannaməsinə və ölkəmiz tərəfindən həyata keçirilən "yaşıl enerji" dəhlizləri konsepsiyasına uyğun olaraq hidrogendən istifadə ilə bağlı gələcək planlarını özündə əks etdirir. Hidrogen üzrə Milli Baxış sənədində bütün əsas istiqamətlər, o cümlədən ətraf-mühit, nəqliyyatda və neft-kimya sənayesində, həmçinin dekarbonizasiyası çətin olan sahələrdə (sement, polad və s.) istifadəsi kimi məsələlər nəzərə alınmış və iqlim dəyişikliyinə mübarizə sahəsində hazırlanmış sənədlərə, 3-cü Milli Səviyyədə Müəyyən edilmiş Töhfələr sənədi ilə uyğunluq təşkil edir.

Strateji Baxış sənədinin ilkin hədəf dövründə (2030-cu ilə doğru) bərpaolunan enerji potensialından istifadənin genişləndirilməsinə üstünlük verilməsi, daha kiçik miqyaslı hidrogenəsaslı məhsulların istehsalı üzrə layihələrinin dəstəklənməsi, Azərbaycanda karbonun saxlanması texnologiyalarının təkmilləşdirilməsi, "yaşıl enerji" dəhlizi konsepsiyasının daha da inkişafı üçün beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edilməsi, qanunvericiliyin təkmilləşdirilməsi əks olunmuşdur. Növbəti dövrdə (2050-ci ilə doğru) bərpaolunan enerji resurslarından və karbon tutulması, saxlanması və istifadəsi (CCUS) texnologiyasından istifadə etməklə qlobal hidrogen iqtisadiyyatında aparıcı mövqe tutmaq, Avropa və Asiya arasında beynəlxalq ticarəti təmin etmək üçün "yaşıl enerji" dəhlizi yaratmaq, nəqliyyatda və neft-kimya sənayesində bazar payını ələ keçirməyə diqqət yetirərək aşağı karbonlu yanacaq və məhsulların istehsalına üstünlük verilməsi kimi istiqamətləri özündə əks etdirir.

Sənədə əsasən, "yaşıl hidrogen"in istehsalı ilə əlaqədar verilən proqnoz 3 ssenariyə (balanslaşdırılmış, sürətləndirilmiş və ambisiyalı) əsaslanır. Hər ssenari üzrə "yaşıl hidrogen"dən ölkədaxili istifadə və ixrac üçün istiqamətlər, eləcə də tələb olunan bərpaolunan enerji gücünə dair qiymətləndirmələr aparılıb. 2050-ci ilə qədər "yaşıl hidrogen"in istehsalı üzrə balanslaşdırılmış və sürətləndirilmiş ssenarilərə uyğun olaraq 9 QVt və 18 QVt həcmində bərpaolunan enerji qoyuluş gücü tələb edilir. 2060-cı ilə proqnozlaşdırılan ambisiyalı ssenaridə isə 30 QVt həcmində bərpaolunan enerji həcmlərinin quraşdırılması hədəflənmişdir. Bu məqsədlə bərpaolunan enerji mənbələrinin quraşdırılmış gücü ilə bağlı hazırda araşdırmalar aparılır. Həmin hədəflərə nail olmaq üçün dənizdə külək enerjisindən istifadə ilə yanaşı, hibrid şəkildə quruda külək və günəş enerjisindən də istifadə olunması mümkündür. Əlavə olaraq bu istiqamətdə aparılmış araşdırmalara əsasən, dənizdə külək enerjisinin iqtisadi potensialı 38 QVt-a qədər qiymətləndirilmişdir ki, bu da Strateji Baxış sənədi ilə tam uyğunluq təşkil edir.

Hidrogen istehsalı ilə əlaqədar Masdar, Fortescue Future Industries (FFI) şirkətləri arasında çərçivə sənədləri, həmçinin SOCAR və ADNOC arasında hidrogen, karbonun idarə edilməsi və geotermal texnologiyalardan istifadə üzrə strateji əməkdaşlığa dair müqavilə, eləcə də SOCAR and "ACWA Power" şirkəti arasında "yaşıl gübrə"lərin istehsalına dair əməkdaşlıq haqqında müqavilə sənədləri imzalanmışdır. Əlavə olaraq ölkəmizdən keçməklə "yaşıl dəhliz"lər (Xəzər dənizi - Qara dəniz - Avropa "Yaşıl Enerji" Dəhlizi, Mərkəzi Asiya - Azərbaycan Enerji Dəhlizi) vasitəsilə hidrogenin ixracı istiqamətində də layihələrin icrası üzrə araşdırmalar davam edir.

COP29 çərçivəsində Energetika Nazirliyi və Beynəlxalq Bərpaolunan Enerji Agentliyi (IRENA) ilə birgə həyata keçirilən Mərkəzi Asiyada Enerji Keçidi üzrə İnvestisiya Forumunun proqramına uyğun olaraq, Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyinin təşkilatçılığı ilə "Mərkəzi Asiya regionu üçün Layihələrin Maliyyələşdirilməsi Alətləri" mövzusunda interaktiv təlim sessiyası da keçirilmişdir. Tədbirin məqsədi layihə təkliflərin hazırlanması ilə əlaqədar fəaliyyət göstərən yerli şirkətlərin bacarıqların artırılması, bu istiqamətdə IRENA tərəfindən yaradılmış "ETAF" (Enerji Keçidinin Sürətləndirilməsi üzrə Maliyyələşdirmə Platforması) və "CIP" (İqlim İnvestisiya Platforması) platformaların imkanlarından istifadə edilməsi və nəticədə kiçik və orta miqyaslı "yaşıl layihə"lərə investisiyaların cəlb olunması idi. Tədbir zamanı platformalara təqdim edilməsi planlaşdırılan layihələrin cavab verməli olduğu tələblər, qiymətləndirmə qaydaları, həmçinin platformaya investorlar qismində cəlb edilmiş beynəlxalq maliyyə institutları, risklərin azaldılması həllərinə dair məlumatlar da təqdim edildi. Tədbirdə SOCAR Green, Azerbaijan Green Energy Company, Baltech, Azərbaycan Sənaye Korporasiyası, Energazer, Provitaz və digər yerli şirkət və qurumların nümayəndələri iştirak etmişlər.

COP29 çərçivəsində həmçinin "Bərpaolunan enerjiyə investisiya: Davamlı gələcəyə aparan yollar" mövzusunda tədbir keçirilmişdir. Azərbaycan "Yaşıl Enerji" şirkətinin nümayəndəsi Xəyalə Nağıyevanın moderatorluğu ilə keçirilən tədbirdə Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyinin (BOEMDA) direktor müavini Rəna Hümbətova, "Masdar Azerbaijan" şirkətinin direktoru Murad Sadıqov, "Baltech Green" LLC şirkətinin rəhbəri Volkan Gerdan və ABŞ-dən qonaq "Lyten" şirkətinin nümayəndəsi Laslo Horvath çıxış etmişlər. Dövlət Agentliyinin rəsmisi çıxışında COP29 prezidentliyi tərəfindən irəli sürülən "yaşıl enerji"nin inkişafına dair 3 təşəbbüs barədə (Hidrogen Bəyannaməsi, "Yaşıl enerji" zonaları və dəhlizlər, Qlobal enerji saxlanc sistemi və şəbəkələr) məlumat vermiş, Azərbaycanda "yaşıl enerji"nin ixracı və bunu təmin edəcək infrastruktur layihələri haqqında danışmışdır.

Energetika Nazirliyi və Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (IRENA) birgə təşkilatçılığı ilə keçirilən "Bərpaolunan Enerji Qoyuluş Gücünün 2030-cu ilə qədər 3 dəfə artırılması: Mərkəzi Asiya regionunda bərpaolunan enerji üzrə fəaliyyətin sürətləndirilməsi" adlı tədbirdə isə iştirakçılara Azərbaycanda bərpaolunan enerji potensialı, həyata keçirilən layihələr və həmin layihələrin enerji sisteminə inteqrasiyası ilə əlaqədar görülən işlər, həmçinin enerji saxlanc sistemləri, Mərkəzi Asiya regionunda elektrik enerji sistemlərinin birləşdirilməsinə dair imzalanan müqavilələr barədə ətraflı məlumat verilmişdir. Müzakirələrdə UNESCAP, Dünya Bankı, UNECE, Koreya Enerji Agentliyinin, Qazaxıstanın Bərpaolunan Enerji üzrə Maliyyə Mərkəzinin nümayəndələri iştirak etmişlər.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***





## "Ümidvaram ki, COP29-da daha çox vəsait vəd edən maliyyələşmədə irəliləyiş olacaq"



**"Ümidvaram ki, COP29-da karbon bazarlarında, həmçinin uyğunlaşma üçün daha çox vəsait vəd edən maliyyələşmədə yaxşı irəliləyiş olacaq".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında ABŞ-nin Pensilvaniya Universitetində Enerji Siyasəti üzrə İqlim Mərkəzinin xüsusi məsləhətçisi Anjela Lusiya Paçon Qarsiya söyləyib. O, tədbirin təşkilatçılığının möhtəşəm olduğunu da deyib: "COP29-da iştirakçıları konfrans keçirilən məkana avtobuslarla gətirməklə uğurlu bir iş görüblər. Bu, çox yaxşı bir fikirdir. COP29 iştirakçılarına kömək edən könüllülər ordusunu xüsusi vurğulamaq istəyirəm. Onların hamısı mehriban, yardımsevər olmaqla yanaşı, ingiliscə çox gözəl danışırlar".



## "COP tədbirləri öhdəlikləri gücləndirməyə kömək edir"



**"COP29-da müşahidə etdiyim odur ki, burada çoxlu insan və hər bir ölkənin danışıqlar üçün pavilyonu var. Tədbirin təşkilatçılığını yüksək qiymətləndirirəm".**

Bunu Qırmızı Xaç Cəmiyyətinin Burundidəki əyalət katibi Jan Bosko Ntihinyuzva deyib.

Onun sözlərinə görə, COP tədbirləri öhdəlikləri gücləndirməyə kömək edir. Bu tədbirlərlə inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə, xüsusilə icma səviyyəsində davamlılıq üçün kömək edə bilərlər: "Hər ölkənin öz fəlakətləri var. Ölkələr iqlim dəyişikliyinin təsirlərini minimuma endirmək üçün tədbirlər görməlidirlər".





## "Ümid edirəm ki, biz COP29-da meşələr üzrə mühüm razılıq əldə edəcəyik"

**"Mən 2003-cü il Milan konfransından başlayaraq COP-da iştirak edirəm. Təşkilatımız qlobal meşə salınması ilə məşğuldur. Burada olmağımızın əsas səbəbi odur ki, meşələrin iqlim fəaliyyətində vacib rolunu təbliğ edək".**

Bunu Ekvatorial Meşələr Dövlətləri Koalisiyasının baş müşaviri, hondurasli iştirakçı Eduardo Reyes bildirib. Eduardo Reyes qeyd edib ki, 2005-ci ildə Monrealda COP konfransında olarkən təmsil etdiyi təşkilat meşə salınmasında qaz emissiyalarının azaldılması məsələsini qaldırıb.



"Bundan başqa, biz indi çalışdıq ki, Paris Sazişinin 5,2 maddəsinə görə razılıq əldə edək. Bu maddə özündə meşələrin dayanıqlı idarəçiliyini ehtiva edir. Həmçinin istəyirik ki, özəl sektor meşə salınması prosesində rol oynasın", - deyə beynəlxalq təşkilatın rəsmisi bildirib.

Eduardo Reyesin sözlərinə görə, meşələr qlobal istiləşməni 1,5 dərəcə temperaturda saxlamaq üçün olduqca zəruridir: "Ümid edirəm ki, biz COP29-da meşələr üzrə mühüm razılıq əldə edəcəyik".

## "COP29-da müzakirələrdə iştirak etmək olduqca maraqlıdır"

**"Biz Bakıda olmaqdan çox məmnunuq. Düşünürəm ki, COP29 çox yaxşı təşkil olunub".**



Bu fikirləri Norveçin İqlim və Ətraf Mühit Nazirliyinin, "Norveç beynəlxalq iqlim və meşə təşəbbüsü"nün siyasət direktoru Hege Karsti Ragnhildstveit deyib.

"COP29-da olmaq, müzakirələrdə iştirak etmək, fərqli insanlarla ünsiyyət qurmaq olduqca maraqlıdır. Bizi bu konfransa dəvət etdikləri üçün təşkilatçılara minnətdarlığımı bildirirəm", - deyə o qeyd edib.



## "Biz Bakıda qadınları, gəncləri iqlim dəyişmələrinə qarşı mübarizəyə cəlb etmək üçün toplaşmışıq"

**"Mən Konqo Demokratik Respublikasından gəlmişəm. Ölkəm böyük meşələrə malikdir. Orada bataqlıqlar əmələ gəlir və bunlar karbon verir. Elektrikli avtomobillərə sahib olmaq üçün strateji minerallarımız var, bizdə litium da istehsal olunur".**



Bu sözləri Konqodan olan iştirakçı xanım Prüdans Kiyayu Sibatu söyləyib.

Qonaq Bakıya dünyanın iqlim dəyişmələri ilə bağlı nələr etdiyini eşitməyə gəldiyini deyib: "Biz burada karbon kreditləri uğrunda mübarizə aparmaq və qadınları, gəncləri iqlim dəyişikliyinə qarşı mübarizəyə cəlb etmək üçün toplaşmışıq".







# Kütləvi iştirak, böyük ictimai maraq, peşəkar təşkilatçılıq











## "COP29-da uyğunlaşma ilə bağlı çox yaxşı layihələr var idi"

**"COP29-a Aral dənizinə uyğunlaşma üzrə qlobal məqsədi müzakirə, eyni zamanda itki və zərərlə bağlı bir çox sessiyada iştirak etmək üçün gəlmişəm".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Banqkokda yerləşən Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean regionu üzrə iqtisadi və sosial komissiyasının fəlakət riskinin azaldılması üzrə rəhbəri Sanjay Srivastava söyləyib. O, iştirak etdiyi sessiyaları son dərəcə qənaətbəxş hesab edib: "COP29-da uyğunlaşma ilə bağlı çox yaxşı layihələr var idi. Konfrans yumşaldılma və uyğunlaşmanı bir araya gətirdi. Bu, COP29 konfransının unikallığıdır".

## "COP29-la bağlı xəbərləri AZƏRTAC-dan izləyirəm"

**"Mən Bolqarıstan milli xəbər agentliyinin baş redaktoruyam. Bu, iqtisadiyyat departamentindən bir həmkarımla birlikdə işıqlandırdığım ikinci COP tədbiridir.**



Bakı məni özünə heyran etdi. Konfransın keçirildiyi məkan inanılmazdır".

Bu sözləri Bolqarıstan milli xəbər agentliyinin (BTA) baş redaktoru Antoaneta Markova deyib.

"Konfransın gözlədiyimiz nəticələrindən çox şey asılıdır. Bakıdan Braziliyaya köçəcək məsələlər olacaq, amma xeyli irəliləyişlərin də əldə olunacağına inanıram. Dünya ölkələri birlikdə hərəkət etməlidir.

Biz jurnalistlər xaricə səyahət edəndə və tərəfdaş təşkilatlardan həmkarlarımızı görəndə çox sevinirik. Neçə gündür COP29-la bağlı xəbərləri sizin xəbər agentliyinizdən - AZƏRTAC-dan izləyirəm", - deyə bolqarıstanlı jurnalist qeyd edib.

## "COP29-da müsbət qərarlar veriləcəyinə inanıram"

**"İqlim dəyişikliyi müzakirələrində iştirak etmək üçün Maldiv adalarından gəlmişik. Azərbaycan COP29-un hazırlanmasına xüsusi səy göstərib.**



Buradakı xidmətlər, hər şey mükəmməl şəkildə qurulub. Buna görə də Azərbaycan dövlətinə öz təşəkkürümü bildirirəm".

Bu sözləri Maldiv adalarının Ətraf Mühit və Enerji Nazirliyinin İqlim dəyişikliyi departamentinin direktoru Ali Shareef deyib.

COP29-da iştirak etməyinin əsas məqsədinin iqlim maliyyəsi olduğunu deyən departament direktoru müsbət qərarların veriləcəyinə inandığını bildirib.

"COP29-da yumşaldılma və uyğunlaşma ilə bağlı bir çox istiqamətdə yekunlaşacağına ümid etdiyimiz başqa elementlər də var, lakin ən əsası maliyyədir", - deyə o əlavə edib.

## "COP29-un inkişaf etməkdə olan ölkələrin öhdəliklərini yerinə yetirəcəyinə ümid edirik"

**"COP29-da inkişaf etməkdə olan ölkələrin öhdəliklərini yerinə yetirəcəyinə ümid edirik". Bu sözləri Qvineyanın Ətraf Mühit və Davamlı İnkişaf Nazirliyinin rəsmisi Kadyatu Daleyn Diallo deyib.**



O, Bakıda COP-un təşkilatçılığına çox heyran qaldığını bildirib: "Həqiqətən, təşkilatçılıq mükəmməldir. Düzgün istiqamətləri göstərmək üçün kifayət qədər insan cəlb edilib. Hər şey yaxşı qaydada təşkil olunub. Biz bunu bəyəndik, şəhər təmizdir, əhali qonaqpərvərdir. Bir sözlə, hər şey çox gözəldir".

Diallo COP29-dan gözləntilərini də açıqlayıb: "Mənim gözləntilərim əksər Afrika ölkələrinin gözləntiləri kimidir. Biz iqlim dəyişikliyi nəticəsində yaranan itkilər və zərərlər üçün çoxlu maliyyə vəsaiti əldə etməyi ümid edirik".

## "Asiya və Avropa arasında körpü olan Azərbaycanın inkişaf etmiş mədəniyyəti var"

**"Biz COP29-da iştirak edərək icmalarımıza iqlim dəyişikliyinə uyğunlaşmaqda kömək edəcək dəstəklər axtarırıq. Eyni zamanda bu prosesdə bizə nəyin kömək edə biləcəyini öyrənirik. Bu sahədə ən kritik məsələlərdən biri iqlim dəyişikliyindən təsirlənən inkişaf etməkdə olan ölkələr üçün maliyyə dəstəyinin təmin edilməsidir".**



Bu sözləri COP29 iştirakçısı, Afrika Kənd Təsərrüfatı Texnologiyası Fondunun nümayəndəsi Vitumbiko Chinoko deyib.

O vurğulayıb ki, Afrika Kənd Təsərrüfatı Texnologiyası Fondu 24 ölkədə fəaliyyət göstərir. "Ölkəmizdə iqlim dəyişikliyinin təsirləri nəticəsində biomüxtəlifliyin pozulması, torpaqla bağlı problemlər və məhsuldarlığın aşağı düşməsi müşahidə olunur. Torpağın münbitliyinin pisləşməsi məhsuldarlığımıza və iqtisadiyyatımıza ciddi şəkildə mənfi təsir edir", - deyə o bildirib.

Vitumbiko Chinoko ilk dəfə Azərbaycana səfər etdiyini vurğulayaraq ölkəmiz haqqında təəssüratlarını bölüşüb: "Ölkəniz haqqında əvvəllər məlumatsız olsam da, Azərbaycanı çox bəyəndim. Asiya və Avropa arasında körpü olan bu ölkənin inkişaf etmiş mədəniyyəti, dadlı yeməkləri, mehriban insanları və zəhmətkeş könüllüləri var".

## "Bakı COP29-da innovativ rəqəmsal platforma təqdim edib"

**"Heyrətamiz təşkilatçılıq, hər şey düşünülüb - rahat logistika, qonaqpərvərlik. Həm də çox vacibdir ki, bu, resursları paylaşa, əlaqələr mübadiləsi edə, ən yaxşı təcrübələri bölüşə biləcəyiniz yaxşı düşünülmüş rəqəmsal platformadır. Mənə elə gəlir ki, bu, xüsusi olaraq məhz COP29-da tətbiq edilən belə innovativ həllərdən biridir".**



Bu barədə COP29-da iştirak edən Rusiyanın "RUSAL" şirkətinin İdarə Heyətinin üzvü, davamlı inkişaf üzrə direktoru Yelena Myakotnikova deyib.

"Bütün əvvəlki COP-larda çoxlu şoular və tətillər olmuşdu. COP29 isə praktiklik tələbi ilə keçirildi. Çoxlu sayda görüş oldu. Mənə elə gəlir ki, iqlim gündəmində qarşılıqlı fəaliyyət baxımından yeni bir qapı açılıb. Biz şirkət olaraq 2007-ci ildən iqlim gündəmi ilə məşğul oluruq. Ən böyük alüminium istehsalçılarından biriyik. Bizim aşağı karbon izi olan "Elao" alüminiumun payına qlobal tədarükün təxminən üçdə biri düşür. Bu gün məhz aşağı karbonlu məhsullara böyük ehtiyac var.

Eyni zamanda biz iqlim layihələrini həyata keçiririk. Texnoloji həllərimiz, texnoloji iqlim layihələrimiz də var, çünki biz daim enerji səmərəliliyinin artırılması və karbonsuzlaşdırmanın artırılması üzərində işləyirik", - deyə Yelena Myakotnikova sözünü yekunlaşdırıb.

## "İqlim böhranı fəlakətli nəticələrə gətirib çıxara bilər"

**"Dövlətlərin ətraf mühitin mühafizəsi prinsiplərinə zidd olaraq iqtisadiyyatı inkişaf etdirmək cəhdləri bütün bəşəriyyət üçün fəlakətli nəticələrə gətirib çıxara bilər".**



Bu fikri tanınmış türkiyəli ekspert, iqtisadiyyata dair 26 kitabın müəllifi, elmlər doktoru Mahfi Eğilmez söyləyib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilən 29-cu sessiyasının (COP29) əhəmiyyətini şərh edən iqtisadçı dünya iqtisadiyyatının aktiv artım templərinə diqqət çəkərək qeyd edib ki, təkcə son 23 il ərzində qlobal ÜDM həcmi üç dəfə artaraq 105,4 trilyon dollar həddinə çatıb.

"Resurslardan səmərəsiz istifadə edilməsi və ətraf mühitə nəzarətsiz emissiyalar təbiət və bəşəriyyət üçün zərərlidir. Qlobal temperaturun artması səhralaşma, meşə sahəsinin azalması, buzlaqların əriməsi, quraqlıq, anomal temperatur rejimləri və biomüxtəlifliyin azalması ilə əlaqələndirilir", - deyə ekspert sadalayaraq, ekoloji addımların inkişaf etməkdə olan ölkələrdə çox vaxt qeyri-populyar olduğunu etiraf edib.

Eğilmez bu gün atmosferə atılan istixana qazlarının ən azı yarısının Şimal yarımkürəsi ölkələri, xüsusilə Çin, ABŞ, Avropa ölkələri və Hindistanın payına düşdüyünü qeyd edib.

Onun sözlərinə görə, Türkiyə atmosferin istixana qazları ilə çirklənməsinə görə dünyanın 20 ölkəsindən, coğrafi mövqeyinə görə isə bu ölkə iqlim dəyişikliyinin təsirlərinə ən çox məruz qalan ölkələrdən biridir.

Elmlər doktoru alimlərin iqlim dəyişikliyinin mənfi nəticələrini ilk növbədə Türkiyənin Aralıq dənizi regionunun, eləcə də Şərqi və Cənub-Şərqi Anadolu bölgəsinin sakinlərinin hiss edəcəyi ilə bağlı hesablamalarına diqqət çəkib.

Ekspert dünya birliyinin iqlim sektorunda birgə addımlarının vacibliyini qeyd edərək, bir sıra dövlətlərin hələ də Paris Sazişinin iştirakçısı olmadığını diqqətə çatdırıb. "Bu saziş hələ də İran, İraq, Liviya və Yəmən tərəfindən dəstəklənməyib. Bu dövlətlər arasında Türkiyə kimi havanın çirkləndirilməsinə görə TOP 20 dövlət arasında yer alan İran xüsusilə əhəmiyyətlidir.

Eyni zamanda o, ABŞ-nin iqlim gündəminin təşviqində xüsusi rolunu qeyd edib. İqtisadçı hesab edir ki, Prezident Donald Trampın ikinci prezidentlik dövründə ABŞ yenidən Paris Sazişindən çıxsa, razılaşmaların onsuz da çətin olan icrası daha da çətinləşəcək.

Eğilmez əmin olduğunu bildirib ki, ətraf mühit problemləri o qədər əhəmiyyətli və miqyaslıdır ki, bu məsələni siyasətçilərin vicdanına buraxmaq olmaz. İctimaiyyət, sadə vətəndaşlar böhranın həllinə cəlb edilməlidirlər.









COP29 Baku Azerbaijan

# Kütləvi iştirak, böyük ictimai maraq, peşəkar təşkilatçılıq






## "COP29-dakı müzakirələr Qanada iqlim dəyişikliyinin fəsadları ilə mübarizəyə kömək edəcək"



**"Mən Qanadanam və COP29-a müşahidəçi kimi gəlmişəm". Bunu AZƏRTAC-a müsahibəsində Qana nümayəndə heyətinin üzvü Endryu Addae deyib.**

O bildirib ki, təmsil etdiyi ölkə iqlim böhranını yaşayır. Hesab edir ki, COP29-dakı müzakirələr Qananın üzləşdiyi iqlim dəyişikliyinin fəsadları ilə mübarizə aparılmasına kömək edəcək.

"Azərbaycanı çox bəyəndim. Sakit, sülhsevər ölkədir. Xüsusilə qonaqpərvərliyi çox xoşuma gəldi. Tullantıların azaldılması, ağacların əkilməsi ilə bağlı danışıqlardan məmnun qaldım. Ağacların əkilməsi insan həyatı üçün çox önəmlidir".

## "COP29-da bəzi liderlər "ağıllı şəhər" layihələrindən danışdılar, bu, yaxşı fikirdir"



**"Həqiqətən iqlim dəyişikliyi qarşılaşdığımız vacib qlobal problemdir. COP29 ərzində iqlim keçidiylə mübarizə mövzusunda olan müzakirələri dinlədim. Bəzi liderlər "ağıllı şəhər" layihələrindən danışdılar. Bu, həqiqətən də, yaxşı fikirdir. Biz bu layihələri həyata keçirməliyik".**

Bu sözləri COP29-a gələn çinli müşahidəçi Shuhan Xie deyib.

"İlk dəfədir COP-da iştirak edirəm. Azərbayacana ilk dəfə gəlirəm və düzünü desəm, buranı görəndə çox təəccübləndim. Bakı gözəl və heyrətamizdir. İnsanları çox səmimi və mehribandırlar", - deyə o qeyd edib.

## "COP29-un transformativ bir konfrans olacağını düşünürəm"



**"COP29 konfransı ümumilikdə yüksək səviyyədə təşkil olunub və çox səmərəli keçir. Konfrans sərbəst şəkildə davam edir. Biz təşkilat olaraq fəal iştirak etmişik, müzakirələrdə yer almışıq. Ümumiyyətlə, tərəflər arasında razılaşmaların əldə olunması üçün müzakirələr davam edir. Mənim ümumi gözləntim budur ki, bu iqlim konfransı əsaslı və dərin bir dəyişikliyə səbəb olacaq, yəni transformativ bir COP olacaq".**

Bu sözləri COP29 çərçivəsində ölkəmizə gələn Nigeriyada fəaliyyət göstərən "Davamlı Ətraf Mühit, Qida və Kənd Təsərrüfatı Təşəbbüsü" Təşkilatının nümayəndəsi Jacob Aderibigbe söyləyib.

Bu konfransın yalnız toplantı formatında keçməməsinin əhəmiyyətini vurğulayan nigeriyalı qonaq əlavə edib: "Azərbaycanın evsahibliyi etdiyi bu tədbir təkcə bir araya gəlmək üçün deyil, həm də planetin xeyrinə mühüm qərarların qəbul olunması üçün bir platformadır. Bu, kainatın gələcəyi ilə bağlıdır, yalnız danışıq deyil, konkret addımlardır, resursların səfərbər edilməsidir. İqlim dəyişikliyi bütün cəmiyyətin problemidir və həlli də bütün cəmiyyətin birgə iştirakı ilə mümkündür. Mən danışıqların nəticə verməsini, əsas iştirakçıların düzgün qərarlar qəbul etməsini gözləyirəm".

J.Aderibigbe iqlim dəyişikliyinin Nigeriyada yaratdığı problemlərə də toxunub. Onun sözlərinə görə, ölkə ərazisində iqlim dəyişiklikləri müxtəlif formalarda özünü göstərir: "Nigeriyada iqlim dəyişikliyi müxtəlif sahələrə böyük təsir göstərir. Şimalda quraqlıqların artması, cənubda isə daşqınların çoxalması kimi problemlər yaşanır. Məsələn, cənubda güclü yağışlar nəticəsində bir çox ev su altında qalır. Hava şəraitini əvvəlcədən proqnozlaşdırmaq mümkün deyil. Bu da məhsuldarlığın azalmasına və bəzi bölgələrdə ərzaq çatışmazlığına səbəb olur. İqlim dəyişikliyi təkcə ətraf mühit deyil, həm də sosial problemlərə səbəb olur. Şimalda quraqlıq səbəbindən maldarlıqla məşğul olan çobanlar cənuba köç edirlər. Bu isə fermerlərlə çobanlar arasında toqquşmalara səbəb olur. Bu vəziyyət həm ərzaq təhlükəsizliyini, həm də sosial stabilliyi təhdid edir".

Nigeriyalı nümayəndə bu problemlərin həlli üçün təcili addımlar atılmasının vacibliyini vurğulayaraq əlavə edib: "Biz Azərbaycana səslərini dünyaya çatdıra bilməyən insanların, icmaların səsi olmaq üçün gəlmişik. Artıq gözləmək vaxtı deyil, hərəkət etmək vaxtıdır. COP29-da iştirak edən nümayəndələr konkret qərarlar qəbul etməli və real həllər tapmalıdırlar".

## "Türkiyə iqlim dəyişikliyi ilə mübarizədə daha iddialı planlar elan etməlidir"



**"Türkiyənin Bakıda elan etdiyi uzunmüddətli İqlim Dəyişikliyi Strategiyası ölkənin bu sahədəki potensialından istifadə etmək üçün yetərli deyil".**

Bu sözləri jurnalistlərə Türkiyənin "Ekosfera" dərnəyinin İdarə Heyətinin üzvü Özgür Gürbüz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Türkiyə hakimiyyətinin iqlim dəyişikliyi ilə mübarizə planlarını şərh edərkən deyib.

Onun sözlərinə görə, rəsmi Ankaranın planları bərpaolunan enerji mənbələrinin (RES) gücünü artırmağa yönəlsə də, qazıntı yanacaqlarından imtina üçün dəqiq qrafiki nəzərdə tutmur.

"Ölkəmiz bərpaolunan enerji mənbələrinin və nüvə enerjisinin potensialından istifadəni artırmağa hazır olduğunu bəyan edir, eyni zamanda qaz və kömür elektrik stansiyalarının fəaliyyətini davam etdirir. Bunun heç bir rasional izahı yoxdur. Əslində, ekoloji problemlər davam edəcək, enerji xərcləri isə artacaq", - deyə Ö.Gürbüz bildirib.

O qeyd edib ki, Avropada hələ də kömürlə işləyən elektrik stansiyaları olan cəmi 5 ölkə qalıb ki, onlardan biri də Türkiyədir. Ekspert hesab edir ki, Ankaranın kömür elektrik stansiyalarının bağlanması ilə bağlı konkret tarixləri açıqlamasının vaxtı çatıb.

"Ekosfera" dərnəyinin nümayəndəsinin sözlərinə görə, Türkiyənin 2053-cü ilə qədər atmosferə zərərli emissiyaları sıfıra endirmək məqsədinə nail olmaq üçün qazıntı yanacaqları istehlakını minimuma endirməsi mütləqdir: "COP29-da elan edilmiş strategiyada nəqliyyat sektorunun inkişafı planları kontekstində də ziddiyyətlər var. Türkiyə hökuməti dəmir yolu şəbəkəsinin genişləndirilməsini prioritet adlandırır, amma avtomobil yolları və hava nəqliyyatı mövzusuna məhəl qoymur".

Ö.Gürbüz diqqətə çatdırıb ki, bu günə qədər dünya ölkələrinin yalnız kiçik bir hissəsi istixana qazı emissiyalarını azaltmaq üçün iddialı hədəflər açıqlayıb. "Dünya ölkələri üçün NDCs-lərin (Milli Müəyyən Edilmiş Töhfələr) yaxşı nümunəsi Böyük Britaniya hökuməti tərəfindən COP29-un ilk günlərində dərc edilmiş sənəddir. Təəssüf ki, heç də bütün ölkələrin Britaniya kimi yüksək məqsədləri yoxdur. Əgər dövlətlər öz milli hədəflərini yerinə yetirə bilməsələr, bəşəriyyət ən azı 2,7 dərəcə Selsi qlobal istiləşmə ilə üzləşəcək", - deyə ekspert xəbərdarlıq edib.

"Ekosfera"nın nümayəndəsi daha sonra Bakıda iqlim maliyyəsi mövzusunda gedən müzakirələrə diqqət çəkib: "Əsasən inkişaf etmiş ölkələri birləşdirən İƏİT ölkələri iqlim maliyyəsinə töhfə verən ölkələrin siyahısının genişləndirilməsinin tərəfdarıdır. Digər mühüm müzakirə mövzusu maliyyələşdirmə mexanizmləridir. İnkişaf etməkdə olan dövlətlər bu vəsaitlərin kreditlər deyil, qrantlar və digər dəstək növləri şəklində ayrılmasının tərəfdarıdırlar ki, bu da dövlətlərin borc yükünün artmamasına səbəb olacaq".

O, kiçik adalara və inkişaf etməmiş dövlətlərə kömək etməyə hazır olduqlarını bəyan edən Avropa İttifaqını misal çəkib və qeyd edib ki, bir çox inkişaf etməkdə olan ölkə, o cümlədən Türkiyə iqlim maliyyəsi resurslarına maksimum çıxış əldə etməyə çalışır.

Ekpert eyni zamanda inkişaf etməkdə olan ölkələrin 2030-cu ilə qədər iqlim məqsədləri üçün hər il ən azı 1,3 trilyon dollar ayrılmasını tələb etdiyinə diqqət çəkib: "Bu günə qədər müzakirə edilən "iqlim maliyyəsi"nin həcminin 100 milyard dollarla məhdudlaşdığını nəzərə alsaq, tələblər arasındakı fərq kifayət qədər əhəmiyyətlidir. Lakin bu o demək deyil ki, dünyada belə fondlar yoxdur. Təkcə ötən il dünyada silahlanmaya 2,4 trilyon dollar xərclənib".

Onun fikrincə, əgər bu gün bəşəriyyət silaha vəsait xərcləməkdən və mədən yanacaqları ilə bağlı sənayelərin təşviqindən imtina edərsə, o zaman çoxlu iqlim maliyyəsi mənbələri olacaq.

## "COP29 çərçivəsində tərəflərin vacib razılaşmalara nail olacağına ümidvaram"



**"COP29 konfransı mükəmməl təşkil olunub və özümü burada çox rahat hiss edirəm. Konfrans ümumilikdə çox səmərəli keçir. Azərbaycan xalqının qonaqpərvərliyindən isə olduqca məmnunam".**

Bu sözləri COP29 çərçivəsində ölkəmizə gələn qambiyalı nümayəndə Momodou Ceesay söyləyib.

Onun sözlərinə görə, bəzi məsələlərdə hələlik razılıqlar əldə olunmasa da, belə beynəlxalq platformaların əsas məqsədi iştirakçıların bir-biri ilə dialoq qurması və fikirlərini bölüşməsi üçün imkan yaratmaqdır.

M.Ceesay Qərbi Afrikada yerləşən və əhalisi 2.4 milyona çatan Qambiyanın iqlim dəyişikliklərinə qarşı xüsusilə həssas olduğunu bildirib: "Ölkəmizin zəif infrastruktura malik olması ekstremal iqlim hadisələrinin təsirini artırır. Qambiyada meşələrin qırılması, meşə yanğınları və digər təbii fəlakətlər yerli əhalinin gündəlik həyatına ciddi təsir göstərir. Bu problemlərin həlli üçün Qambiya hökuməti ciddi səylər göstərir".

Qambiyalı qonaq COP29 çərçivəsində tərəflərin vacib razılaşmalara nail olacağına ümid etdiyini bildirib. Onun fikrincə, iqlim dəyişiklikləri ilə mübarizə bütün ölkələrin birgə öhdəliyidir və bu mübarizədə inkişaf etmiş dövlətlərin də üzərinə böyük məsuliyyət düşür.
















# COP29: keçmişdən gələcəyə şanlı keçid

## Bakı gələcək üçün qlobal dünya gündəmini yaradıb

### Azərbaycan müstəqil siyasət yürüdə bilən, öz maraqlarını açıq şəkildə bəyan edən ölkədir







**Bakıda postsovet məkanında indiyə qədər təşkil edilmiş ən böyük beynəlxalq sammit - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası COP29 - BMT Baş Assambleyasından sonra dünya liderlərinin ikinci ən böyük illik toplantısı başa çatıb. Lakin yekun sənədlə bağlı işlər davam etdirilir.**

Qafqaz üzrə ekspertlər bu hadisənin Azərbaycanın beynəlxalq aləmdə mövqeyinə necə təsir edəcəyi və artıq təsir göstərdiyi barədə "Vestnik Kavkaza" portalına danışıblar.

İqtisad elmləri doktoru, professor, Sankt-Peterburq Dövlət Universitetinin "Diplomatiya" magistr proqramının rəhbəri, "Valday" Beynəlxalq Diskussiya Klubunun üzvü Stanislav Tkaçenko iki həftə ərzində Azərbaycanın dünyanın tam diqqət mərkəzində olduğunu vurğulayıb: "Dünya liderləri Azərbaycanın ev sahibi kimi planlaşdırdığı çox aktual gündəliyə dair mühüm məsələləri müzakirə etmək üçün Bakıya gəliblər və burada iki dünyagörüşü toqquşub: inkişaf etmiş ölkələrin iqlim dəyişikliyi ilə mübarizəyə baxışı və inkişaf etməkdə olan ölkələrin baxışı. Belə vəziyyətdə Azərbaycan öz dialoqlarında effektiv orta xətt tutmağı bacarıb. Ümid edirəm ki, COP29-da irəli sürülən iqlim gündəliyinə ədalətli yanaşmaya doğru hərəkət davam edəcək".

Politoloqun dediyinə görə, Rusiya Azərbaycanın konfransda sədrliyinə və COP29-un təşkilinə çox yüksək qiymət verir. İnkişafın iqtisadiyyatı, dördüncü enerji keçidinin ona təsiri və ətraf mühitlə bağlı hər şeyin müzakirəsi artıq inkişaf etməkdə olan ölkələrin xeyrinə resursların yenidən bölüşdürülməsi üçün effektiv modellər hazırlamağa yönəlməlidir. Azərbaycan bu mövqeyi açıq şəkildə ifadə edə bildi: zəngin dövlətlər iqlim dəyişikliyi ilə mübarizədə yoxsullara kömək etməlidirlər.

COP29 zamanı Azərbaycan özünü yaxşı təşkilatlanmış, gənc və dinamik bir dövlət kimi göstərib, sanki Bakı son 20 ildə şəhər infrastrukturunu yeniləyib, sahillər və göydələnlər tikib, əla hotel sənayesi yaradaraq belə bir mötəbər tədbir keçirməyə hazırlaşırmış. Bu günlərdə Azərbaycan özünü çox müasir dövlət və Cənubi Qafqazda şəksiz lider kimi göstərdi.

Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Naumov Bakının yeniliklərinə diqqət çəkib: "Əvvəllər iqlim konfransları kifayət qədər standart ssenari üzrə keçirilirdi: inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyi ilə düzgün mübarizə aparmağı və onların bununla bağlı nə etməli olduqlarını öyrədirdilər. Konfransın ev sahibi ölkəsi Azərbaycan isə özünü qeyri-adi və kifayət qədər cəsarətli apardı: Prezident İlham Əliyev Fransa və Niderlandın ünvanına açıq müstəmləkəçilik ittihamları səsləndirdi və onun çıxışı təkcə COP29-a gəlməkdən imtina edən müstəmləkəçilərin özlərini deyil, həm də Qlobal Cənub ölkələrini heyran qoydu. Yəni dünya isteblişmenti deyilən şeyə uyğunlaşmadığı, öz qaydalarını diktə etdiyi zaman Azərbaycan müstəqil siyasət yeritməyə əsaslı şəkildə sadiqdir, o cümlədən beynəlxalq forumlarda".

COP29-da gördüyümüz ikinci yenilik - dünyanın çirklənməsinin və qlobal istiləşmənin benefisiarlarından, yəni inkişaf etmiş ölkələrdən 1,3 trilyon dollar tələb etməyə qərar verən Qlobal Cənub ölkələrinin birləşməsi. İqlim problemlərini həll etmək üçün bu, dünya nizamının əsaslarını dəyişdirən tamamilə yeni bir hekayədir. İndi dünyanın əksər ölkələri olan Qlobal Cənubun yüksəlişini görürük. Onlar artıq qlobal azlıq ölkələrinin qaydaları ilə oynamaq istəmirlər, əksinə, öz iradələrini diktə etmək və öz gündəmlərinə uyğun işləmək niyyətindədirlər.

Ekspert hesab edir ki, bunun Azərbaycanda baş verməsi təsadüfi deyil: "Biz Qoşulmama Hərəkatının inkişafında Bakının sədrliyinin nə qədər mühüm rol oynadığını xatırlayırıq. Azərbaycan bu gün fövqəldövlət ölkələrlə potensial fərqinə baxmayaraq, müstəqil siyasət yeridə bilən, öz maraqlarını açıq şəkildə bəyan edən ölkə nümunəsidir. İndi biz başa düşürük ki, zaman keçdikcə Qoşulmama Hərəkatı dünya miqyasında getdikcə daha əhəmiyyətli rol oynayacaq".

Rusiyalı siyasi analitik, Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko COP29-un Bakıda keçirilməsini Azərbaycanın beynəlxalq aləmdə yüksək statusunun və nüfuzunun təsdiqi adlandırıb: "COP29 bir daha hamıya göstərdi ki, Azərbaycan bu gün qlobal miqyasda tendensiyaları müəyyən edən ölkələr sırasındadır. Təşkilati nöqteyi-nəzərdən, COP29 qüsursuz həyata keçirilib və bu tip iqlim forumları üçün bir model təqdim edilib. Bakı əvvəllər mötəbər beynəlxalq sammitlərə əla evsahibliyi etməklə məşhur idi, lakin COP29 zamanı o, əslində dünyanın paytaxtı oldu. Konfrans təsdiq etdi ki, Azərbaycanın nüfuzu bu gün hamı - respublikanın həm düşmənləri, həm də dostları tərəfindən tanınır".

İ. Korotçenkonun fikrincə, Azərbaycanın geosiyasi və geoiqtisadi əhəmiyyəti bütövlükdə artır. Azərbaycan bu gün dünyanın qabaqcıl ölkələri sırasındadır və bu, heç kimin etiraz edə və təkzib edə bilməyəcəyi faktdır. Azərbaycan qlobal gündəmi formalaşdırır. Bakının COP29-da qaldırdığı çox həssas məsələ iqlimin maliyyələşdirilməsidir. Qlobal istiləşmə proseslərinə əhəmiyyətli dərəcədə təsir edən ölkələr birgə məsuliyyət daşımaq istəmir və iqlim dəyişikliyinə ən həssas olan kiçik ada dövlətlərinə kömək etməkdən yayınır. COP29-da Azərbaycanın irəli sürdüyü ideyalar müzakirə olunmuş, məqsədəuyğun və düzgün hesab edilmişdir. Bu günlərdə Bakıda qəbul edilən qərarlar sivilizasiyamızın üzləşdiyi ən aktual təhlükələrin dəf edilməsi nöqteyi-nəzərindən qarşıdakı onilliklərdə ən mühüm qlobal proseslərin gedişatını müəyyən edəcək.

Bu, Azərbaycan rəhbərliyinin analitik, strateji məqsədqoyma səviyyəsini göstərir. Axı konkret praktiki məzmun daşıyan qlobal təşəbbüsləri formalaşdırmaq üçün onları ətraflı şəkildə işləyib hazırlamaq, hesablamaq və razılaşdırmaq lazımdır. Azərbaycan çox böyük işlər görüb.

Həmçinin Azərbaycan Qarabağın və Şərqi Zəngəzurun bərpası timsalında "yaşıl texnologiya"lara, bərpaolunan mənbələrdən enerji istehsalına - külək və su generasiyası, günəş enerjisindən istifadəyə verdiyi önəmi göstərdi.

COP29-da Azərbaycan nəinki diqqətlə hazırlanmış təşəbbüslər təklif etdi, həm də nə edilməli olduğunu göstərdi.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## *Bakının daxilində "kiçik şəhərcik":* COP29 məkanı sanki "Nuhun gəmisi"nə bənzəyirdi...

**Odlar diyarı Azərbaycan daha bir mötəbər tədbiri böyük təntənə ilə yola saldı. Təxminən 15 gün ərzində demək olar ki, insanların yaşadığı bütün materik və qitələrin nümayəndələri dünyanı bürüyən qlobal problemin çarəsini Bakıda axtardılar.**

Cəmi 11 aya xariqələr yaradan Azərbaycan COP29 üçün hər bir detalı nəzərdə saxlamışdı. Yaddan çıxan hansısa incə bir məqam yox idi. COP29 məkanı kiçik şəhərcik kimi idi... Dünyanın dörd bir yanından iştirakçıların olduğu COP29 məkanı sanki "Nuhun gəmisi"nə bənzəyirdi... Həmin "gəmiyə" minənləri bir məqsəd, bir ümid birləşdirirdi: təbiətin qəzəbindən xilas olmaq...

Tədbirin sonuncu günü olmasına və yorğunluğa baxmayaraq, hər kəs gülümsəyirdi... Kimisi məmnunluqdan, kimisi isə ölkəmizin növbəti sınaqdan üzüağ çıxmasına görə...

AZƏRTAC COP29 tədbirinin keçirildiyi "mavi" və "yaşıl" zonalarda yerli və xarici iştirakçıların fikirlərini öyrənib.



### Qarayaxma kampaniyalarına qarşı ideal cavab: ən yüksək səviyyədə təşkilatçılıq və uğurlu evsahibliyi

"EMEDIA Group" Media Təşkilatının sədri Elşən Əliyevin sözlərinə görə, ölkəmiz hər zaman sülh, əmin-amanlıq, humanistlik niyyətini dünyaya bəyan edib. COP29 tədbiri də Azərbaycanın öz ənənələrinə sadiqliyinin növbəti nümunəsidir:

"Biz dinindən, dilindən, milliyyətindən, irqindən asılı olmayaraq bütün planet sakinlərinin ədalətli şərtlər altında yaşamasının, iqlim dəyişikliyinin təsir və nəticələrinin aradan qaldırılması üçün az inkişaf etmiş ölkələrə yardım əli uzadılmasının tərəfdarıyıq. İstər COP29-dan əvvəl, istərsə də konfrans dövründə qarayaxma kampaniyaları aparılsa da, əleyhimizə fikirlər səsləndirilsə də, biz onları ən yüksək səviyyədə təşkilatçılıq və uğurlu evsahibliyi ilə susdurduq. İki həftə ərzində doğma Bakımız dünyanın ümid mərkəzinə çevrildi, bəşəriyyəti narahat edən problemlərə küləklər şəhərində həll yolları axtarıldı. Hamılıqla səfərbər olaraq daha bir çətin və məsuliyyətli işin öhdəsindən müvəffəqiyyətlə gəldiyimiz üçün çox qürurluyam".

Sabiq deputat, siyasi təhlilçi Sona Əliyeva COP29 çərçivəsində ən möhtəşəm hadisənin Türk Dövlətləri Təşkilatı (TDT) ölkələri arasında sənədlərin imzalanması olduğunu deyib:

"Düşünürəm ki, COP29 çərçivəsində TDT ölkələrinin imzaladığı sənədlər gələcəkdə real nəticələrə gətirib çıxaracaq. Hətta Azərbaycan və Türkiyənin ekosistemlə bağlı apardığı işlər gələcəkdə digər dövlətlər tərəfindən də öyrənilə bilər. Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində təşkil edilən Türk Dövlətləri Təşkilatının İqlimə Dayanıqlı "Ağıllı Kənd"lər üzrə Nazirlər Sessiyasında İqlimə Davamlı Kəndlər Forumu yaradıldı. Bu, olduqca önəmli hadisədir. Biz işğaldan azad olunan Zəngilanda, "Ağalı kəndin"də "ağıllı kənd" layihəsini reallaşdırmışıq. Bu, dünya iqlim təşkilatlarının həsəd aparacağı bir layihədir.

Fəxrlə deyə bilərik ki, TDT-yə daxil olan ölkələrin QHT-ləri COP29 çərçivəsində həyata keçirilən proseslərdə fəal iştirak etdilər. Ətraf mühitin qorunması istiqamətində qanunverici çərçivənin yaradılması vacib idi. Bu forumun yaradılması bir daha təsdiq edir ki, qlobal iqlim çağırışlarının həllində hər bir kəsin iştirakı lazımdır. Azərbaycanın COP29-a uğurla evsahibliyi etməsi türk dünyası üçün də önəmli idi".

İngiltərənin Lester Universitetinin professoru Con Seymur Heslop-Harrison bildirib:

"Bu, mənim iştirak etdiyim ilk COP-dur. Etiraf etməliyəm ki, COP29 mənim gözlədiyimdən də əhatəli oldu. Biomüxtəlifliyə malik sahələrin qorunması yolu ilə kənd təsərrüfatını daha da genişləndirmək üçün gözəl imkanlar var. COP29 kənd təsərrüfatı genetikasını, bu sahə üzrə ali təhsil verən universitetlərin rolunu, biomüxtəlifliyin qorunub saxlanılması üsullarını müzakirə etmək, gələcək nəslə iqlim dəyişikliyi və onun təsirlərini azaltmaq yollarını aşılamaq üçün real fürsət yaratdı".

Ajans.az xəbər portalının baş redaktoru Tural Müseyibov bütün sahələrdə zəngin təcrübəyə malik olan Azərbaycanın COP29-a evsahibliyi etməsinin ölkəmizin nüfuzunun, qüdrətinin göstəricisi olduğunu diqqətə çatdırıb:

"Şübhəsiz ki, bu məsələdə Prezident İlham Əliyevin rolu danılmazdır. Ölkə başçısının dəvəti ilə Azərbaycana gələn prezidentlər, vitse-prezidentlər, baş nazirlərin iştirakı ilə keçirilən liderlərin sammitində çıxışlar zamanı səslənən fikirlər Azərbaycana olan diqqət və dəyərin bariz nümunəsidir. Həmçinin ölkəmizin beynəlxalq aləmdə söz sahibinin olmasının göstəricisi kimi qiymətləndirilə bilər. Çox nüfuzlu tədbirin ölkəmizdə keçirilməsi həm də bizim üçün böyük məsuliyyət yaradır. Xarici qonaqların fikirləri də onu göstərir ki, bu gün Azərbaycan istənilən mötəbər tədbiri yüksək səviyyədə təşkil etməyə qadir olan dövlətdir. Buna görə də prosesdə iştirak edən bütün yerli qurumlara, vətəndaşlara təşəkkür düşür. Tədbirin təhlükəsizliyinin yüksək səviyyədə təşkili Azərbaycanla bağlı olan düşüncələrdə daha fərqli yanaşmanı ortaya qoyacaq".

### Bu dəfə "yaşıl dünya" naminə həmrəy olduq...

"Yaşıl dünya naminə həmrəylik ili"ndə COP29-un keçirilməsinin ilin ekoloji yükünü və ətraf mühitə qarşı məsuliyyətli davranışın önəmini daha da qabartdığını deyən Bakı şəhəri 295 nömrəli tam orta məktəbin direktoru, sabiq deputat Dilarə Cəbrayılova fikirlərinə belə davam edib:

"Biz ölkəmiz, dünyamız üçün növbəti həlledici bir dönəmi geridə qoyduq. Həm öyrəndik, həm də öyrətdik.

Direktoru olduğum məktəbin şagirdləri də COP29 çərçivəsində "yaşıl zona"nı ziyarət etdilər. Ətraf mühitə dost münasibəti uşaqlara elə kiçik yaşlardan aşılamaq lazımdır. Biz "yaşıl dünya"mız naminə uşaqlarımızı "yaşıl düşün"cə ilə böyütməliyik. COP29 bir daha onu göstərdi ki, məktəblərdə və təhsil ocaqlarında "yaşıl təhsil" və ətraf mühit dəyişiklikləri ilə bağlı bir sıra maarifləndirici tədbirlərin və layihələrin keçirilməsi məqsədəuyğundur. "Yaşıl təhsil"lə bağlı görüləcək çox iş var. Düşünürəm ki, gələcəkdə bəhrə görmək üçün fidanları indidən düzgün yetişdirməliyik".

Burundidən gələn iştirakçı Sedrik Hakizimana COP29-un müsbət nəticə verəcəyini və bir çox ölkələrin probleminə həqiqətən də kömək edəcəyini düşündüyünü deyib. O, iqlim dəyişikliyindən əziyyət çəkən ölkənin nümayəndəsi kimi müzakirələrdə iştirak etməyin onun üçün çox vacib olduğunu bildirib. Paytaxtımızı çox bəyəndiyini dilə gətirən qonaq insanların çox mehriban və səmimi olduğunu da qeyd etməyi unutmayıb.

Birinci Qarabağ müharibəsi şəhidi Şaban Cəfərovun qızı, "NR" İnklüziv Mərkəzin təsisçisi və direktoru Nərmin Şabanqızı ərazi bütövlüyümüzü bərpa etdikdən sonra belə vacib tədbirə evsahibliyi etməyimizi ölkəmizi istəməyən qüvvələr üzərində növbəti qələbəmiz adlandırıb.

O, həmçinin deyib: "COP29 məkanında məhdudiyyətli vətəndaşların tədbirdə aktiv iştirakı üçün hər bir detal diqqətdə saxlanılmış, inklüzivlik təmin olunmuşdu. İnklüzivlik və müyəssərliyin təşkilində müxtəlif dərəcədə əlilliyi olan şəxslərin iştirakı isə xüsusilə təqdirəlayiqdir. Bununla da ölkəmiz inklüziv, bütöv, hər bir fərdi ilə rəngarəng cəmiyyət qurmaq məramını bir daha göstərmiş oldu. "Yaşıl dünya naminə həmrəylik ili"ndə həmrəyliyimizin növbəti uğuruna görə hər birimizi təbrik edirəm".

COP29-un azyaşlı ziyarətçiləri arasında olan Tanzaniyadan gələn Corcina Benedikt Maqesa uşaqların ətraf mühit məsələlərinin həllinə töhfə verə biləcəyini deyib. Onun sözlərinə görə, vacib qərarların qəbulunda planetin 18 yaşadək sakinlərinin iti ağıllarının məhsullarından, düşüncələrindən yararlanmaq hər kəs üçün faydalı ola bilər.

"Uşaqlar COP29 tədbirinin nəticələri barədə məlumatlı olmalı, Braziliyada keçiriləcək COP30-u qaçırmamalıdırlar. Çünki növbəti COP tədbirinin mövzusu uşaqlar üçün olacaq".

"Xəzər dənizinin sahilində yerləşən Azərbaycan çox gözəl, səmimi və mehriban əhalisi olan ölkədir. İndiyə kimi üç kitabım çapdan çıxıb. Tanzaniyaya qayıdan kimi Azərbaycan haqqında kitab yazmağı düşünürəm", - deyə C.B.Maqesa fikirlərinə yekun vurub.

Biz bu il "Yaşıl dünya naminə həmrəylik ili" çağırışı ilə yola çıxdıq. Bəli, adından göründüyü kimi, "yaşıl ölkə" deyil, "yaşıl dünya" naminə... Məhz COP29-da da əsas hədəfimiz iqlim dəyişmələri və onun təsirlərinə qarşı həmrəy olmaq idi. Ekoloji problemlərin sərhəd tanımadığı, bəzən bizim üçün lokal görünən, əslində isə ölkələr gəzərək qlobal miqyasa çata biləcək məsələlərin həllinə yalnız birlik olaraq nail ola bilərik. İl boyu dünya pəncərəsini açaraq hər kəsə "yaşıl niyyət"lə səsləndik. Səsimizə okeanın ta o biri tayından da səs verən oldu...

Bakı öz missiyasını uğurla tamamladı...

## İqlim fəalları inkişaf etmiş ölkələri maliyyə vədinə əməl etməyə çağırıblar

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, aksiya iştirakçıları inkişaf etmiş ölkələri iqlim maliyyəsi vədinə əməl etməyə çağıran şüarlar səsləndiriblər. Onlar Qərb ölkələrini COP29 danışıqlarının məhsuldar bitməsi üçün aktivlik nümayiş etdirməməkdə ittiham ediblər.

Qeyd edək ki, noyabrın 11-dən bəri COP29 məkanında hər gün aksiyalar keçirilir. Etirazçıların fikirlərini ifadə etmələri üçün bütün şərait yaradılıb.








## COP29 məkanında daha bir aksiya keçirilib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, aksiya iştirakçıları "İqlim maliyyəsi üçün ödə!", "Ya ödə, ya sus!", "Qlobal şimal, ödə!", "Trilyonlarla ödə, milyardlarla yox!" kimi pankart açıb, şüarlar, bəyanatlar səsləndiriblər.

Qeyd edək ki, noyabrın 11-dən bəri COP29 məkanında hər gün müxtəlif mövzularda aksiyalar keçirilib. Etirazçıların fikirlərini sərbəst ifadə etmələri üçün COP29 məkanında bütün şərait yaradılıb.













# COP29 koloriti



COP29
Baku
Azerbaijan

# 25 Noyabr Kəlbəcər Şəhəri Günüdür

# Kəlbəcər təntənəsi

**Bu torpağa azadlıq, bu yurda bayram yaraşır!**

**Zirvəsi qarlı dağları, sıx meşələri, şəfalı bulaqları, təmiz havası, gül-çiçəkli çəmənləri ilə dünyada bənzəri olmayan xəzinələr diyarından danışıram.**

**Bağrından boy atdığımız, saflığı ilə cilalandığımız, vurğununa çevrildiyimiz müqəddəs ünvandan...**

**Bu uca məkanın dağından, aranından, kəndindən yaylağından, bayramlarından, toylarından, ən əsası, zəhmətkeş, qoçaq, qonaqpərvər, vəfalı, qəhrəman insanlarından danışıram...**

**Sazlı-sözlu ulu Kəlbəcərdən söz açıram!**

## Salam, torpaq...

Düz 31 il əvvəl, qüssəli bir yaz günündə, baxdıqca göz işləyən, ucu-bucağı bilinməyən qədim və nəhəng Kəlbəcər yurdu sakinləri üçün yoxa çıxmışdı, qeybə çəkilmişdi. O faciənin şahidləri sonradan danışırdılar ki, sonuncu dəfə Kəlbəcəri dağlarının bəyaz saçını yola-yola Tərtərçaya qoşularaq hönkür-hönkür ağlayan görmüşdülər. Elə həmin gün kəlbəcərlilər Azərbaycanın dörd bir yanına pərən-pərən düşmüşdülər. Heç şübhəsiz, bütün var-dövlətlərini qoyaraq Kəlbəcər kimi zəngin bir diyardan ayrılmaq onlar üçün maddi sıxıntılar burulğanına düşmək demək idi və elə belə də olmuşdu. Bir andaca, sözün əsl mənasında, quru yurdda qalan bu insanlar daldanacaqları bir dam, yatmağa yer, geyinməyə paltar, ayaqqabı tapmamışdılar. Saatlarla yardım növbələrində dayanmağa məhkum olmuşdular...

Bir də yurd, el-oba həsrəti var idi. Bu da ürəkağrıdan gerçəklikdir ki, onlar bu həsrətlərini ən çox ellilərinin yas mərasimlərində ovutmağa çalışırdılar. Qonşular, qohumlar bir-biriləri ilə görüşür, taleyin onları saldığı bu məhrumiyyətlərə, əzablara birlikdə ağı deyib gözyaşı tökürdülər...

Amma bu insanlar heç zaman Kəlbəcərə dönəcəkləri ümidlərindən də daşınmamışdılar. Ona qovuşacaqları günə qədər Kəlbəcəri qəlblərində əvvəlkitək əzəmətli diyar kimi qoruyub saxlamışdılar, nə şirin ləhcələrindən, nə də adət-ənənələrindən əl çəkmişdilər. Bəlkə də elə bu ümid, etdikləri dualar idi onları yenidən Kəlbəcərə qovuşduran… Və budur, artıq Kəlbəcərin işğaldan azad edilməsinin 4 illik qürurunu yaşayırıq, o yurdların ziyarətinə gedirik.

İllər əvvəl kəlbəcərli şair Sücaətin qələmə aldığı o möhtəşəm məqamı yaşayırıq:

*"Bir gün gülə-gülə qayıdacaqdı,*
*Ağlaya-ağlaya köçən Kəlbəcər".*

Azadlığından sonra Sınıqkilsənin əksər sakinləri doğma torpağının ziyarətinə gedib.

Elə mən də 2022-ci ilin iyul ayında Kəlbəcərə, doğma kəndim Sınıqkilsəyə (indi Hacıkənd) ilk dəfə qədəm qoyanda bir gözüm ağlayırdı, biri gülürdü.

Kəndə çatanda birbaşa doğulduğum evə (yəni quruca divarları qalmış evimizə) getmək mənə o qədər çətin gəlmişdi ki, vaxt qazanmaq üçün dərə ilə axan çayın həzin səsinə qulaq vermiş, uşaq vaxtı qarış-qarış gəzdiyim, hər daşına, qayasına, yoluna, cığırına bələd olduğum kəndə yenidən göz gəzdirmişdim. O çətin anlarda minlərlə gül-çiçəyin ətrini bu yamacdan o yamaca daşıyan ılıq meh üzümə vurmuş, yenə də məni ötən Kəlbəcərli günlərimə qaytarmışdı...






## Yaylaq bizim yaylaqlara bənzəyir

Kəlbəcər elinin ən gözəl dövrü yaylaqlarda yaşam ərəfəsi olardı...

Biz buna "dağa köçmək" deyərdik...

Kəlbəcərdə hər kəndin bir və ya bir neçə yaylağı vardı. Məktəblər bağlanıb yay tətili gələndə Sınıqkilsənin sakinləri də Qoç daş yaylağına çıxardılar. Həm özləri dincələr, həm də qış ehtiyatı tutardılar. Yaylağa çox şey aparılmazdı, ancaq zəruri əşyalar qovğarılıb yük maşınına yığılardı.

Biz uşaqlarsa maşına minməyi xoşlamaz, elə pay-piyada mal-qara, qoyun-quzu, çoban itlərinin hay-küylü köçünə qoşulub üzü dağlara qalxardıq. Sınıqkilsənin ortasından iri bir çay keçirdi və evlər hər iki tərəfdə dağların döşündə sıralanmışdı. Başdan-başa meşəlik idi, amma biz yaylağa qalxdıqca meşəlik azalar, ağaclar yavaş-yavaş seyrəlib öz yerini az qala elə ağac hündürlüyünə qalxmış otlara verərdi. Bu cür hündür otları birtəhər yara-yara irəliləyərdik.

Yaylağa çatanda görərdik ki, artıq alaçıqlar qurulmağa başlanıb. Kişilər əvvəlcə alaçığın dirəklərini basdırar, sonra tavan hissəsini çubuqlarla hörər, ən sonda isə ağ çadırı çəkərdilər...

Onlar bu işləri görən ərəfədə isə qadınlar ocaq qalayar, qazan asardılar. Uzaqdan baxanda bütün ağ çadırların ətrafından uzanaraq buludlara qovuşan tüstü burumları görünərdi...

Yaylaqlar çox hündürlükdə yerləşdiyi üçün adamda elə bir hiss yaranardı ki, sanki yerlə-göyün qovuşduğu yerdəsən və əl uzatsan o ulduzlara, aya toxuna bilərsən...

Səhər ala-qaranlıqda lap uzaqlardan, haradansa çoban tütəyinin yanıqlı səsi dağ-daşda əks-səda verərdi...

Elə bu ecazkar çağırışdan sonra arxaclardan buraxılan mal-qara otlağa yönələr, yenicə doğulan quzular, buzovlar onların arxasınca yanıqlı-yanıqlı mələşərdilər. Axşamüstü naxır, qoyun sürüsü örüşdən qayıdanda isə ana və balaların qovuşması əsnasında bütün yaylağı elə bir səs-küy bürüyərdi ki, qulaq tutulardı...

Analar süd vedrələrini götürüb arxaca yollanar, uşaqlarsa qoyunların başından bir-bir tutub saxlayardılar ki, onlar südü rahatlıqla sağa bilsinlər. Az keçməmiş qıjıltı ilə vedrəyə axan ağ köpüklü südün ləzzətli ətri ətrafı bürüyərdi.

Daha sonra ocaqlar çatılar, sağılan südlər bişirilərdi. Kimisi süddən qatıq çalar, kimisi pendir tutar, kimisi də çiyə çəkərdi...

Kəlbəcər yaylaqlarının mehmanları da çox olardı...

Bulaqların başı qonaq-qara ilə dolubdaşar, saz-söz məclisləri düzənlənərdi. Sacda xamıralı bişirilər, qırxbuğum kətəsi salınar, nehrələr çalxanar, buz kimi ayran ürəklərə sərinlik gətirərdi...

Samovarlar pıqqapıq qaynayar, kəklikotulu çay dəmlənər, əmlik quzulardan kabab çəkilər, yarpızlı dovğanın ətri aləmi bürüyərdi...

Şükür Tanrıya ki, indi Kəlbəcər yaylaqları yenidən əziz qonaqlarını eyni təntənə ilə qarşılayır...

## Dağlarda toy

...Elə ki alxaslı elinin uca dağların döşündə saldığı, güneyli-quzeyli Sınıqkilsə kəndinin iki gənci bir-birinə könül verdi, dərhal böyüklər şadlıqla qollarını çırmalayıb toy hazırlıqlarına başlayardılar.

Əvvəlcə kəndin beş-altı ağsaqqalı və oğlanın anası yollanardı qız evinə və gəlişlərinin məqsədlərini söyləyərdilər. Böyüklərindən qızın "hə"si alınandan sonra gedənlərdən bir nəfər qayıdıb oğlan evindən bir qızıl üzük, bir qırmızı yaylıq, bir dənə də ətli-canlı qoyun gətirərdi. Qız evində heyvan kəsilər, qızın barmağına üzük taxılar, başına yaylıq salınar və geri dönülərdi.

Aradan bir müddət keçdikdən, nişan qoyulduqdan sonra al-əlvan xurcunla, qırmızı lentlərlə bəzənmiş kəhər atı səyirdərək Sınıqkilsə kəndini ev-ev dolaşan cavan şux səslə camaatı toya dəvət edər, hər kəsi yeni ailə quracaq iki gəncin xoşbəxtlik sevincini bölüşməyə çağırardı.

Beləcə, Sınıqkilsə kəndində uzun və zəhmətlə keçən yaz-yay aylarından sonra, bar-bərəkətli, əl-ayaq yığışan payız və qış fəslinin toy-düyünlü günləri başlayardı.

Demək olar ki, bütün kənd əhli ellikcə toy adamına çevrilər, həm qız, həm də oğlan evində olan toyda yaxından iştirak edər, əlindən gələn köməyi əsirgəməz, doyunca oynayar, şənlənərdi.

Sınıqkilsə kəndinin sakini Zəminə Quliyeva danışır ki, Kəlbəcərdə toylar, əsasən, payız aylarında olardı. Toylarımız dörd gün, dörd gecə sürər, hər günün də öz adəti, öz təmtərağı olardı. Toylara cümə axşamı "paltarbiçdi" ilə başlanılardı.

- "Paltarbiçdi"də gəlinə qızıl, geyim, gəlinlik paltarı, qızın yaxınlarına, qocalara, uşaqlara paltar, yaylıq, don, kişilərə köynək və sair xələt gətirilərdi.

Cümə günü axşam kənd camaatı oğlan evinə yığılar, yeyib-içər, aşıq mahnıları ilə oynayardı. Şənbə günü isə səhər tezdən qız evində qazanlar asılardı, qaralı aş, şorba, dolma bişirilərdi. Saat 12-də oğlan evi gələr, toy mağarında yeyib-içərdilər. Axşamı isə qıza xınayaxdı mərasimi keçirilər, kəndin bütün gənc qızları əllərinə xına qoyardı. Sonra gecə saat 2-yə, 3-ə qədər aşıq çalar, hamı oynayardı.

Toyun sonuncu günü - bazar günündə isə oğlan evində toy çalınardı. Günorta gəlini bəzəyib bəy evinə gətirərdilər. Adət idi, gəlini üzüaçıq gətirməzdilər, gəlinlik paltarı geyinəndən sonra başına örpək taxar, onun da üstündən qırmızı kəlağayı atardılar. Evin bir tərəfində ipəkdən tikilən gərdək asılırdı və gəlin rəfiqələri ilə onun arxasında oturardı.

O zaman gəlini təsadüfən mağara (toy çadırı) aparardılar. Bir dəfə oynadardılar, qohum-əqrəba şabaş atardı, sonra qayıdıb gərdəkdə oturardı.

Günorta yemək-içmək olar, sonra axşama qədər çalıb-oynayırdılar, sonra isə bəy tərifi olardı və gecə saat 2-yə, 3-ə qədər aşıqlar dastan deyərdilər.








































## Bitdi çiçək, oldu yaz

Kəlbəcərdə təmtəraqla qeyd edilən bayramlardan biri də Xıdır Nəbi idi.

Həmin gün, adətən, kəndimizdə qar dizdən olardı. Şaxtalı havada gümüşü ayla gur çatılan tonqalın işığı birləşərək donmuş çayın üzərində ecazkar mənzərə yaradar, balabanın, qarmonun, nağaranın sədaları kəndi başına götürərdi... Gənclərdən, yeniyetmələrdən, uşaqlardan ibarət kosa gəzdirən dəstənin üzvləri səhərə qədər deyib-gülər, rəqs edərdilər...

Beləcə, Sınıqkilsə kəndində məskən salan alxaslı obasının sakinləri növbəti Xıdır Nəbi bayramını coşqu ilə qeyd edərdilər.

Adətən, Xıdır Nəbi fevralın ortasında, "yalançı çərşənbə"dən əvvəlki həftənin cümə axşamı günü özünəməxsus adət və əyləncələrlə keçirilərdi... Həmin günün əsas qəhrəmanı, hər kəs tərəfindən böyük maraqla gözlənilən və birmənalı olaraq kəndin bütün uşaqlarının çox qorxduğu əyləncəli obrazı isə Kosa olardı.

Kəndin cavan oğlanları bir evə yığışar, Kosaya dəridən hazırlanan xüsusi papaq, tərs çevrilmiş dəri gödəkcə geyindirər, əlinə taxtadan qılınc verərdilər. Axşam şər qarışanda Kosa başının dəstəsi ilə ev-ev gəzib, məşhur "Kosa, Kosa, gəlsənə..." mahnısını oxuyar, un, yağ, şəkər tozu, yumurta, puldan ibarət payını yığardı. Bütün evləri gəzib dolaşdıqdan sonra isə əldə olunan ərzaqdan halva çalınar, yuxa bişirilərdi. Yuxalara bükülən halva evlərə paylanardı. Pul isə Kosa gəzdirənlər arasında bərabər şəkildə bölünərdi...

## Novruz ovqatı

Kəlbəcərdə Novruz bayramı xüsusi coşqu ilə keçirilərdi. Həftələrlə əvvəldən bu bayrama böyük hazırlıq görülərdi. Uşaqlar Novruz bayramı üçün yanvar ayından etibarən yumurta yığardı. Həmin yumurtalar həm anaların şirniyyat bişirmələri üçün, həm al-əlvan boyanmaları, həm də döyüşdürmək üçün yetərli olmalı idi. Fevral ayının axırıncı həftəsi səməni qoyulardı.

Yadımdadır, hər bayram Bağdagül nənəm quyruq yağı, qoz, süd, undan kömbə bişirərdi. İki yekə sacın içini yuyar, birinin içərisinə xəmiri yayardı, digərini isə onun ağzına qapaq kimi qoyardı. Sacın altını və üstünü tamamilə közlə örtərdi və nəticədə qıpqırmızı ləzzətli kömbə hazır olardı.

Bir neçə qonşu yığışaraq bayram şirniyyatını bir yerdə bişirərdi. Bu, həm şirniyyatların bişirilməsini asanlaşdırar, həm də qız-gəlinin deyib-gülmək üçün bir yerə yığışmasına bəhanə olardı. Onlar səhərə qədər yatmazdılar, şirniyyat bişirərdilər.

Elə ki şirniyyatlar tamamilə bişirilib qurtarardı, bərabər şəkildə onu paylara bölərdilər.

İlaxır çərşənbə tonqalı yandırıldıqdan sonra bütün süfrələr bəzədilərdi, xüsusilə də şirniyyatlarla, meyvələrlə. Xonçanın ortasında isə quzu fiqurlu şirniyyat olardı. Bu fiqurun boğazına qırmızı lent bağlayar, ağzına da bir tel səməni qoyardılar.

Uşaqlar müxtəlif çərəzlər, şirniyyat, konfet, meyvə dolu boşqablarda qonşulara, qohumlara çərşənbəlik payı daşıyardılar. Qablar boş qaytarılmaz, içərisinə bayram payı qoyularaq geri göndərilərdi. Uşaqlar dəstə-dəstə yığışaraq qonşu qapılara torba atar, Novruz payı yığardılar.

Səhər obaşdan hələ dan üzü ağarmamış qızlar durub gedərdi çay başına, "lal su" gətirməyə. Həmçinin də çayın içindən kiçik çınqıllar götürərdilər. Həmin sudan evin hər küncünə, həyətə səpər, çınqıllardan çörək təknəsinin dibinə, un kisəsinə qoyardılar ki, ev daim ruzi-bərəkətli olsun.

Martın 21-i isə "aş bayramı" idi. Belə deyərdik. Mütləq evlərdə qaralı plov dəmlənərdi. Yanında da çölarmudu qaxından hazırlanmış şirə. Həmin gün qohumlar, qonşular bir-birinin evinə gedər, mütləq o aşdan bir qaşıq da olsa dadardılar.

## Kəlbəcərlə qoşa anılan igidlər

Artıq dörd ildir ki, Kəlbəcərin işğal yox, azadlıq günün qeyd edirik. Hər ötən an bu ulu yurdun azadlıq yaşının üzərinə fəxarətli günlər, aylar, illər gəlir... Kəlbəcərlilər düz 27 il həsrət qaldıqları ana yurdlarına qovuşublar. Tezliklə burada yeni həyat qurulacaq, bayramlar qeyd ediləcək, toylar çalınacaq, körpələr doğulacaq...

Bütün bu xoşbəxtliyi bizə qəhrəman Azərbaycan oğulları bəxş edib. Canlarını torpaq uğrunda qurban verməkdən belə çəkinməyərək yurdlarımıza azadlıq qazandırıblar. Vətən yolunda şəhidlik zirvəsinə ucalan həmin igidlər arasında Kəlbəcərin hünərli oğulları da xeyli saydadır. Sınıqkilsədən olan və Birinci Qarabağ müharibəsində düşmənlə qəhrəmanlıqla çarpışan şəhid mayor Mürşüd Məmmədovun döyüş yolu gələcək nəsillərimiz üçün örnəkdir.

Mürşüd Məmmədov Kəlbəcər Ərazi Müdafiə Taborunun - "Kəlbəcər taboru"nun tərkibində erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edib, torpaqlarımızın azad olunması uğrunda qəhrəmanlıqla vuruşub.

1992-ci ildə 701-ci hərbi hissə ilə birləşərək 3-cü tabor adlandırılmış "Kəlbəcər taboru" Qarabağ müharibəsinin sonunadək ön cəbhədə igidliklə vuruşub. 1993-cü ilin dekabrında Murovdağ silsiləsinin qarlı zirvələrini aşaraq düşmən arxasına, Kəlbəcərin Bozdu və Təkəqayası kəndlərinə etdiyi əfsanəvi yürüş isə qürurverici qalibiyyətləri ilə hələ də yaddaşlardadır. Taborun cəsur döyüşçüləri qış fəslində minlərlə metr yüksəklikdəki Murovdağın qarla örtülmüş zirvələrini bir həmlədəcə ələ keçirərək düşmən üzərinə hücum edib onları pərən-pərən salmışdı. Döyüşçü yoldaşlarının xatirələrində də dəfələrlə vurğulanır ki, birinci "Murovdağ əməliyyatı" zamanı ən ağır hücum istiqamətlərində döyüşləri məhz Mürşüd Məmmədovun rəhbərlik etdiyi bölük aparırdı...

2020-ci il Vətən müharibəsində düşmənə qan udduran qəhrəmanlar arasında da kəlbəcərlilər az deyildi. Əfsanəvi kəşfiyyatçı, Naxçıvan Əlahiddə Xüsusi Təyinatlı Qüvvələrinin polkovnik-leytenantı şəhid Anar Əliyev də bunlardan biridir.

Ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülən Anar Əliyev müharibənin Füzuli, Cəbrayıl, Zəngilan və Xocavənd cəbhəsində fərqlənib. Anar Əliyevin rəhbərliyi altında gedən döyüşlər və komandirliyini etdiyi xüsusi təyinatlı briqadanın qəhrəmanlığı sayəsində 14 oktyabr tarixində Füzuli və Xocavəndin birlikdə 6 kəndi azad edilib. Qəhrəman döyüşçünün rəhbərliyi altında Qubadlı istiqamətində üzərində xaç olan strateji yüksəklik düşməndən təmizlənib. Polkovnik-leytenant Anar Əliyevin komandirlik etdiyi briqadanın iştirak etdiyi əməliyyatlar nəticəsində, 21 oktyabrda Füzulinin Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri işğaldan tam azad edilib. Anar Əliyev Xocavənd-Şuşa istiqamətində Azərbaycan Ordusunun Şuşaya daxil olmasında böyük rol oynayacaq strateji yüksəklikləri azad edərək Şuşaya Zəfər yolunu açıb.

Başlıbelli şəhid polkovnik-leytenant Zaur Cəfərovun Vətən müharibəsindəki döyüş yolu da əzmkarlığı ilə seçilir. Zaur Cəfərov düşmənin döyüş meydanında qoyub qaçdığı texnikanı dəfələrlə özü idarə edərək qənimət kimi gətirib. İgid komandirin Madagiz-Ağdərə istiqamətində rəhbərliyi ilə keçirilən hərbi əməliyyatlar zamanı Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborunun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb. Həmçinin Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının müdafiə sahəsinə artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib. Oktyabrın 3-də Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin və Murov dağ silsiləsinin işğalçılardan azad olunmasında müstəsna xidməti olub.

Kəlbəcərin Milli kəndindən olan tibb xidməti polkovnik-leytenantı şəhid Rasim Abdullayev 44 günlük Vətən müharibəsi dövründə tabeliyində olan həkim briqadası ilə birlikdə gecə-gündüz hər bir yaralı əsgərin həyatı uğrunda çarpışıb-vuruşub, sözün əsl mənasında, onların əksəriyyətini ölümün pəncəsindən dartıb çıxarıb.

Həkim Hadrut istiqamətində gedən döyüşlərin ən qızğın nöqtələrində qalmış yaralılara yerindəcə tibbi yardım göstərib. Vətən müharibəsinin son gününə qədər 100-dən çox yaralıya döyüş meydanında tibbi yardım göstərən Rasim Abdullayev işğaldan azad olunan ərazilərə gedib, oradakı yaralılara yardım göstərib, onları təxliyə edib.

Yazıda adlarını çəkdiyimiz bu kəlbəcərli qəhrəman şəhidlərimizin timsalında torpaqlarımız uğrunda gözünü qırpmadan özünü fəda edən minlərlə kəlbəcərli və ölkəmizin digər bölgələrindən olan cəsur oğullara bir ömür boyu minnətdar, onların ruhlarına duaçı olacağıq...

*Bu qəhrəman igidlər sayəsində digər yurdlarımız kimi, Kəlbəcər də azadlıq gününü qeyd edir.*

*Çox tezliklə Kəlbəcər əvvəlki cahcalallı, qonaq-qaralı, saz-sözlü günlərinə qovuşacaq. Bu cənnətməkan diyarın doğma sakinləri yurdlarına dönərək kəlbəcərli bəxtəvərlər kimi yaşayacaqlar...*

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

COP29 Baku Azerbaijan

# Məktublar: problemlər, rəylər, təkliflər...



● ŞƏHİDLƏR ÖLMÜR

## İgidliyi ilə seçilən Vətən oğlu

**44 gün davam edən və Zəfərlə başa çatan Vətən müharibəsində igidliyi və cəsarəti ilə seçilən qəhrəmanlarımızdan biri də şəhid Ülfət Babazadədir.**




Ülfət Qabil oğlu Babazadə 2000-ci il fevralın 8-də Lənkəranın Daştatük kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb. Sonra Cəlilabaddakı hərbi hissədə Xüsusi Təyinatlı Qüvvələrin sırasında xidmət edib. 2020-ci il sentyabrın 27-də torpaqlarımızı azad etmək uğrunda Vətən müharibəsi başlayanda cəbhəyə yollanıb, Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşanın işğaldan azad olunmasında fəal iştirak edib. Müharibədə odun-alovun içindən zəfərlə çıxan Ülfət Vətən müharibəsinin başa çatmasına cəmi 6 saat qalmış Şuşa şəhərinin yaxınlığında qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib.

Ülfət Babazadə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidin xatirəsi Lənkəran rayonunda, doğulub boya-başa çatdığı Daştatük kəndində əziz tutulur. Onun adının əbədiləşdirilməsi üçün kəndin mərkəzində xatirə parkı, abidə kompleksi və bulaq inşa edilib.

*Ağaddin BABAYEV,*
*Lənkəran rayonu*

● RAZILIQ

## "Şəhid övladımın xatirəsi həmişə əziz tutulur"

**2020-ci ilin 27 sentyabr tarixi Azərbaycan xalqının yaddaşına bizi böyük Qələbəyə, şanlı Zəfərə aparan yolun başlanğıc tarixi kimi yazıldı. Qarabağ adlı haqq savaşımıza məhz o gün başladıq.**

44 gün davam edən savaşda Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Qələbə qazandı. 30 ilə yaxın işğal altında qalan torpaqlarımız müzəffər ordumuzun, əsgər və zabitlərimizin şücaəti, qəhrəmanlığı sayəsində azad edildi. 8 Noyabr yaddaşlara Zəfər Günü kimi yazıldı.

Bu müqəddəs yolda zabit və əsgərlərimizin bir qismi şəhid, bir qismi qazi oldu. Vətən müharibəsində qanı ilə tarix yazaraq 25 yaşında şəhidlik zirvəsinə ucalan oğullardan biri də mənim övladım, tibb xidməti leytenantı Adil Əfəndiyev oldu. Oğlum döyüş meydanında göstərdiyi igidliyə görə Ali Baş Komandanın sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edildi.



Övladımın şəhidliyindən 4 il keçsə də, onun xatirəsi daim əziz tutulur. Keçirilən bütün tədbirlərdə oğlumun da adı böyük hörmətlə çəkilir, onun göstərdiyi qəhrəmanlıqlar təkrar-təkrar yad edilir. Bu dəfə də Zəfər Günü münasibətilə keçirilən tədbirlərdə oğlumun haqqında yüksək fikirlər səsləndirildi.

Adil Əfəndiyev 2012-ci ildə Qazax şəhər Mehdi Hüseyn adına humanitar və təbiət fənləri üzrə məktəb-liseyi bitirmiş, elə həmin il Azərbaycan Tibb Universitetinə daxil olmuşdur. 2018-ci ildə universitetin Hərbi tibb fakültəsinin "Hərbi həkim işi" ixtisasını bitirən A.Əfəndiyev təyinatla Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda həkim kimi hərbi xidmətə başlamışdır. "N" saylı hərbi hissənin qərargah və təchizat bölüyünün tibb məntəqəsinin rəisi olmuşdur. Vətən müharibəsinin ilk günlərindən cəbhəyə yollanan tibb xidməti leytenantı Adil Əfəndiyev oktyabrın 10-da Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə şəhidliyə qovuşmuşdur.

Qəhrəman şəhidin adını əbədiləşdirmək üçün Qazax Rayon Mərkəzi Xəstəxanasının qarşısında bulaq-abidə kompleksi inşa olunmuş, yaşadığı evin önündə barelyefi vurulmuşdur.

*Qədir ƏFƏNDİYEV,*
*şəhid atası*

● Fotoetüd

## Azad LAÇINIM!



Foto İlham BABAYEVİNDİR

● OPERATİVLİK

## Belə ola həmişə

**Sumqayıtda su sarıdan problem yoxdur. Olanda da əlaqədar təşkilatlar tərəfindən operativ aradan qaldırılır. Yayın sonunda iki və üçüncü mikrorayonlarda su xətləri dəyişdirildi və bundan sonra normal təzyiqdə su ilə təchiz edildik.**



Qaz xətlərində də problem var idi. Qazpaylayıcı qurğu torpaq üstünə qoyulmuşdu. Yağış yağanda qurğu suyun içində qalırdı. Düzdür, gəlib onu təmizləyirdilər. Lakin bu hadisə il ərzində dəfələrlə baş verirdi. Son dövrlər qurğunun ətrafından qaz qoxusu da gəlirdi. Həyətin uşaqları isə çox vaxt qaz borularının üstündə oynayırdı.

Qonşularla yığışıb əlaqədar təşkilatın rəhbərliyi ilə görüşdük. Bizi dinlədikdən sonra nümayəndələr həyətə gəldi, əraziyə baxış keçirdi. Elə həmin günün səhəri qurğunun quraşdırılacağı yerə beton töküldü, yeni qazpaylayıcı qurğu onun üzərinə qoyuldu. Məlum oldu ki, paylayıcıya daxil olan borular da dəyişdirilməlidir. Bir neçə gün ərzində onu da etdilər.

Beləcə, problem həll edildi. Sakinlər bu işdə zəhməti keçən hər kəsə minnətdarlığını bildirir.

*Elçin NƏSİROV,*
*Sumqayıt şəhərinin 2-ci mikrorayon sakini*

● ABADLIQ

## Şəhərimizin küçələri asfaltlaşdırılır

**Lənkəran rayonunun sosial-iqtisadi inkişafına dair tədbirlər planına uyğun olaraq, şəhərimizdə təmirə ehtiyacı olan küçələrin siyahısı müəyyənləşdirilib və ayrılmış büdcə çərçivəsində növbəlilik əsasında asfaltlanma işləri aparılır.**

İlin sonunadək 11 küçənin asfaltlanması nəzərdə tutulub. Bunlar şəhidlərin adlarını daşıyan Elşad Zeynallı, Orxan Quluzadə, Emil Qurbanov, Hamid Əskərov, Elnur Talıbov, Ehtiram Hüseynov və 20 Yanvar, Tofiq İsmayılov , Vaqif Hüseynov, Mirmustafaxan, Əli Məmmədov küçələridir. Artıq bu istiqamətdə hazırlıq işlərinə başlanılıb və bir neçə küçənin asfaltlanması yekunlaşıb. Əli Məmmədov və Tofiq İsmayılov, dalan 1 ünvanlarından sonra şəhid Elnur Talıbov küçəsinin asfaltlanması da başa çatdırılıb.



*Sehran ƏLİYEV,*
*Lənkəran şəhər sakini*

● GİLEY

## "Pensiyamızı almaq üçün Sumqayıt və ya Xızıya getməli oluruq"



**Yaşadığımız Yaşma qəsəbəsi Bakı-Quba yolunun üstündə yerləşir. Əvvəllər cəmi 100 evdən ibarət həmin qəsəbənin ərazisi indi xeyli genişlənib.**

Yaşmada son illər quruculuq və abadlıq işləri də aparılıb. Abad ara yolları, sıra ilə düzülən həyət evləri qəsəbə sakinlərinin səliqə-sahmanından xəbər verir. Onu da qeyd edək ki, Yaşma sakinlərinin çoxu təqaüdçülərdir.

Nəqliyyat sarıdan problemimiz yoxdur. Sumqayıt, Bakı və Şimal bölgəsi istiqamətinə nəqliyyat yaxşı təşkil edilib. Problemimiz yalnız market və bankomat sarıdandır. Ona görə də təqaüdçülər pensiyalarını almaq üçün Sumqayıt və ya Xızıya getməli olurlar. Əlaqədar qurumlardan xahiş edirik ki, Yaşma camaatının bu problemini həll etsinlər.

*Ramilə SEYİDƏHMƏDOVA,*
*Vaqif KƏRİMOV,*
*Anar FƏRZƏLİYEV,*
*Yaşma qəsəbəsinin sakinləri*

● ŞİKAYƏT

## "Payız-qış aylarında yolsuzluq üzündən kəndimizə gedib-gəlmək olmur"

**Kəndlərimiz yaşıllıqlar içində bəzəkli gəlini xatırladır. Bizim tərəfə təşrif buyuran qonaq qarşılaşdığı mənzərələri yaddaşına hopdurub xatirəyə çevirir, bu yerlərə təkrar-təkrar gəlməyə qərar verir.**



Təbii ki, yol problemi həll olunsa. Ötən il rayon mərkəzindən beş kəndi birləşdirən yol təmir edildi. 30 kilometrlik yol asfaltlandı, işıq dirəkləri dəyişdirildi. 30-40 il idi ki, həmin yol yararsız vəziyyətdə idi.

Kəndlərin çoxu bu yolun üstündə yerləşir. Amma bizim Gültəpə kəndi yoldan bir neçə kilometr aralı, bir qədər yüksəklikdədir. Təmir gedəndə bizə bildirdilər ki, kəndimizin içindən keçən yol da normal hala gətiriləcək. Lakin bu, söz olaraq qaldı. İsti havalarda yenə kəndə gedib-gəlmək olur. Amma yağışlı və qarlı günlərdə bu tərəfə gəlmək mümkün deyil. Ona görə də payız və qış aylarında rayon mərkəzi ilə əlaqə kəsilir. Bu da əhalini çətin vəziyyətə salır.

Hörmətli redaksiya, xahiş edirik bizim səsimizi yuxarı orqanlara çatdırasınız ki, gəlib bir tədbir görsünlər.

*Nuru QARAYEV,*
*Quba rayonunun Gültəpə kənd sakini*

AZƏRBAYCAN-a cavab verirlər

## Ərazinin qorunmasının təmin edilməsi üçün yerli icra orqanına müraciət ünvanlanmışdır

**"Azərbaycan" qəzetinin 7 sentyabr 2024-cü il tarixli sayında dərc edilmiş "Tarixi mədəniyyət abidələrimizi göz bəbəyimiz kimi qorumalıyıq" sərlövhəli yazıda Bakı şəhəri, Sabunçu rayonu Ləhiş bağlar massivi ərazisindəki 4483 nömrəli bağ sahəsinin cənub-qərbində, 35-ci dalanın sonunda yerləşən tarixi qəbirlər, qədim yaşayış yeri və kurqanların dağıdılması barədə redaksiyanızın müraciətinə aidiyyəti üzrə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində baxılmışdır.**

Sözügedən əraziyə baxış keçirilmiş, qəbir daşlarından təxminən 40-50 metr kənarda yerləşən və 1,3 metr dərinlikdə 6 kvadratmetrlik sahənin qazıldığı müəyyən edilmişdir. Ərazinin qorunmasının təmin edilməsi üçün Sabunçu Rayon İcra Hakimiyyətinə müraciət ünvanlanmışdır.

Qeyd edək ki, sözügedən ərazi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli qərarı ilə təsdiq edilmiş dövlət tərəfindən mühafizə edilən daşınmaz tarix-mədəniyyət abidələrinin siyahısında yer almamışdır. Eyni zamanda həmin siyahıya daxil edilməsi üçün ərazidə yerləşən tarixi, arxeoloji əhəmiyyət kəsb edən obyektlər qeydə alınıb və qanunvericiliyin tələblərinə uyğun müvafiq tədbirlər görülməkdədir.

*Səbinə HACIYEVA,*
*Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında*
*Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə*
*Dövlət Xidmətinin rəisi*

## Problem həll olunmuşdur

**"Azərbaycan" qəzetinin 12.10.2024-cü il tarixli sayında dərc edilmiş "Zibil konteynerləri vaxtında boşaldılmır" sərlövhəli oxucu məktubunda qaldırılmış problemin həlli istiqamətində tədbir görülməsi barədə Yasamal Rayon İcra Hakimiyyətinə ünvanladığınız 14.10.2024-cü il tarixli məktuba baxılmışdır.**

Bildiririk ki, qaldırılan məsələ ilə bağlı Yasamal Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin ərazi üzrə 19 saylı mənzil-kommunal istismar sahəsinin əməkdaşları tərəfindən Yeni Yasamal yaşayış massivi Əsəd Əhmədov küçəsinə baxış keçirilmişdir. Baxış zamanı ərazinin "Akkord" Etalon MTK yaşayış kompleksinə aid olmasına baxmayaraq, Yasamal rayon MKTB-nin işçiləri tərəfindən mütəmadi olaraq yığışdırıldığı və məişət tullantılarının təmizlik idarəsinin texnikası vasitəsilə daşındığı məlum olmuşdur.

Ünvanın nəzarətdə saxlanılması ərazi üzrə 19 saylı mənzil-kommunal istismar sahəsinə tapşırılmışdır.

*Hüseyn ƏFƏNDİYEV,*
*Yasamal Rayon İcra Hakimiyyəti*
*başçısının birinci müavini*

## "Su təminatında olan çətinliklər aradan qaldırılmışdır"

**Sizin 3 oktyabr 2024-cü il tarixli məktub ilə Regional Su Meliorasiya Xidmətinə ünvanladığınız Ucar rayonu Yuxarı Şilyan kənd sakini Yemilxan Əhmədovun torpaq sahəsinin suvarma suyu ilə təminatında yaranmış çətinliklərin aradan qaldırılmasına kömək göstərilməsi barədə müraciətiniz Regional Su Meliorasiya Xidmətinin mütəxəssisləri tərəfindən rayon icra hakimiyyəti başçısının Yuxarı Şilyan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin, bələdiyyə sədrinin, əraziyə xidmət edən "Bulud" Sudan İstifadəedənlər Birliyinin sədrinin və müraciət müəllifinin iştirakı ilə yerində araşdırılmışdır.**

Məlumat üçün bildiririk ki, Yuxarı Şilyan kəndinin 1200 hektar pay və 135 hektar həyətyanı sahələri, o cümlədən Yemilxan Əhmədovun 1,58 hektar əkin sahəsi Göyçay çayından qidalanan Yuxarı Şilyan suvarma arxı vasitəsilə suvarma suyu ilə təmin olunur.

Cari il iyul ayının sonunda Göyçay çayından keçən sel sularının təsirindən Yuxarı Şilyan suvarma arxının lillənməsi səbəbindən su təminatında müəyyən çətinliklər yaranmışdır. İdarə tərəfindən Yuxarı Şilyan kəndinin arxlarında 22 km lildən təmizlənmə işləri aparılaraq su təminatında olan çətinliklər aradan qaldırılmışdır. Yemilxan Əhmədovun 1,58 hektar yonca sahəsi Yuxarı Şilyan kanalından 3 dəfə suvarma suyu ilə təmin olunmuşdur.

*İlham QULİYEV,*
*Regional Su Meliorasiya Xidmətinin İdarə Heyətinin*
*sədri vəzifəsini müvəqqəti icra edən - sədr müavini*

## Obyekt sahiblərinə xəbərdarlıq edilmişdir

**Qəzetinizin Yasamal rayonu N.Nərimanov prospektində səkilərin ətrafında fəaliyyət göstərən avtoyuma nəntəqələrinin fəaliyyəti nəticəsində ətraf ərazilərin çirklənməsi, eləcə də insanların təhlükəsiz gediş-gəlişinə mane olması barədə 26 oktyabr 2024-cü il tarixli sayında dərc edilmiş "Fotofakt"a Yasamal Rayon İcra Hakimiyyətində baxılmışdır.**

Əməkdaşlarımız müvafiq qurumların iştirakı ilə ünvanda olaraq aşkar olunmuş nöqsanlara dair akt tərtib etmiş və obyekt sahiblərinə gələcəkdə belə hallara yol verilməməsi barədə ciddi xəbərdarlıq edilmişdir.

*Hüseyn ƏFƏNDİYEV,*
*Yasamal Rayon İcra Hakimiyyəti*
*başçısının birinci müavini*

# PAŞA Sığorta "Şanslı və Sığortalı" lotereyasını elan edir!

## STİMULLAŞDIRICI LOTEREYANIN ŞƏRTLƏRİ

**1. Ümumi müddəalar**

1.1. **"Şanslı və Sığortalı"** tirajlı stimullaşdırıcı lotereyanın şərtləri (bundan sonra "Şərtlər" adlandırılacaq) "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Kollegiyasının 05.12.2022-ci il tarixli 21 nömrəli qərarı ilə təsdiqlənmiş "Stimullaşdırıcı Lotereyanın təşkili və keçirilməsi Qaydası"na əsasən hazırlanmışdır.

1.2. Şərtlər **"Şanslı və Sığortalı"** tirajlı stimullaşdırıcı lotereyanın (bundan sonra "lotereya" adlandırılacaq) təşkili və keçirilməsi ilə bağlı məlumatları əks etdirən rəsmi sənəddir.

1.3. Şərtlərdə istifadə olunan əsas anlayışlar "Lotereyalar haqqında" Azərbaycan Respublikası Qanununda və "Stimullaşdırıcı Lotereyanın təşkili və keçirilməsi Qaydası"nda nəzərdə tutulmuş mənada başa düşülür və tətbiq edilir.

**2. Lotereyanın təşkili və keçirilməsi qaydaları**

2.1. Lotereya təşkilatçısı hüquqi ünvanı Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170, VÖEN:1400837161 olan və Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının 12 oktyabr 2016-cı il tarixli 476 nömrəli lisenziyası əsasında fəaliyyət göstərən "PAŞA Sığorta" Açıq Səhmdar Cəmiyyətidir (bundan sonra "Sığortaçı" və ya "Təşkilatçı" adlandırılacaq).

Əlaqələndirici şəxs: Təşkilatçının əməkdaşı olan Brilyant Quliyeva.

*Telefon: daxili nömrə : +994(12)505-12-22; mobil telefon nömrəsi: +994(10)253-83-74*

2.2. Lotereya Sığortaçının daşınmaz əmlak, avtomobil və sağlamlıq sığortası məhsullarının fiziki şəxslərə münasibətdə dövriyyəsinin artırılması məqsədilə keçirilir.

2.3. Lotereyanın başlama tarixi: 24.11.2024-cü il.

2.4. Lotereyanın son tarixi: 24.01.2025-ci il.

2.5. Uduş fondu 30.01.2025-ci il tarixdə 1 tirajla oynanacaq.

2.6. Lotereya Azərbaycan Respublikasının ərazisində keçiriləcək.

2.7. Lotereyada Sığortaçı ilə daşınmaz əmlakın könüllü sığortası, avtomobillərin könüllü sığortası və könüllü tibbi sığorta müqavilələri bağlayan və bu Şərtlərlə müəyyən edilmiş məbləğdə sığorta haqqı ödəyən müştərilər (2.8-ci bənddə nəzərdə tutulan şəxslər istisna olmaqla) iştirak edəcəklər.

2.8. Sığortaçının əməkdaşları, Sığortaçıya aidiyyəti olan şəxslər, qeyri-rezidentlər, hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər (fərdi sahibkarlar) lotereyada iştirak etmir.

2.9. Müştərilər lotereyada iştirak şansı qazandıran sığorta müqavilələrinin bağlanması üçün aşağıdakı satış kanallarından istifadə edə bilərlər:

2.9.1. onlayn satış kanalları - "PAŞA Sığorta" ASC-nin rəsmi internet səhifəsi, online satış portalı və mobil tətbiqetməsi;

2.9.2. tele satış kanalları - *7000 qaynat xətti;

2.9.3. sığorta vasitəçiləri (sığorta agentləri);

2.9.4. fiziki olaraq - "PAŞA Sığorta" ASC-nin baş ofisinə, satış ofisinə və ərazilər üzrə nümayəndəliklərinə yaxınlaşmaqla;

2.9.5. hibrid satış kanalları vasitəsilə (2.9.1-2.9.4-cü bəndlərdə nəzərdə tutulan satış kanalllarının bir neçəsindən eyni zamanda istifadə etməklə).

2.10. Lotereya müddəti ərzində Şərtlərin 2.7-ci bəndində nəzərdə tutulan sığorta müqavilələri üzrə ödənilən hər 99 AZN müştərilərə lotereyada 1 iştirak şansı qazandıracaq.

*Misal 1: Müştəri 751 AZN sığorta haqqı ödəyərsə, 7 şans qazanacaq.*

*Misal 2. Müştəri lotereya dövründə müxtəlif müqavilələr üzrə ayrılıqda 70 AZN və 60 AZN dəyərində sığorta haqqı ödəyərsə, ümumilikdə 99 AZN-dən çox sığorta haqqı ödənişi etmiş olsa da, lotereyada iştirak şansı qazanmır.*

2.11. Şans qazandırmayan ödənişlər aşağıdakılardır:

2.11.1. Sığorta haqqı məbləği 99 AZN-dən az olan sığorta müqaviləsi üzrə ödənişlər;

2.11.2. Şərtlərin 2.7-ci bəndində nəzərdə tutulan sığorta müqavilələri istisna olmaqla digər müqavilələr üzrə istənilən həcmdə ödənişlər;

2.11.3. Sığortalının tələbi ilə vaxtından əvvəl xitam verilən sığorta müqavilələri üzrə həyata keçirilmiş sığorta haqqı ödənişləri.

2.12. Uduş fondunun oynanılması 1 tirajda həyata keçiriləcək. Tirajda aşağıda göstərilən qayda üzrə qalib elan ediləcək:

*5 (beş) nəfər "Music Gallery" mağazasından 500 AZN (beş yüz manat) dəyərində hədiyyə kuponu, 3 (üç) nəfər "PASHA Travel" turizm şirkətindən 1000 AZN (min manat) dəyərində şirkətin təqdim etdiyi istənilən xidməti əldə etmək üçün vauçer, 3 (üç) nəfər smart saat (Apple Watch Series 9 GPS, 41mm), 3 (üç) nəfər Apple Iphone 15 Pro Max (yaddaş - 256 GB), 2 (iki) nəfər Macbook Air 13.6" Apple M2 və 1 (bir) nəfər Toyota CH-R avtomobili (istehsal ili 2024, rəngi gümüşü-metal, yürüyüş 0 km, Hibrid) qazanacaq. Ümumi olaraq tirajda 17 nəfər qalib elan ediləcək.*

2.13. Bir müştəri tirajda yalnız bir dəfə qalib ola bilər.

2.14. Müştərilər Təşkilatçının rəsmi internet saytına (www.pasha-insurance.az) keçid edərək lotereyanın şərtləri ilə tanış ola bilərlər.

2.15. Şanslar "PAŞA Sığorta" ASC-nin müştərilər üzrə məlumat bazasında (Fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrində 15.03.2013-cü il tarixdə İS400405001 reyestr nömrəsi ilə qeydiyyata alınmışdır) hesablanacaq və elektron bilet formalaşdırılacaq. Bilet sahibi əldə etdiyi biletlərlə özünün müştəri kabinetində tanış ola bilər.

2.16. Lotereyanın son tarixdən (24.01.2025-ci il) uduş fondunun oynanılacağı tarixədək (30.01.2025-ci il) məlumat bazasında formalaşmış biletlərin bu Şərtlərin 2.8-ci bəndinə uyğunluğu Təşkilatçı tərəfindən yoxlanılacaq. Sığortaçının əməkdaşlarının, Sığortaçıya aidiyyəti olan şəxslərin, qeyri-rezidentlərin, hüquqi şəxslərin və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin (fərdi sahibkarlar) bilet əldə etdiyi müəyyən olunarsa, həmin biletlər uduş fondunun oynanması üçün elektron püşkatmanı həyata keçirən xüsusi kompüter proqramına (https://www.app-sorteos.com veb saytı) daxil edilməyəcək.

2.17. İştirak şansı qazanan müştərilərə dair aşağıdakı məlumatlar proqramda hazırlanmış xüsusi siyahıya daxil ediləcək:

- Elektron biletin nömrəsi (iki hərf və altı rəqəm kombinasiyasından ibarət olmaqla)
- Lotereya iştirakçısının adı, soyadı, atasının adı, doğum tarixi;
- Lotereya iştirakçısının şəxsiyyətini təsdiq edən sənədin FİN kodu;
- Lotereya iştirakçısının mobil nömrəsi;
- Lotereya iştirakçısının iştirak şansı qazandığı sığorta ödənişinin aid olduğu sığorta müqaviləsinin nömrəsi.

2.18. Qalib tərəfindən uduşun alınması hüququnun üçüncü şəxslərə güzəşt edilməsinə yol verilmir.

2.19. Əldə edilən qeyri-pul uduşlarının pul ekvivalentinin ödənilməsinə yol verilmir.

2.20. Sığortaçı tərəfindən uduş fonduna əlavə vəsaitin qoyulması və həmin vəsaitin udulmamış hissəsinin geri götürülməsi nəzərdə tutulmamışdır.

2.21. Tiraj Bakı şəhəri, Nəsimi rayonu, Mikayıl Useynov prospekti, 61 ünvanında keçiriləcəkdir.

2.22. Uduş fondunun oynanması **https://www.app-sorteos.com** veb saytı vasitəsilə elektron püşkatma qaydasında həyata keçirilir. Lotereyanın uduş fondunun oynanılması "YouTube" platformasında "PASHA Insurance" kanalında (@pashainsurance4129) birbaşa olaraq yayımlanır.

2.23. Lotereyanın uduş fondunun təyin edilmiş qaydalar əsasında oynanmasına nəzarət məqsədilə tiraj komissiyası və komissiya sədri təyin ediləcəkdir. Təşkilatçı uduş fondunun oynanılmasına azı 1 (bir) iş günü qalmış tiraj komissiyasının üzvləri haqqında məlumat Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə təqdim edir. Tiraj komissiyasının sədri müəyyən edilmiş tarixdə, vaxtda və yerdə toplaşaraq uduş fondunun oynanılmağa başlandığını elan edir. Eyni məqsədlərlə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin lotereyaların keçirilməsinə nəzarəti həyata keçirən müvafiq strukturunun əməkdaşları üçün lotereyanın keçirilməsində istifadə olunan xüsusi proqram təminatına giriş imkanı (istifadəçi adı və şifrə) Sığortaçı tərəfindən təqdim edilir.

2.24. Tirajda seçimə başlanılarkən hər dəfə oynanılan hədiyyənin adı elan olunur. Növbəti mərhələdə lotereya üzrə aparıcı, tiraj komissiyasının sədri və ya üzvlərindən biri müvafiq düyməsini basmaqla proqramı işə salır. İşə salınmış proqram 10 saniyə ərzində yüksək sürətlə qaydasız şəkildə cədvəldə olan bilet nömrələrini bir-bir seçir. Proqram seçimi dayandırdıqda kompüterin monitorunda proqramın seçdiyi sonuncu bilet nömrəsi göstərilir. Bu şərtlərin 2.24.1-ci bəndində göstərilən hallar istisna olmaqla həmin bilet uduşlu sayılır. Uduşlu biletin nömrəsi kompüterin monitorunda göstərilir və tiraj komissiyası tərəfindən bu barədə müvafiq qeydiyyat aparılır.

2.24.1. Proqram seçimi tamamladıqdan sonra kompüterin monitorunda proqramın seçdiyi sonuncu biletin bu Şərtlərin 2.13-cü bəndinin tələblərini uyğunluğu tiraj komissiyası tərəfindən yoxlanılır. Proqramın seçdiyi sonuncu bilet tirajda daha öncə qalib olmuş iştirakçıya məxsus olduqda tiraj komissiyası biletin uduşlu olmadığını elan edir və həmin hədiyyə yenidən oynanılır.

2.24.2. Proqramın seçdiyi biletin bu Şərtlərin 2.13-cü bəndinin tələblərini uyğunluğu tiraj komissiyası tərəfindən təsdiq edildiyi halda tiraj komissiyası biletin uduşlu olduğunu elan edir.

2.25. Təşkilatçı uduş fondunun oynanıldığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq uduş fondu və uduşa düşmüş lotereya biletlərinin nömrələri və (və ya) seriyaları barədə məlumat mediada elan və 7 (yeddi) iş günündən gec olmayaraq uduşların verilməsi (ödənilməsi) üçün uduşlu lotereya biletlərinin qəbul müddəti və uduşların verilməsi (ödənilməsi) qaydaları haqqında məlumatı özünün inernet səhifəsində yerləşdirir.

2.26. Lotereya iştirakçısı 18 yaşına çatmış fiziki şəxslər (2.8-ci bənddə nəzərdə tutulan şəxslər istisna olmaqla) ola bilər.

2.27. Sığortaçı lotereyanın şərtlərinə edilmiş əlavələr və (və ya) dəyişikliklər haqqında məlumatı uduş fondunun oynanılması tarixinə azı 7 (yeddi) iş günü qalmış mediada elan edəcəkdir.

2.28. Qalib olan müştərilər uduş fondunun oynanıldığı tarixdən 7 (yeddi) iş günü sonra və 90 (doxsan) iş günü ərzində şəxsiyyəti təsdiq edən sənədi təqdim edərək Sığortaçının baş ofisinə (Bakı şəhəri, Nəsimi rayonu, Mikayıl Useynov prospekti 61) müraciət edə bilərlər. Uduş, qalib olan müştərinin tələbi irəli sürüldüyü tarixdən etibarən müştərinin 30 (otuz) iş günündən gec olmayaraq ona verilir. Uduş qalibi olan müştəri uduşun ona təqdim edilməsi üçün şəxsiyyəti təsdiq edən sənədi təqdim etməlidir.

2.29. Uduş fondunun oynanıldığı tarixdən 7 (yeddi) iş günü sonra və 90 (doxsan) iş günü ərzində qalib olan müştəri uduşu əldə etmək üçün müraciət etmədiyi təqdirdə uduş Təşkilatçının sərəncamında qalır.

2.30. Təşkilatçı lotereyanın şərtlərinə edilmiş əlavələr və (və ya) dəyişikliklər haqqında uduş fondunun oynanılması tarixinə azı 3 (üç) iş günü qalmış media vasitəsilə elan edəcəkdir.

**3. Yekun müddəalar**

3.1. Lotereyanın təşkili və keçirilməsi ilə əlaqədar digər münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

3.2. Bu şərtlər lotereya iştirakçılarının tanış ola bilməsi üçün "Azərbaycan" qəzetində, Təşkilatçının rəsmi saytında (www.pasha-insurance.az) açıqlanır və lotereyanın təşkilatçısı və iştirakçıları üçün məcburi qüvvəyə malikdir.

3.3. Qaliblərin siyahısı və onlar haqqında məlumat www.pasha-insurance.az saytında və "Azərbaycan" qəzetində yerləşdiriləcəkdir.

# "Azərenerji": COP29 vaxtı enerji təminatı qüsursuz həyata keçirilib

**11-22 noyabr tarixlərdə keçirilən COP29 tədbirinin və ümumilikdə Bakı şəhəri başda olmaqla ölkənin fasiləsiz və dayanıqlı elektrik təchizatının təmin edilməsi üçün "Azərenerji" ASC üzərinə düşən bütün öhdəlikləri yerinə yetirib.**



Belə ki, müvafiq dövlət qurumları ilə birgə 24 saat fasiləsiz olaraq strateji əhəmiyyətli yüksəkgərginlikli ötürmə xətləri, qovşaq yarımstansiyaları, o cümlədən istehsal mənbəyi olan elektrik stansiyalarının fiziki təhlükəsizliyi tam təmin edilib və texniki personal, xüsusi təyinatlı briqada və səyyar diaqnostika avadanlıqları gecə-gündüz iş başında olub. Eyni zamanda paytaxt və ətraf ərazilərdə yerləşən 37 qovşaq yarımstansiyası, 129 ötürmə xətti və 6 elektrik stansiyası daim təftiş olunub. SCADA sistemi başda olmaqla bütün enerjisistemin proqram təminatı və rəqəmsal idarəetməsi üçün kiber təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə həyata keçirilib. Nəticədə, tədbir müddətində baş verə biləcək təhlükələr anında aradan qaldırılıb və heç bir qəza açılması yaşanmayıb.

Paralel olaraq "Azərenerji" COP29 tədbirində yaxından təmsil olunub. Belə ki, "mavi zona"da "Azərenerji" rəhbərliyi müxtəlif tədbirlərdə iştirak edib. "Yaşıl zona"da isə "Azərenerji" tərəfindən gələcəyin enerjisistemi, karbon sertfikatı, "yaşıl enerji" zonası, dekarbonizasiya, elektroenergetikanın modernizasiyası, data analitika, "yaşıl enerji" xabı və başqa mövzularda dünyanın aparıcı enerji şirkətlərinin iştirakıyla ümumilikdə 18 tədbir, memorandum imzalanması, təqdimat və görüşlər keçirilib.

COP29 tədbiri müddətində "Azərenerji" ilə "Azərişıq" ASC-lərin "yaşıl zona"da yerləşən pavilyonunu 10 minədək qonaq ziyarət edib ki, onların arasında nüfuzlu şəxslər, xarici qonaqlar üstünlük təşkil edib.


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Xüsusi qayğıya ehtiyacı olan ailələrin uşaqları (18 yaşınadək əlilliyi müəyyən edilmiş) üçün Yeni il şənliyinin təşkili" (Bakı, Abşeron və Sumqayıt üzrə) adlı müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 6 dekabr 2024-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

**Müsabiqə 9 dekabr 2024-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.**

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036)**

***Müsabiqə komissiyası***


# "The New York Times" Naftalan nefti ilə bağlı məqalə dərc edib

**Məqalədə deyilir ki, Azərbaycan dünya miqyasında təkcə zəngin enerji ehtiyatları ilə deyil, həm də unikal sağlamlıq turizmi ilə tanınır.**




Bu il BMT-nin iqlim sammitinin keçirildiyi ölkə olan Azərbaycan öz neftinin yalnız iqtisadi deyil, həm də sağlamlıq üçün faydaları ilə fəxr edir.

Müəllif yazır ki, əsrlərdir Azərbaycanda Naftalan nefti xüsusi müalicəvi xüsusiyyətləri ilə tanınır. Yerli sakinlər və dünyanın dörd bir yanından gələn turistlər bu neftin dərman kimi təsirindən yararlanmaq üçün xüsusi sanatoriyalara üz tuturlar: "Naftalan nefti dəri xəstəliklərindən revmatizmə qədər müxtəlif problemlərin müalicəsində istifadə edilir. Məşhur Naftalan sanatoriyaları, müalicə vannaları ilə tanınaraq sağlamlıq turizmi sahəsində Azərbaycanı beynəlxalq arenada fərqləndirir".

Bildirilir ki, Azərbaycan nefti yalnız enerji ehtiyatı kimi deyil, həm də xalqın sağlamlıq irsinin bir hissəsi kimi önəm daşıyır: "Naftalan bölgəsi bu unikal neftin müalicəvi xüsusiyyətləri ilə məşhurlaşaraq turizmi inkişaf etdirən əsas mərkəzlərdən biridir".

Məqalədə deyilir ki, BMT-nin iqlim sammitinin Azərbaycanda keçirilməsi ölkənin həm enerji, həm də sağlamlıq sahəsində neftin fərqli istifadələrinə dair dünya ilə paylaşa biləcəyi çox şey olduğunu göstərir: "Azərbaycan bu sahədəki tarixi irsi və təcrübəsi ilə yeni nəsillərə nümunə olmağa hazırdır".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# BƏƏ-dən olan şagirdlər Azərbaycanda keçirilən müsabiqənin qalibi olublar

**Əbu-Dabidən olan 12-ci sinif şagirdləri öz innovativ təkrar emal həlli ilə Azərbaycan paytaxtında keçirilən COP29-da mötəbər ekoloji müsabiqənin qalibi olublar.**

AZƏRTAC xəbər verir ki, mükafata layiq görülən üçlük Oksford Universitetində "Future Climate Innovators 2025" yay məktəbinə qoşulacaq və burada qlobal ekspertlərlə əməkdaşlıq edəcəklər.

Məktəbli qızlar bildiriblər: "COP29-da çıxış etmək imkanı, xüsusən də tolerantlıq və birliyi təmsil edən BƏƏ-də birgə işləyən müxtəlif ölkələrdən olan fərqli mənşəyli gənc qızlar üçün bir imtiyazdır".

Komandanın innovativ yanaşması lildən ammonyak və metalları çıxarmaq üçün innovativ texnologiyalardan istifadə edərək onun süzülməsini nəzərdə tutur. Bu innovativ həll, həmçinin əlavə kimyəvi maddələr əldə etməklə karbon emissiyalarını azaldır, təkrar emal və ətraf mühitin mühafizəsi üçün ikili fayda təmin edir.

BƏƏ-dən olan komanda müsabiqədə qalib gəlməklə yanaşı, daha geniş perspektivləri hədəfləyir. Belə ki, qızlar öz həll yollarını Cənubi Asiya ölkələrində, o cümlədən Banqladeş, Şri-Lanka, Hindistan və Pakistanda, eləcə də Azərbaycanın özündə tətbiq etməyi planlaşdırırlar.

"Oxford Said Burjeel Holdings Climate Change Challenge" müsabiqəsi iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirak edən gənclərin səylərini vurğulayan 58 ölkədən 1000-dən çox müraciət qəbul edib. BƏƏ komandasının qələbəsi qlobal böhranların həllində innovasiyaların kritik rolunu vurğulayır.

"Burjeel Holdings"in baş direktoru deyib: "Biz başa düşürük ki, iqlim dəyişikliyi ilə mübarizə həm sağlamlığımızı, həm də planetimizi qorumaq üçün çox vacibdir. Bu, BƏƏ-nin davamlı inkişaf vizyonuna tam uyğundur. Səhiyyə sahəsində lider olaraq, biz bu səylərdə fəal rol oynamaqdan qürur duyuruq".

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Raqif Məmmədli professor Tofiq Hüseynova həyat yoldaşı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru






www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4219
Sifariş 2653

Qiyməti 60 qəpik